ISSN 2413-3302

Əziz Əliyev adına elmi-praktik jurnal
"Tibb və Elm" №1 (27) (2022)

Scientific-practical journal named after A.Aliyev
"The Medicine and Science"

Bakı - 2022

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
Ə.ƏLİYEV adına AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTU

Əziz Əliyev adına elmi-praktik jurnal
"Tibb və Elm"

2015-ci ildən nəşr edilir.
Təsisçi: Ə.ƏLİYEV ad. AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTU
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində
22.06.2015-ci ildə qeydə alınmışdır, № 3990
ISSN: 2413-3302
İldə 4 dəfə çap olunur. Tiraj: 200

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Ünvan: Azərbaycan, Bakı şəhəri, AZ1012,
Tbilisi prospekti, 3165-ci məhəllə.
Tel: +994125650420, +994503466883
e-mail: aadhti@mail.ru;
medandscience@mail.ru
vebsəhifə: www.adhti.edu.az

Baş Redaktor:
Nazim Qasımov
Baş red.müavini:
Kamil Hacımuradov
Redaksiya Heyəti:
Teymur Musayev
Rauf Ağayev
Elsevər Ağayev
Cəmil Əliyev
Əhliman Əmiraslanov
Oqtay Seyidbəyov
Elmar Qasımov
Məmmədəli Meybəliyev
Rahim Əliyev
Məsul katib:
Təyyar Eyvazov

Bakı - 2022

REDAKSİYA ŞURASI

ÖNDƏR YAMAN (Türkiyə)

OQTAY ERGENE (Türkiyə)

ADİL MƏMMƏDOV (Rusiya)

MEHMAN MƏMMƏDOV (Rusiya)

TEYMUR QAFAROV (Azərbaycan)

ALEKSANDR ÇERNOUSOV (Rusiya)

İRİNA ZAXAROVA (Rusiya)

ALEKSANDR AMETOV (Rusiya)

İRİNA LORANSKAYA (Rusiya)

VLADİMİR KUÇERENKO (Rusiya)

LARİSA MOŞETOVA (Rusiya)

METİN ÖNERÇİ (Türkiyə)

VALENTİNA OLESOVA (Rusiya)

RAYS TULEBAEV (Qazaxıstan)

DMİTRİY ZABALOTNIY (Ukrayna)

SUSAN C.BRUNSELL (ABŞ)

WILLIAM J.LAWTON (ABŞ)

CIVAN IŞLAK (Türkiyə)

MEHMET BILGIN SAYDAM (Türkiyə)

ALEKSANDR SİNOPALNİKOV (Rusiya)

ROMAN KOZLOV (Rusiya)

ANDREAS C.PETROPOULOS (Yunanıstan)

FAZİL AĞAYEV (Azərbaycan)

ELCAN MƏMMƏDBƏYOV (Azərbaycan)

NƏSİB QULİYEV (Azərbaycan)

RƏNA ŞİRƏLİYEVA (Azərbaycan)

ŞAKİR MUSAYEV (Azərbaycan)

SƏİDƏ SƏİDXOCAYEVA (Özbəkistan)

AZERBAIJAN REPUBLIC MINISTRY of HEALTH

AZERBAIJAN STATE ADVANCED TRAINING INSTITUTE FOR DOCTORS named by A.ALIYEV

Scientific-practical journal named after A.Aliyev
"The Medicine and Science"

Publeshed from 2015.

Founder: AZERBAIJAN STATE ADVANCED TRAINING INSTITUTE FOR DOCTORS named by A.ALIYEV

Registred in Ministry of Justice of Azerbaijan Republic in 22.06.2015, № 3990

ISSN: 2413-3302

Published quartarly. Circulation 200

The journal is included to the list of recommended journals by Higher Attestation Commission under the President of Azerbaijan Republic, where main scientific results of dissertations should be published.

Editor in chief:

Nazim Gasimov

Deputy editor in chief:

Kamil Hajimuradov

Editorial board:

Teymur Musayev

Rauf Agayev

Elsever Agayev

Djamil Aliyev

Ahliman Amiraslanov

Ogtay Seyidbayov

Elmar Gasimov

Mammadali Meybaliyev

Rahim Aliyev

Executive secretary:

Tayyar Eyvazov

Address: Azerbaijan, Baku, AZ1012,
Tbilisi ave. block 3165.
Phone: +994125650420,+994503466883
e-mail: aadhti@mail.ru;
medandscience@mail.ru
website: www.adhti.edu.az

Baku - 2022

ADVISORY BOARD

ONDER YAMAN (Turkey)
OGTAY ERGENE (Turkey)
ADIL MAMMADOV (Russia)
MEHMAN MAMMADOV (Russia)
TEYMUR GAFAROV (Azerbaijan)
ALEKSANDR CHERNOUSOV (Russia)
IRINA ZAXAROVA (Russia)
ALEKSANDR AMETOV (Russia)
IRINA LORANSKAYA (Russia)
VLADIMIR KUCHERENKO (Russia)
LARISA MOSHETOVA (Russia)
METIN ONERCHI (Turkey)
VALENTINA OLESOVA (Russia)
RAYS TULEBAEV (Kazakhistan)
DMITRIY ZABALOTNIY (Ukraine)
SUSAN C.BRUNSELL (USA)
WILLIAM J.LAWTON (USA)
CIVAN ISHLAK (Turkey)
MEHMET BILGIN SAYDAM (Turkey)
ALEKSANDR SINOPALNIKOV (Russia)
ROMAN KOZLOV (Russia)
ANDREAS C.PETROPOULOS (Greece)
FAZIL AGAYEV (Azerbaijan)
ELCAN MAMMADBAYOV (Azerbaijan)
NASIB GULIYEV (Azerbaijan)
RANA SHIRALIYEVA (Azerbaijan)
SHAKIR MUSAYEV (Azerbaijan)
SAIDA SAIDKHOJAYEVA (Uzbekistan)

МИНИСТЕРСТВО ЗДРАВОХРАНЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ИНСТИТУТ УСОВЕРШЕНСТВОВАНИЯ ВРАЧЕЙ имени А.АЛИЕВА

Научно-практический журнал имени А.Алиева
“Медицина и Наука”

Печатается с 2015 года.

Учредитель: АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ИНСТИТУТ УСОВЕРШЕНСТВОВАНИЯ ВРАЧЕЙ имени А.АЛИЕВА

Зарегестрировано в Министерстве Юстиции Азербайджанской Республики в 22.06.2015, № 3990

ISSN: 2413-3302

Выпускается ежеквартально. 200 экземпляров

Журнал включен в список периодических изданий рекомендуемых Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики, в которых могут быть опубликованы основные научные результаты диссертаций.

Адрес: Азербайджан, Баку, AZ1117,
Тбилисский проспект, блок 3165.
Тел: +994125650420, +994503466883
e-mail: aadhti@mail.ru;
medandscience@mail.ru
веб-страница: www.adhti.edu.az

Главный Редактор:

Назим Гасымов

Зам главного редактора:

Камиль Гаджимурадов

Редакционная коллегия:

Теймур Мусаев

Рауф Агаев

Эльсевер Агаев

Джамиль Алиев

Ахлиман Амирасланов

Октай Сейидбеков

Эльмар Гасымов

Маммедали Мейбалиев

Рагим Алиев

Ответственный секретарь:

Таййар Эйвазов

Баку - 2022

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ОНДЕР ЯМАН (Турция)

ОКТАЙ ЭРГЕНЕ (Турция)

АДИЛ МАМЕДОВ (Россия)

МЕХМАН МАМЕДОВ (Россия)

ТЕЙМУР ГАФАРОВ (Азербайджан)

АЛЕКСАНДР ЧЕРНОУСОВ (Россия)

ИРИНА ЗАХАРОВА (Россия)

АЛЕКСАНДР АМЕТОВ (Россия)

ИРИНА ЛОРАНСКАЯ (Россия)

ВЛАДИМИР КУЧЕРЕНКО (Россия)

ЛАРИСА МОШЕТОВА (Россия)

МЕТИН ОНЕРЧИ (Турция)

ВАЛЕНТИНА ОЛЕСОВА (Россия)

РАЙС ТУЛЕБАЕВ (Казахыстан)

ДМИТРИЙ ЗАБАЛОТНЫЙ (Украина)

СЮЗАН ДЖ.БРУНСЕЛЛ (США)

УИЛЬЯМ Ж.ЛОУТОН (США)

ДЖИВАН ИШЛАК (Турция)

МЕХМЕТ БЫЛГЫН САЙДАМ (Турция)

АЛЕКСАНДР СИНОПАЛЬНИКОВ (Россия)

РОМАН КОЗЛОВ (Россия)

АНДРЕАС ДЖ.ПЕТРОПОУЛОС (Греция)

ФАЗИЛЬ АГАЕВ (Азербайджан)

ЭЛЬДЖАН МАМЕДБЕКОВ (Азербайджан)

НАСИБ ГУЛИЕВ (Азербайджан)

РЕНА ШИРАЛИЕВА (Азербайджан)

ШАКИР МУСАЕВ (Азербайджан)

САИДА САИДХОДЖАЕВА (Узбекситан)

ƏDƏBİYYAT İCMALI | ЛИТЕРАТУРНЫЕ ОБЗОРЫ | LITERATURE REVIEWS

HAMİLƏ QADINLARDA XRONİKİ VENOZ ÇATMAMAZLIĞIN PROQRESSİVLƏŞMƏSİNİN RİSK FAKTORLARI

İsmayılova N.F.*

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, ümumi və plastik cərrahiyyə kafedrası, Bakı, Azərbaycan

Xroniki venoz çatmamazlıq əhali arasında geniş yayılmış xəstəlikdir, əksər hallarda reproduktiv yaşda olan qadınlarda rast gəlinir. Bu məqalə venoz çatmamazlığı olan hamilə qadınlarda risk faktorlarını müəyyən etmək üçün tədqiqatların nəticələrinə dair materialların nəzərdən keçirilməsinə həsr edilmişdir. Yaş, artıq çəki, hündür boy, siqaret, təkrar doğuşlar, irsi meyllik risk faktorları sayılır. Bu amilləri olan hamilə qadınlara trombozun qarşısını almaq üçün kompression corabların istifadəsi tösiyyə olunur.

Açar sözlər: hamiləlik, venoz çatmamazlıq, tromboz, risk faktorları.

Aşağı ətrafların xroniki venoz çatmamazlığı (XVÇ) dünya miqyasında geniş yayılmış patologiylardan olmaqla, ümumi əhali arasında rast gəlmə tezlilyi bir orta hesabla 2% ilə 60% arasında dəyişir. Əgər Afrika ölkələrində və Sakit Okean hövzəsində XVÇ-nin rast gəlmə tezliyi 5-6% təşkil edirdisə, Avropa ölkələrində bu rəqəmin 10%-dən də yuxarı qalxması müəyyən edilmişdir. Rusiyda varikoz genişlənmiş venalar hər 100 000 əhaliyə 850-860 nəfərdə qeyd edilir [1-5].

Aparılmış tədqiqatlar göstərmişdir ki, son illər ərzində XVÇ-nin rast gəlmə tezliyi əhəmiyyətli yüksəlmişdir. Xəstəliyin hamilə qadınlarda daha tez-tez təsadüf etməsi doğuşlar zamanı və sonrakı dövrlərdə fəsadların rast gəlmə tezliyinin artmasına səbəb olmuşdur. Xəstələrdə patoloji prosesin çox qısa zaman ərzində proqressivləşməsi qeyd edilir. Əməliyyat olunmuş xəstələr də, bu patologiyadan tam uzaqlaşa bilmir və müxtəlif narahatlıqlar ilə yaşayırlar [8-10].

Ümumiyyətlə isə bütün XVÇ-li xəstələrində ənənəvi olaraq yuxarı yaş, qadın cinsi, piylənmə, irisiyyət risk faktorları kimi dəyərləndirilmişdir. Spesifik faktorlara isə hamiləlik, hormonal preparatların qəbulu, az hərəkətli həyat tərzini qeyd etmək olar. Nəzərə alınsa ki, son illər ərzində bütün inkişaf etmiş ölkələrdə adinamiya və piylənmə global problemə çevrilmişdir, yaxın on illiklər ərzində XVÇ-li xəstələrin də sayında artımın olması qaçılmazdır [11-13].

Braziliyadan olan mütəxəssislər tərəfiindən sağlam ilk dəfə hamilə qalan qadınlarda aparılan tədqiqat göstərmişdir ki, ilk trimestrdə heç bir qadında venoz reflüks və ayaqda ödem müşahidə edilməmişdir II trimestrdə reflüks xəstələrin 5%-də, ayaqda ödem isə 20%-də qeydə alınmışdır. Reflüks ilə ödem arasında əlaqə dürüst olmamışdır. III trimestrdə isə reflüks 15%-ə, ödemin rast gəlməsi isə 55%-ə yüksəlmişdir. Lakin yenə də ödem və venoz reüflüks arasında korelyativ əlaqə sübut edilməmişdir (p=0,21). Sağlam ilk dəfə hamilə qadınlarda ödem və venoz reflüksü məhz hamiləliklə əlaqələndirilmiş, yalnız hamiləliyin 2 və 3-cü trimestrində əmələ gəldiyini və biri-birilə dürüst əlaqəsinin olmaması nəticəsinə gəlinmişdir [14].

Deməli heç də bütün hamilə qadınlarda XVÇ-ni bütün dəyişikliklərin səbəbi kimi qiymətləndirmək olmaz. Yalnız xüsusi faktorlar və şərait yaradan halların varlığında hamilə qadınlarda aşağı ətraflarda XVÇ inkişaf edir və ya əvvəlcədən mövcu olan proseslər daha da proqressivləşir.

Tədqiqatın məqsədi hamilə qadınlarda XVÇ və onun ağırlaşmalarının inkişafə üçün şərait yaradan risk faktorları barəsində son illərin ədəbiyyat nümənələrində olan məqalələrin icmal şəklində analizindən ibarət olmuşdur.

XVÇ-nin patofiziologiyasında əsas faktorlar aşağı ətraflarda venoz qanın axınına maneə yaranması səbəbindən venoz təzyiqin artması göstərilir. Buna şərait yaradan səbəblər isə dərin və ya səthi venalarda qapaq aparatının disfunksiyası, dərin venalara venoz qan reflüksu, venaların tutulması və yaxud bu səbəblərin müştərək mövcudluğu ola bilər. Səthi və dərin venalarda olan uzun müddətli venoz durğunluq mikrosirkulyator hövzədə kapillyar mübadiləsini pozur, əvvəlcə mikrosirkulyator sonra isə qan dövranı pozğunluqları meydana çıxır. Mikrosirkulyator pozğunluqlar hüceyrə hipoksiyası və trofiki pozğunluqlar, hiperpiqmentasiya, dərialtı

*e-mail: aslanim75@mail.ru

fibroz, xoralaşma kimi fəsadlaşmış halların yaranmasına gətirib çıxarır [15-18].

Son illərin tədqiqatarın nəticələri venoz problemlər ilə müraciət qadınlarda 5P qaydasına diqqət yetirilməsini tələb edir. 5P dedikdə baş hərfləri ingilis dilində P hərfi ilə başlayan 5 faktor nəzərdə tutulur: Period – ayabaşı tsiklin vəziyyəti; Pill – oral kontraseptiv həblər; Prognosis – proqnoz; Pregnancy – hamiləlik; Posthrombotic syndrome – postrombotik sindrom. Aybaşı tsiklini tənzimləyən hormonların disfunksiyası səbəbindən xəstələrdə izafi qanama və ya ümumiyyətlə aybaşı qanaxmalarının olmaması meydana çıxa bilər. Əksər hallarda belə xəstələrə problemin xüsusiyyətindən asılı olaraq ya antikoaqulyantlar, ya da hormonal preparatlar təyin edirlər ki, bu preparatlar aşağı ətraflarda venoz qan axınına bu və ya digər dərəcədə təsir göstərmək gücünə malikdir. Oral kontraseptiv preparatlar venoz tromboembolizmin inkişafı üçün risk faktoru kimi qəbul edilmişdir. Cavan qadınlarda keçici xarakterli hormonal pozğunluqlar inkişaf edir ki, bu hallar aşağı ətraflarda venoz çatmamazlıq ilə müşayət oluna bilər və bu proqnozun ağırlaşmasının göstəricisidir. Anamnezində venoz çatmamazlıq əlamətləri olan qadınlarda hamiləlik zamanı bu problemlərin proqressivləşməsi labüddür. Kişilərə nisbətən qadınlar daha çox venoz çatmamazlıqdan əziyyət çəkirlər. Ümumi konstitusional habitus, hormonal disbalans və növbəti hamiləlik xəstələrdə posttrombotik sindromun inkişaf etməsinə əlverişli şərait yaratmış olur [19-23].

Kasperczak və həmm. venoz çatmamazlığı olan (əsas qrup) və olmayan (nəzarət) hamilə qadınları hamiləliyin 2 və 3-cü trimestrində və doğuşdan sonra müqayisə etmişlər. Nəzarət qrupunda teleangioektaziyalar, varikoz dəyişikliklər və ödem hamiləliyin müddəti artdıqca inkişaf etmiş, 3-cü trimestrdə maksimuma çatmışdır. Eyni əlamətlər əsas qrupda da olmuşdur. Doğuşdan 6 həftə sonra qeyd edilən əlamətlərin nisbətən azalması qeyd edilmişdir. Məlum olmuşdur ki, venoz çatmamazlığın olması və olmaması bu əlamətlərin yaranması və sonradan itməsi ilə statistik dürüst bağlı deyildir. Aşağı ətrafların ödemi hamiləlik zamanı xroniki venoz çatmamazlığın dürüst əlaməti ola bilməz, çünki ödemin yaranması üçün hamiləlik zamanı bir sıra digər mexanizmlərdə prosesə qoşulmuş olur. Doğuşdan 6 həftə sonrakı müddət venoz sistemin normallaşması üçün yetərli deyildir [24].

Serbiyadan olan tədqiqatçılar multiple logistic regression analiz nəticəsində yuxarı yaş qrupu, oturaq iş yeri və ailədə venoz çatmamazlığın olmasını risk faktoru kimi təsdiq edilmişdir. Hamiləlik və uşaq doğma isə risk faktoru kimi dürüstlüyünü qoruya saxlaya bilməmişdir. Belə qərara gəlmişlər ki, uşaq doğma xroniki venoz çatmamazlığın inkişafı ilə assosasiya olunmur [25].

Jawien A. tərəfindən 40 min XVÇ-li şəxsin nəticələrini analiz etmişdir. Qadınlar üstünlük təşkil etmələrinə baxmayaraq, hamiləlik güclü risk faktoru kimi təsdiqlənməmişdir. Lakin doğuşların sayının çox olması XVÇ-nin inkişafı ilə korelyasiya etmişdir. Oturaq həayt tərzi, artıq bədən çəkisi və qəbizlik risk faktorları kimi qadınlarda daha əhəmiyyətli faktorlar hesab edilmişdir [26].

Tibbi ədəbiyyatda məhz hamiləliyin xroniki venoz çatmamazlığa şərait yaratdığını və ya əvvəlcədən olan venoz çatmamazlığın hamiləlik vaxtı daha da proqressivləşməsini göstərən fərqli fikirlər mövcuddur. Əksəriyyət tədqiqatçıların fikrinə əsasən, hamiləlik vaxtı kompression corabların geyinilməsi hamilə qadınların ayaqlarında ağrı və ödem kimi XVÇ əlamətlərinin aradan qalxmasına, həyat keyfiyyətinin yüksəlməsi və doğuşdan sonra aşağı ətraflarda fəsadların qarşısının alınmasına səbəb olmuşdur [27, 28].

Hamiləlik inkişaf etdikcə hamilə qadınlarda aşağı ətraflarda qan dövranının sürəti azalır. Hamiləliyin 3-cü trimesterində bu depresiya pik həddinə çatır və doğuşdan sonra ilk 6 həftə ərzində yenidən öz əvvəlki göstəricilərini bərpa edir. XVÇ-si olan hamilə qadınlarda aşağı ətraflarda venoz qan dövranının sürəti daha kobud şəkildə pozulması ilə xarakterizə edilmişdir. XVÇ olan qadınlarda ümumi və səthi bud venasının diametrinin normallaşması doğuşdan 6 həftə sonra I trimesterdə olan rəqəmlərə qədər gəlib çata bilməmiş və yüksək qalmışdır [29-31].

Statistik araşdırmalar zamanı belə təxmin edilmişdir ki, ABŞ-da 30 milyondan çox şəxslərdə varikoz genişlənmiş damarlar vardır ki, bu xəstələrin müallicəsinə bir il ərzində təxminən bir milyard dollardan çox birbaşa səhiyyə xərcləri lazım gəlir. Varikoz damarları olan xəstələrdə dərin venaların trombozunun (DVT) inkişaf etmə riski 5 qat artır. Problemin daha da aqressivləşməsi periferik arteriyaların okklüziv xəstəliklərinin prosesə qoşulması zamanı baş verir [32-34].

Əsrimizin əvvəllərində "Edinburgh Vein Study" proqramı çərçivəsində varikoz genişlənməsi olan 1566 xəstənin analizi aparılmışdır. Məlum olmuşdur ki, alçaq boylu kişilərdə varikoz xəstəlik daha az rast gəlinir. Nəcis ifrazı zamanı gücənmə isə kişilərdə venoz qanın səthi venalardan dərin venalara reflüksü ilə nəticələnir. Qadınlarda isə bütün yaş qruplarında artıq bədən çəkisinin olması, oturaq həyat tərzi və oral kontraseptivlərin qəbulu varikoz venalarının inkişafı ilə düz korelyasiya etmişdir. Siqarət çəkmə, sosial təbəqələrin rolu, lifli qidaların qəbulu və bağırsağın transit funksiyasının pozulması isə öz təsdiqini tapmamaşdır. Universitet ali təhsilli qadınlarda varikoz genişlənmiş venalar tez-tez qeyd edilir. Bu fakt, böyük ehtimalla universitet illərində məşğələlərdə və eləcə də ev tapşırıqlarının yerinə yetirilməsi zamanı uzun müddətli oturaq rejimə əməl olunması ilə əlaqədardır. Eyni zamanda ali təhsilli qadınların sonrakı iş yerlərində də daha çox oturaq vəziyyətin üstünlük təşkil etməsi ehtimalı da vardır [35-37].

Eyni müəlliflər qrupu tərəfindən təxminən 13 il sonra əhali arasında varikoz xəstəliyi olanların sayının 13,7% artmasını göstərən yeni araşdırmalarının nəticələri dərc edilmişdir. Daha çox səthi venaların, xüsusən də böyük dərialtı venanın budun aşağı 1/3-də varikoz genişlənməsi hallarının artmasına rast gəlinmmişdir. Xəstələnmə halları arasında cins və yaş ilə bağlı statistik dürüst fərq olmamışdır. Bədən çəkisinin artması və dərin venaların trombozu halları venoz qanın reflüksü ilə assosasiya olunmuşdur. Venoz reflüks isə varikoz genişlənmiş yeni venaların əmələ gəlməsinə səbəb olmuşdur. Hər il əhali arasında varikoz genişlənmiş venaları olan şəxslərin sayı orta hesabla 1% artır. Səthi və dərin venaların trombozu varikozların sayını artırır və daha çox səthi venalar genişlənməyə meyllidir [38, 39].

Bədən uzunluğu – insan boyunun xroniki venoz çatmamazlıq və onun fəsadları arasında əlaqənin olması müxtəlif fərqli diskutabel fikirlər ilə xarakterizə edilmişdir. Bu günə qədər olan ümumi fikirləri analiz etsək görərik ki, bədəb kütlə indeksi yüksək olanlar, yəni boyu balaca bədən çəkisi isə çox olan insanlar xroniki venoz çatmamazlıq üçün risk qrupundadır. Amma son tədqiqatlar göstərmişdir ki, boyu >185 sm olan qadınlar və 190 sm-dən uzun boylu kişilər alçaq boylu şəxslərə nəzərən yüksək riks qrupuna daxildir. Boyu <155 sm qadınlar və <160 sm kişilər isə müvafiq olaraq aşağı risk qrupundadır. Venoz tromboembolizm hallaraının təkrarlanması boyu 168 sm-dən uzun qadınlar arasında, 168 sm-dən alçaq boylular ilə müqayisədə 76% çox olmuşdur [40-42].

Digər bir tədqiqatda isə uzun ayaqları olan xroniki venoz çatmamazlıqdan əziyyət çəkən qadınlarda bədən çəkisindən asılı olmayaraq, dərin venalarının trombozu riskinin yüksək olması müəyyən edilmişdir. Boyu uzun şəxslərin iş fəaliyyəti oturaq tərzdə olduğu halda venoz tromboembolizm riski və müalicədən sonra yenidən residiv faizinin bir neçə dəfə artması qeydə alınmışdır [43-45].

Hamiləlik bütün bəşəriyyət üçün vacib olan, insan nəslinin artmasının özündə qoruyub saxlayan əhəmiyyətli fizioloji haldır. Hamilə qadın və uşağın sağlamlığı bütün ölklələrin səhiyyə sistemlərinin ən prioritet məsələlərindən biridir. Hamilə qadınlarda XVÇ-nin inkişaf etməsi və növbəti doğuşlar zamanı daha da proqressivləşməsinin qarşısının alınması məqsədilə hamilə qadınlarda müəyyən risk faktorlarının təyin edilməsi vacib məsələlərdəndir.

İlk baxışdan əhəmiyyət verilməmiş qalsa da, mövcud olan riskli hallar hamiləlik vaxtı daha aqressiv gediş alaraq, aşağı ətraf venalarında durğunluğa və venoz çatmamazlığa gətirib çıxarır. Kişilər və qadınlar müqayisə edildikdə, xəstəliyin daha çox qadınlarda rast gəlməsi fakt kimi əksər tədqiqatlarda öz təsdiqini tapmışdır. Risk faktorlarının varlığında hamiləlik dövründə və doğuşdan sonrakı ilkin həftələrdə yeni doğanlarda venoz problemlərin inkişafına təkan vermiş olur. Bir neçə doğmuş qadınlarda, vaxtında profilaktika və lazımi müalicə tədbirləri aparılmadıqda patologiyanın sürətlə proqressivləşməsi labüddür. Gec doğan, artıq bədən çəkisindən əziyyət çəkən, hormonal müalicə alan və siqaret çəkmə yuxarıda sadalanan risk faktorlarına aid edilmişdir. Vacib risk faktorlarından biri isə irsiyyətin olmasıdır.

Beləliklə, hamiləlik zamanı risk faktorlarının hamiləliyin erkən vaxtlarında təyin edilməsi, müvafiq diaqnostik üsullarla XVÇ-nin ağırlıq dərəcəsinin verifikasiyası riks qrupuna daxil olan qadınların əhəmiyyətli tədbirdir. Profilaktik məqsədlə kompression corabların istifadəsi XVÇ-nin proqressivləşməsi və tromboembolik fəsadların qarşısının alınmasında istifadə olunmalıdır.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Rabe E, Puskas A, Scuderi A, Fernandez Quesada F, VCP Coordinators. Epidemiology of chronic venous disorders in geographically diverse populations: results from the Vein Consult Program // Int. Angiol. 2012;31(2):p.105-115;
2. Vuylsteke ME, Thomis S, Guillaume G, Modliszewski ML, Weides N, Staelens I. Epidemiological study on chronic venous disease in Belgium and Luxembourg: prevalence, risk factors, and symptomatology // Eur J Vasc Endovasc Surg. 2015;49(4): p.432–439.
3. Александрова Г., Поликарпов А., Огрызко Е., Голубев Н., Кадулина Н. и др. Заболеваемость всего населения России в 2014 году / Статистические материалы. Москва, 2015; 142 с.
4. Золотухин И., Селиверстов Е., Шевцов Ю. и др. Распространенность хронических заболеваний вен: результаты популяционного эпидемиологического исследования // Флебология. 2016; № 4: с.119–125.
5. Кукеев Т.К., Балмагамбетов Б.Р., Абдикадиров А.А., Айтаханов К.А.. Хроническая венозная недостаточность: современное состояние вопроса // Наука о жизни и здоровье, N. 4, 2011, с. 36-39.
6. Nicolaides AN, Labropoulos N. Burden and Suffering in Chronic Venous Disease // Advances in Therapy. 2019 Mar; 36(Suppl 1):p.1-4.
7. Lee AJ, Robertson LA, Boghossian SM, et al. Progression of varicose veins and chronic venous insufficiency in the general population in the Edinburgh Vein Study // J Vasc Surg Venous Lymphat Disord. 2015;3(1):p.18–26.
8. Pannier F, Rabe E. Progression in venous pathology // Phlebology. 2015;30(1 Suppl): p.95–97.
9. Onida S, Davies AH. Predicted burden of venous disease // Phlebology. 2016;31(1 Suppl):p.74–79.
10. Rabe E, Pannier F, Ko A, Berboth G, Hoffmann B, Hertel S. Incidence of varicose veins, chronic venous insufficiency, and progression of the disease in the Bonn Vein Study II // J Vasc Surg. 2010;51(3):791.
11. Barnes GD, Gafoor S, Wakefield T, Upchurch GR Jr, Henke P, Froehlich JB. National trends in venous disease // J Vasc Surg. 2010;51(6):p.1467–1473.
12. Davies AH. The Seriousness of Chronic Venous Disease: A Review of Real-World Evidence // Adv Ther. 2019; 36(Suppl 1):p.5–12.
13. Deitelzweig SB, Johnson BH, Lin J, Schulman KL. Prevalence of clinical venous thromboembolism in the USA: current trends and future projections // Am J Hematol. 2011; 86(2): p.217–220.
14. Gardenghi LA, Dezotti NR, Dalio MB. et al. Gestational lower limb edema and venous reflux in healthy primigravidae // Int Angiol. 2017;36(6): p.569–573.
15. Santler B, Goerge T. Chronic venous insufficiency - a review of pathophysiology, diagnosis, and treatment // J Dtsch Dermatol Ges. 2017 May;15(5): p.538-556.
16. Raffetto JD. Pathophysiology of chronic venous disease // Surg Clin North Am. 2018 Apr; 98(2): p.337-347.
17. Raffetto JD, Mannello F. Chronic venous insufficiency and varicose veins of the lower extremities // Int Angiol. 2014 Jun; 33(3):p.212-221.
18. Youn YJ, Lee J. Korean J Intern Med. 2019 Mar;34(2):269-283. Etiology, nomenclature and pathophysiology of chronic venous insufficiency // Salmhofer W. Wien Med Wochenschr. 2016 Jun; 166(9-10): p.264-269.
19. Taylor J, Hicks CW, Heller JA. The hemodynamic effects of pregnancy on the lower extremity venous system // J Vasc Surg Venous Lymphat Disord. 2018; 6(2): p.246–255.;
20. Lohr JM, Bush RL. Venous disease in women: epidemiology, manifestations, and treatment // J Vasc Surg. 2013; 57(4 Suppl):37S–45S.
21. Bistervels IM, Scheres LJJ, Hamulyák EN, Middeldorp S. Sex matters: Practice 5P's when treating young women with venous thromboembolism // J Thromb Haemost. 2019; 17(9): p.1417–1429.
22. Taylor J, Hicks CW, Heller JA. The hemodynamic effects of pregnancy on the lower extremity venous system // J Vasc Surg Venous Lymphat Disord. 2018 Mar; 6(2): p.246-255.
23. Labropoulos N. How does chronic venous disease progress from the first symptoms to the advanced stages? A Review // Adv Ther. 2019, 36: p.13-19.
24. Kasperczak J, Ropacka-Lesiak M, Musiał-Swider J, Breborowicz GH. Analysis of venous insufficiency risk factors and appearance of clinical symptoms during pregnancy and puerperium in a group of pregnant women with and without symptoms of venous insufficiency of the lower limbs // Ginekol Pol. 2012; 83(3): p.183–188.
25. Matić M, Matić A, Gajinov Z, Golušin Z, Prćić S, Jeremić B. Major risk factors for chronic venous disease development in women: is childbirth among them? // Women Health. 2019; 59(10): p.1118–1127.
26. Jawien A. The influence of environmental factors in chronic venous insufficiency // Angiology. 2003; 54 Suppl 1:S19–S31.
27. Allegra C, Antignani PL, Will K, Allaert F. Acceptance, compliance and effects of compression stockings on venous functional symptoms and quality of life of Italian pregnant women // Int Angiol. 2014;33(4):357–364.
28. Manduz Ş, Ada F, Ada Y. The level of awareness and the attitude of patients recommended for use of compression stockings in Turkish society, and investigation of the factors affecting their use // Patient Prefer Adherence. 2018;12:399–407.
29. Ropacka-Lesiak M, Jarosław K, Bręborowicz G. Pregnancy-dependent blood flow velocity changes in lower extremities veins in venous insufficiency // Ginekol Pol. 2015;86(9): p.659–665.
30. Ropacka-Lesiak M, Kasperczak J, Breborowicz GH. Pregnancy-dependent changes in the vein width of the lower extremities in venous insufficiency // Ginekol Pol. 2012;83(12):p.922–928.
31. Iupatov EI, Ignat'ev IM, Fomina EE. Ultrasonographic examination of major veins of lower limbs and pelvic veins in pregnant women // Angiol Sosud Khir. 2018;24(3): p.70–75.
32. Hamdan A Management of varicose veins and venous insufficiency // JAMA. 2012;308: p.2612–2621.

33. Chang SL, Huang YL, Lee MC. et al. Association of varicose veins with incident venous thromboembolism and peripheral artery disease // JAMA. 2018;319:p.807–817.
34. Müller-Bühl U, Leutgeb R, Engeser P, Achankeng EN, Szecsenyi J, Laux G. Varicose veins are a risk factor for deep venous thrombosis in general practice patients // Vasa. 2012;41: p.360–365.
35. Lee AJ, Evans CJ, Allan PL, Ruckley CV, Fowkes FG. Lifestyle factors and the risk of varicose veins: Edinburgh Vein Study // J Clin Epidemiol. 2003;56(2):p.171–179.
36. Fowkes FG, Lee AJ, Evans CJ, Allan PL, Bradbury AW, Ruckley CV. Lifestyle risk factors for lower limb venous reflux in the general population: Edinburgh Vein Study // Int J Epidemiol. 2001;30(4):p.846–852.
37. Bradbury A, Evans CJ, Allan P, Lee AJ, Ruckley CV, Fowkes FG. The relationship between lower limb symptoms and superficial and deep venous reflux on duplex ultrasonography: The Edinburgh Vein Study // J Vasc Surg. 2000;32(5): p. 921–931.
38. Robertson LA, Evans CJ, Lee AJ, Allan PL, Ruckley CV, Fowkes FG. Incidence and risk factors for venous reflux in the general population: Edinburgh Vein Study // Eur J Vasc Endovasc Surg. 2014;48(2): p.208–214.
39. Lee AJ, Robertson LA, Boghossian SM, et al. Progression of varicose veins and chronic venous insufficiency in the general population in the Edinburgh Vein Study // J Vasc Surg Venous Lymphat Disord. 2015;3(1): p.18–26.
40. Zöller B, Ji J, Sundquist J, Sundquist K. Body Height and Incident Risk of Venous Thromboembolism: A Cosibling Design // Circ Cardiovasc Genet. 2017;10(5):e001651.
41. Lutsey PL, Folsom AR. Taller women are at greater risk of recurrent venous thromboembolism: the Iowa Women's Health Study // Am J Hematol. 2012;87(7):p.716–717.
42. Roetker NS, Armasu SM, Pankow JS, et al. Taller height as a risk factor for venous thromboembolism: a Mendelian randomization meta-analysis // J Thromb Haemost. 2017;15(7):p.1334–1343.
43. Lutsey PL, Cushman M, Heckbert SR, Tang W, Folsom AR. Longer legs are associated with greater risk of incident venous thromboembolism independent of total body height. The Longitudinal Study of Thromboembolism Etiology (LITE) // Thromb Haemost. 2011;106(1):p.113–120.
44. Flinterman LE, van Hylckama Vlieg A, Rosendaal FR, Cannegieter SC. Body height, mobility, and risk of first and recurrent venous thrombosis // J Thromb Haemost. 2015;13(4):p. 548–554.
45. Kaze AD, Bigna JJ, Nansseu JR, Noubiap JJ. Body size measures and risk of venous thromboembolism: protocol for a systematic review and meta-analysis // BMJ Open. 2018;8(3):e018958.

РЕЗЮМЕ

ФАКТОРЫ РИСКА ПРОГРЕССИРОВАНИЯ ХРОНИЧЕСКОЙ ВЕНОЗНОЙ НЕДОСТАТОЧНОСТИ У БЕРЕМЕННЫХ

Исмайлова Н.Ф.
Азербайджанский Государственный Институт Усовершенствования Врачей имени А.Алиева, кафедра общей и пластической хирургии. Баку, Азербайджан

Хроническая венозная недостаточность является широко распространённой патологией среди населения, в большинстве случаев встречающейся у женщин репродуктивного возраста. Данная статья посвящена обзору материалов о результатах исследований по выявлению факторов риска у беременных с венозной недостаточностью. Возраст, повышенная масса тела, высокий рост, курение, многочисленные роды, наследственная предрасположенность являются однозначными факторами риска. Беременным с данными факторами риска рекомендуется ношение компрессионных чулков для профилактики тромбозов.
Ключ слова: беременность, венозная недостаточность, тромбоз, факторы риска.

SUMMARY

RISK FACTORS FOR THE PROGRESSION OF CHRONIC VENOUS INSUFFICIENCY IN PREGNANT WOMEN

Ismayilova N.F.
Azerbaijan State Advanced Training Institute of Doctors named after A.Aliyev, Department of General and Plastic reconstructive surgery, Baku, Azerbaijan

Chronic venous insufficiency is a widespread disease among the population, in most cases occurring in women of reproductive age. This article is a review of studies to identify risk factors in pregnant women with chronic venous insufficiency. Age, increased body weight, high growth, smoking, multiple births, hereditary predisposition are unequivocal risk factors. Pregnant women with these factors are advised to wear compression stockings to prevent thrombosis.
Keywords: pregnancy, venous insufficiency, thrombosis, risk factors.

Redaksiyaya daxil olub: 18.10.2021
Çapa tövsiyə olunub: 09.11.2021
Rəyçi: dosent A.K.Kazımov

Tibb və Elm Jurnalı, №1 (27) 2022, 14-20

UŞAQLARDA EPİLEPSİYA VƏ DEPRESSİYANIN BİRLİKDƏ MÜŞAHİDƏ OLUNMASI

Əliyeva S.E.*

Azərbaycan Tibb Universiteti, nevrologiya kafedrası, Bakı, Azərbaycan

Təqdim edilmiş məqalənin **məqsədi** şaqlarda epilepsiya və depressiyanın komorbidliyinin əlaqəli ədəbiyyat məlumatlarının icmalı. **Materiallar və metodlar.** Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı elmi axtarış sistemlərdən istifadə olunmuşdu: MEDLINE; PreMEDLINE; PubMed Central (PMC); Cochrane Library; Scirus. http://www.scirus.com/; Google Scholar; FDA (U.S. Food and Drug Administration); EMA (European Medicines Agency); Rxlist; The New England Journal of Medicine; British Medical Journal; Ovid MD; Best Evidence; UpToDate; Internet Grateful Med; Scientific American Medicine; Clinical Evidence; Harrison's Online. **Yekun.** Internet və elmi jurnallarında axtarış nəticəsində uşaqlarda epilepsiya və depressiya mövzusunda birbaşa və ya dolayısı ilə əlaqəli 21 mənbə aşkarlandı. **Nəticə.** Ədəbiyyat mənbələrinin analizi sübut etdi ki, epilepsiyanın və depressiyanın komorbidliyi haqda ədəbiyyatlarda məlumatların olmasına baxmayaraq, uşaqlarda bu problem praktik olaraq öyrənilməmisdir.

Açar sözlər: uşaqlar, epilepsiya, depressiya, komorbidlik.

Giriş. Eramızdan əvvəl təxminən 400-cü ildə Hippokrat qeyd etmişdir:"melanxolik ümumiyyətlə epileptik halına gəlir və epileptiklər melanxolik olur" [1]. Təkrarlanan qıcolmalar bir sıra zərərli təsirlərlə əlaqələndirilir. Tutma ilə əlaqədar ölümlər xroniki epilepsiya xəstələrində bütün ölümlərin 40%-ə qədərini təşkil edə bilər. Epilepsiya xəstələri arasında qəfil ölüm 7-17% təşkil edir, qıcolmalar olmayan xəstələrə nisbətən 27 dəfə yüksək olduğu bildirilir [2].

Epilepsiyaya xas olan nevroloji disfunksiya xəstələrdə psixi pozuntulara, o, cümlədən depressiyaya, həm də psixozlara meyli artırır. Depressiya epilepsiya xəstələrində ən çox rast gəlinən komorbid psixi pozuntudur. Lakin, buna baxmayaraq, uşaqlarda depressiyanın diaqnozunu təyin etmək xüsusilə çətindir. Həkimlər yalnız anhedoniya kimi klassik depressiya simptomları ilə deyil, həm də səbəbsiz qıcıqlanma, ailə üzvlərinin sevgisinin az olması, əsassız somatik şikayətlər, konsentrasiya problemi və zəif məktəb davranışı kimi daha az aşkar edilən simptomları da nəzərə almalıdırlar. Epilepsiya və əqli geriliyi olan uşaqlarda depressiyanın diaqnozunu qoymaq daha çətindir [3].

Epilepsiya xəstələrində depressiya və intihar halları əhəmiyyətli dərəcədə artmışdır. Həm epilepsiya, həm də depressiya hipokampın həcmlərin azaldılması ilə əlaqələndirilir, lakin hər iki xəstəliyi olan şəxslərdə yalnız epilepsiya xəstələrindən daha çox atrofiyaya sahib olub olmadığı qeyri-müəyyəndir. Bir sıra tədqiqatçılar sağ gicgah epilepsiyası ilə depressiyanın əlaqəli olmasını hipokampın atrofiyası ilə əlaqələndirirlər. Eyni zamanda müəlliflə qeyd edirlər ki, bunu yalnız epilepsiya ilə izah etmək olmaz [4].

Müəyyən olunub ki, epilepsiyalı xəstələrdə ən çox yanaşı gedən depressiyadır. Ömür boyu bu xəstələrdə depressiya 30-35% rast gəlinir. Çox faktorların dəyişkənliyi hər iki pozuntunun yüksək komorbidliyində patogen rol oynayır. Bu dəyişənlər 2010-cu ilin sentyabrında Çikaqoda keçirilən beynəlxalq simpozium zamanı kritik şəkildə araşdırılmışdı. İnsanlardakı struktur və funksional neyrovizualizasiya müayinəsi nəticəsində alınan məlumatlar, depressiya və epilepsiya zamanı ümumi patogen mexanizmlərin daha yüksək səviyyədə başa düşülməsini təmin etmişdir. Depressiyanın qıcolma tutmalarına mənfi təsirləri müxtəlif tədqiqatlarda sənədləşdirilmişdir. Əvvəlki inancların əksinə olaraq, depressiya və epilepsiyanın nisbətən yüksək komorbidliyi təkcə reaktiv bir prosesin ifadəsi deyil, nəticədə xəstələr tutmalar ilə həyatla əlaqəli çoxsaylı maneələrlə qarşılaşırlar. Bu məlumatlar, iki vəziyyətin yüksək komorbidliyində əsas rol oynaya biləcək ümumi neyrobioloji patogenetik mexanizmlərin mövcudluğunu qətiyyətlə göstərir. Bu patogen mexanizmlərin təsiri yüksək komorbidliklə məhdudlaşmır, lakin həyatı boyunca anamnezində depressiya olan xəstələrdə tutma pozuntularının farmakoloji və cərrahi müalicəsinə gedişatın pisləşməsində həlledici rol oynayar [5].

Epilepsiyada koqnitiv problemlər xəstəliyin gedişatının əvvəlində ola bilər. Müasir texniki vasitələr epilepsiyada idrak pozuntuları ilə əlaqəli olaraq quruluş və funksiyanın korrelyasiyanın aşkar etməsinə imkan verir. Epilepsiya, depressiya və həyəcan arasındakı əlaqə olduğu barədə getdikcə daha çox məlumat əldə edilir. Epilepsiya xəstələrin-

*e-mail: sonaaliyeva@yahoo.com

də psixi pozuntular az tanınır və lazımi dərəcədə müalicə olunmur. Epilepsiya xəstələrini müalicə edən həkimlər, idrak pozuntusu və psixiatrik komorbidliyin bu xəstələrə təsirinin böyük olduğunu bilməlidirlər. Epilepsiya xəstələrində bu müşaiət olunan xəstəlikləri müəyyənləşdirmək və müalicə etmək tutmaların müalicəsi qədər vacibdir [6].

Epilepsiya xəstələrində psixiatrik pozuntular ümumi populyasiyadan daha tez-tez rast gəlinir. Tədqiqatçılar epilepsiya və psixiatrik komorbidiyalar arasında güclü bir əlaqəni sənədləşdirsələr də, bu əlaqənin təbiəti yaxşı öyrənilməyib. Buna görə, epilepsiya xəstələrində psixiatrik xəstəliklərə tez-tez diaqnoz qoyulmur və müalicə olunmur, xəstələrin həyat keyfiyyətinin daha da aşağı düşməsinə səbəb olur. Müəlliflər böyüklərdə və uşaqlarda epilepsiya və psixi pozuntuların inkişafı arasındakı əlaqəni daha yaxşı başa düşmək üçün epilepsiyada komorbidiliyi araşdırmışlar. Həm böyüklər, həm də uşaqlarda epilepsiya və onun psixiatrik komorbidiyaları arasındakı əlaqəni öyrənmək üçün artan bir elmi maraq var, lakin bunun hələ kifayət olmadığı qənaətinə gəlirlər. Böyüklərdə və uşaqlarda psixiatrik komorbidiyaların başlanğıcını erkən müəyyənləşdirmək və onların real həyat fəaliyyətinə mənfi təsirlərinin qarşısını almaq üçün vaxtında müdaxilələr aparmaq üçün yeni və daha yaxşı diaqnostik vasitələrin yaradılması məqsədi ilə gələcək tədqiqatların aparılmasına ehtiyac var [7].

Depressiya epilepsiya ilə yanaşı gedən ümumi bir xəstəlikdir. Lakin həm epilepsiya, həm də depressiyanın heterogenliyini nəzərə alaraq, depressiyanın etiologiyasını müəyyənləşdirmək çətindir. Ancaq bu üst-üstə düşmə o qədər geniş yayılmışdır ki, depressiya ilə epilepsiya arasında iki istiqamətli bir əlaqə təklif edilmişdi. Gicgah epilepsiyası və tez-tez baş verən epilepsiya tutmaları olan insanlar depressiyaya daha həssas olurlar. Depressiya pediatriyada dəyişir, ancaq psixi vəziyyətlərin nüanslarını və neyrovegetativ simptomların dəyişkənliyini anlamaqla asanlıqla müəyyən edilə bilər. Epilepsiya müalicəsi üçün dəqiq bir təlimat yoxdur. Pediatriyada klinik sınaqların olmamasına baxmayaraq, antikonvulsanlar depressiya əlamətlərini yaxşılaşdırır. Depressiyanın müalicəsi müstəqil olaraq epilepsiya nəticəsinə və həyat keyfiyyətinə müsbət təsir göstərə bilər [8].

Bir sıra tədqiqatçılar qeyd edir ki,epilepsiya xəstəliyi olan gənclərdə artan depressiya riskinə və yayılmasına baxmayaraq, yalnız üçdə biri psixi sağlamlıq xidmətləri alır. Müalicə olunmayan depressiya mənfi nəticələrə və səhiyyə istifadəsinin və tibbi xərclərin artmasına səbəb olur. Profilaktik davranış təbabəti müayinəsi, və sağlamlıqla əlaqəli həyat keyfiyyətini (HRQOL) optimallaşdırmaq səylərində depressiv simptomları və zəruri müdaxiləni müəyyənləşdirməyə kömək edir. Müəlliflərin əsas tədqiqatın məqsədi aşağıdakılardan ibarət olmuşdur: a) epilepsiyalı gənclərdə öz-özünə bildirilən depressiya dərəcələrinin, b) demoqrafik və tibbi dəyişənlərin depressiyadakı fərqlərinin, c) depressiyanın HRQOL-a təsirinin və d) sonrakı depressiya və intihar düşüncəsindəki dəyişikliklərin araşdırılmasını əhatə etmişdir. Gəncləri 23 % artan depressiya aşkar edilmiş və onlardan 14% intihar fikirləri təsdiqləmişdi. Depressiya yaşa, antiepileptik dərmanlara və sığortaya görə əhəmiyyətli dərəcədə dəyişmiş olur. Nəhayət, müəlliflər belə bir qənaətə gəlirlər ki, epilepsiyalı gənclərdə sistematik qiymətləndirmə və depressiyanın və ya intihar fikirlərinin erkən aşkarlanması həyat keyfiyyətini yaxşılaşdıraraq depressiyanı azaltmağa səbəb olur [9].

Əhval pozğunluqları, xüsusilə depressiya, ümumiyyətlə epilepsiya ilə əlaqələndirilir. Psixi pozuntular epilepsiyada son dərəcə yayılmışdı və hələ də digər xroniki xəstəliklərdə görülən səviyyələrdən çox müşahidə olunur. Xoşbəxtlikdən həm tibbi, həm də qeyri-tibbi müalicə çox təsirli ola bilər. Müalicə üçün sübut bazası inkişaf etməmiş olsa da, kiçik nümunələr və müşahidə tədqiqatları müsbət nəticələr vəd verir. Gicgah payını əhatə edən və ümumiləşdirilmiş tutmalarla müşayiət olunmayan qıcolma tutmaları zamanı həkimlər komorbid depressiya ehtimalı barədə xəbərdar olmalıdırlar. Dəlil bazası böyüdükcə həssas alt tiplər və antikonvulsantlar və antidepressantların optimal istifadəsi barədə daha çox məlumat əldə ediləcəkdir. O vaxta qədər depressiyanın olub-olmadığını müəyyənləşdirmək özlüyündə epilepsiya və müşaiət olunan əhval-ruhiyyə pozuntusu olan insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına doğru çox yol qət edəcəkdir [10].

Depressiya yüksək xronikliyə və cəmiyyətə bağlı iqtisadi xərclərə görə ən çox psixi pozuntulardan biridir. Bir neçə tədqiqat nəticələri sübut edir ki, depressiyanın erkən qarşısının alınması proqram-

larının tətbiqi nəticəsində sağlam uşaq və yeniyetmələrə faydalı təsirlər göstərir. Bununla birlikdə, tədqiqatda qeyd edirlər ki. xroniki xəstəlikləri olan uşaqlar və yeniyetmələr üçün hələ müqayisə edilə bilən proqramlar azdır. Bu məqalədə uşaq psixosomatik təbabətində rast gəlinən üç vəziyyətin: diabet, epilepsiya və bağırsağın iltihabı xəstəliyində depressiya ilə komorbidliyi müzakirə olunur. Müəlliflər xroniki xəstə olan və depressiv simptomların inkişaf riski olan yeniyetmələrin vəziyyətini müzakirə edirlər. Hər bir xəstə qrupu xüsusi risk faktorları ilə tanış olunur və depressiya ilə əlaqələndirilir. Depressiyanın qarşısının alınmasında mövcud fərdi proqramları və əlaqədar tədqiqatlar da təqdim olunur. Ədəbiyyatla tanış olduqdan sonra, bu üç xəstə populyasiyası üçün risk faktorları və depressiyanın qarşısının alınması ilə bağlı araşdırmaların hələ başlanğıc mərhələsində olduğu göstərilir. Depressiyanın qarşısının alınması üçün yeni bir risk faktoru modelləri və biomarker yanaşmaları ümidverici bir əsas kimi ortaya çıxarkən, tədqiqatlarda, xroniki xəstəlikləri olan uşaqlar və yeniyetmələr üçün daha optimal şəkildə uyğunlaşdırılmış profilaktik müdaxilələrə nail olmağın vacibliyi qeyd olunur [11].

Müəlliflər epilepsiya və depressiya arasındakı əlaqələrin son zamanlarda artan diqqəti cəlb edən və yaxın gələcəkdə əsas tədqiqat mövzusu ola biləcək bəzi məqamlarını nəzərdən keçirirlər. Epidemioloji tədqiqatlar göstərir ki, bəzi hallarda depressiya və intihar epilepsiya başlamazdan əvvəl premorbid simptomlardır. Epilepsiyada intihar ümumi populyasiyadan üç dəfə çoxdur. Artıq epilepsiya xəstələrində depressiya və intihar həddini aşkar etmək üçün etibarlı vasitələr mövcuddur, lakin nevrologiya və psixiatriya arasında ortaq klinik yolların inkişafı üçün gerçək dünya məlumatlarına ehtiyac var.

Problemə diqqətin artmasına baxmayaraq, psixi sağlamlıq problemləri ilə əlaqəli əlavə stiqma vaxtında diaqnoz və müalicə üçün əsas maneələrdən biri olaraq qalır. Yeni tədqiqatlar psixi xəstəlikləri müalicə etmək və intiharın qarşısını almaq üçün nevrologiya və psixiatriya arasında paylaşılan klinik yolların inkişafına yönəldiləcəkdir. İkiqat stiqmaya qarşı mübarizə üçün yeni qlobal kampaniyalar bu xəstəliyə hələ də bərabər xəstəlik və zəif müalicə olunan yerlərdə dəstək verəcəkdir [12].

Epilepsiyalı uşaq və yeniyetmələrdə həyəcan və depressiya xəstələr və ailələr üçün ciddi bir yük yaradan və epilepsiyanın klinik idarəedilməsini çətinləşdirən ümumi müşaiət olunan pozuntudur. Müəlliflər bu araşdırmada epilepsiya xəstəsi olan pediatrik xəstələr arasında depressiya və həyəcanın etiologiyası, fenomenologiyası, qiymətləndirilməsi və idarəedilməsinə dair bir analitik icmalı təqdim etmişlər. Pediatrik epilepsiyada effektiv komorbiditənin tanınması hal-hazırda məhduddur və antiepileptik dərmanın bu cür komorbiditəyə köməkçi rolu klinisistlər tərəfindən nəzərə alınmalıdır. Epilepsiyalı uşaqlarda və yeniyetmələrdə psixiatrik komorbidliyin tanınması məhdud olaraq qalır. Nadir hallarda tək-tək səbəb olsa da, antikonvulsant dərmanın təsiri bu kontekstdə klinisistlər tərəfindən nəzərə alınmalı və müvafiq şəkildə həll edilməlidir [13].

Tədqiqatçılar müəyyən ediblər ki, epilepsiya, yeniyetmə dövründə depressiv pozuntunun inkişaf riskinin əhəmiyyətli dərəcədə artması ilə əlaqələndirilir. Digər tərəfdən, epilepsiya olan yeniyetmədə depressiya yüksək dərəcədə təsbit edilir. Bu tapıntılar erkən yaşda müəyyənləşdirməyin və yeniyetmə yaşında birlikdə depressiyanın düzgün idarə olunmasının vacibliyini vurğulayır. Epilepsiya olan yeniyetmələrdə depressiv epizodların yayılması eyni yaşdakı populyasiyadan daha yüksək olaraq 8-35% təşkil edir. Epilepsiya və depressiya arasındakı əlaqə mürəkkəb və potensial olaraq iki yönlüdür və bununlar hər iki xəstəlik arasında ümumi patofizioloji mexanizmlərə dəlalət edir. Bundan əlavə, əsasən yeniyetmə dövründə depressiv pozuntunu aşkar etmək və müalicə etməmək intihar fikirlərini və ya davranış riskinin artması və həyat keyfiyyətinin aşağı olması kimi bir sıra mənfi nəticələrə səbəb olur. Depressiv pozuntunu aşkar etmək üçün psixiatrik və ya psixoloji qiymətləndirmələr, strukturlaşdırılmış və ya yarı quruluşlu reytinq şkalalarından istifadə vacib hesab edilir. Müəlliflərin fikrincə, həkimlər epilepsiya olan gənclərdə mütəmadi olaraq depressiya əlamətlərini yoxlamağı bacarmalıdırlar. Epilepsiyalı yeniyetmə depressiv pozuntunun idarə olunması üçün düşünülməli ilk addım, həyəcanı və depressiyanın potensial geri çevrilə bilən səbəblərini (yəni antikonvulsantların vasitəsi ilə tutma nəzarəti) fikirləşmək lazımdır. Digər tərəfdən, uşaq və yeniyetmənin və ailəsinin təhsil-

inə böyük diqqət yetirilməli, epilepsiya haqqında məlumatları yaxşılaşdırmağa çalışmaq, eyni zamanda valideyn stressini azaltmaq və uşağın səriştəsini artırmaq lazımdır. Depressiya diaqnozu qoyulmuş yeniyetmələrdə də farmakoloji müalicəyə də fikir verilməlidir [14].

Bu təqdimatda mülliflər uşaqlıq epilepsiyasında depressiya üçün epilepsiyaya xas və ümumi risk faktorları, qarşısının alınması, klinik simptomların qiymətləndirilməsi və intihar riski və müalicəsi müzakirə olunur. Depressiyanın epilepsiya gedişinə və uzunmüddətli nəticələrə zərərli təsiri barədə epidemioloji məlumatları nümayiş etdirilir. Depressiya, tutmaların tezliyindən, epilepsiya növündən və istifadə olunan antiepileptik dərmanların miqdarından asılı olmayaraq, epilepsiyanın mənfi uzunmüddətli nəticəsi üçün əhəmiyyətli bir risk faktorudur. Epilepsiya tutmalaranın azalmasına və diaqnoz və müalicənin yaxşılaşmasına baxmayaraq, son 30 ildə komorbid psixopatologiya halları dəyişməyib. Epilepsiya xəstələrində depressiya riski diabet və asma xəstələrindən daha yüksəkdir. Epilepsiya və depressiya komorbidliyi ümumi əhali ilə müqayisədə intihar riskini artırır, epilepsiya olan uşaqları 20% intihar fikirləri mövcuddur. Epilepsiya xəstələri gündəlik epilepsiya baxımının bir hissəsi olaraq psixi sağlamlıq müayinəsindən keçməlidirlər. Depressiya uşaqlıq epilepsiyasında tez-tez görülür və yüksək intihar riski, ağır epilepsiya və uzunmüddətli nəticə ilə əlaqələndirilir [15].

Epilepsiyanın geniş bir spektrli xəstəliklərlə yanaşı getməsi artıq bir fakt kimi qəbul olunur. Epileptik tutmalar uşaqlarda epilepsiyanın vacib bir elementi olsa da, uşaqlıqda epilepsiya xəstəliyinin yükünü artıran həyat keyfiyyətinin aşağı düşməsi ilə nəticələnən bir sıra nevroloji, psixi sağlamlıq və idrak pozuntuları mövcuddur. Uşaqlıq epilepsiyasında ən çox görülən komorbid vəziyyətlərə depressiya, həyəcan, autizm spektri pozuntular, yuxu pozuntuları, diqqət çatışmazlığı, idrak pozuntusu, və migren daxildir. Epilepsiya müşayiət olunan xəstəliklərlə nəticələnə bilsə də, uşaqlıqdakı bir çox xəstəlik iki tərəfli bir əlaqəyə sahibdir, eyni zamanda xəstəlik vəziyyəti epilepsiya və epilepsiya riski artır. Epilepsiya və yanaşı xəstəliklərin iki istiqamətli xüsusiyyəti həm tutmalar, həm də yanaşı xəstəliklər üçün ümumi bir patofizioloji mexanizm olması ehtimal olunur. Pediatrik epilepsiyanın müşayiət olunan xəstəliklərinin tanınması artarkən, komorbid şərtləri müalicə etmək üçün istifadə edilən dərmanların tutmaların həssaslığını artıra biləcəyindən narahat olaraq effektiv müalicələrin inkişafında bir geriləmə var. İndi yanaşı xəstəliklər üçün istifadə olunan dərmanların çoxunun təhlükəsiz olduğunu və qıcolma həddini aşağı salmadığına dair bəzi dəlillər mövcuddur. Təəssüf ki, uşaqlarda epilepsiya ilə əlaqəli bir çox xəstəliyin müalicəsində dərmanları göstərən dəlillər olduqca məhduddur. Uşaqlıqda epilepsiya ilə əlaqəli xəstəliklərin müalicəsində effektivlik və təhlükəsizlik üçün təsadüfi, plasebo nəzarətli dərman sınaqlarına böyük ehtiyac var [16].

Depressiya tez-tez rast gəlinir və epilepsiya xəstələrində həyat keyfiyyətinə mənfi təsir göstərir. Çoxsaylı tədqiqatlar müvafiq proqnozlaşdırıcıları araşdırsa da, nəticələr ziddiyyətlidir. Müəlliflərin məqsədi bu meta-analiz, bu populyasiyada depressiya ehtimalını artıra biləcək risk faktorlarını araşdırmağı yönəlmişdir. Axtarış Medline, Cochrane Kitabxanası, Web of Science və Embase epilepsiya və depressiyanın meydana gəlməsi ilə bağlı kəsikli tədqiqatlar üçün hərtərəfli axtarış aparılmışdı. Meta-analizin nəticələri göstərib ki, epilepsiyada artan depressiya riski ilə əlaqəli bir neçə amili müəyyənləşdirdi. Bura qrupdakı depressiya üçün daha yaxşı profilaktika və seçim strategiyalarına kömək edə bilər. Fərdi olaraq uyğun və məqsədyönlü müdaxilələri təyin etmək üçün bu yanaşı xəstəliklərin əsasındakı mexanizmlər daha da araşdırma tələb edir [17].

Müəlliflər aşağıdakı axtarış metodlarından istifadə etmişlər: Cochrane Epilepsy Group Specialised Register; Cochrane Central Register of Controlled Trials (CENTRAL 2014, Issue 5), MEDLINE (Ovid), SCOPUS, PsycINFO, www.clinicaltrials.gov. Tədqiqatçıların qənaətləri antidepresanların epilepsiya ilə əlaqəli depressiv simptomların müalicəsində effektivliyinə dair mövcud dəlillər çox məhduddur. Yalnız bir kiçik randomizə nəzarətli araşdırmaların nəticəsi göstərir ki, venlafaksinin depressiv simptomlar üzərində statistik olaraq əhəmiyyətli bir təsir göstərir. Epilepsiya xəstələrində depressiyanın müalicəsində antidepresantların və ya dərman sinfinin seçimini məlumatlandıran yüksək keyfiyyətli dəlilimiz aşkar edilməyib. İcmal SSRİ-lərlə tutmanın kəskin-

ləşməsi baxımından təhlükəsizliyə dair aşağı keyfiyyətli dəlil təqdim edilir. Lakin antidepresant siniflər və tutmalarla əlaqəli təhlükəsizlik barədə mövcud müqayisəli məlumatlar əldə edilməyib. Epilepsiyada depressiyanın müalicəsində antidepresantlar və psixoterapiya ilə əlaqədar müqayisəli məlumatlar yoxdur. Tədqiqatçılar hesab edirlər ki, gələcəkdə müalicə siyasətini daha yaxşı məlumatlandırmaq üçün epilepsiya və depressiya xəstələrinin böyük qruplarında antidepresantların müqayisəli klinik araşdırmaları tələb olunur [18].

Л.Р.Зенков qeyd edir ki, depressiya epilepsiya zamanı xüsusi diqqət tələb edir [19]. Müəllifin fikrinə görə epilepsiyaya düçar olmuş xəstələrin 10-30% depressiyadan əziyyət çəkir. Bu ilk növbədə epilepsiyada beynin disfunksiyası və təhsil, professional, sosial təmasın stiqmatizasiya əlaqədar məhdudluğu ilə əlaqəli olur.

Nanokapsulalar adətən 10 nm ilə 1000 nm arasında dəyişən ən kiçik ölçülərdə mövcuddur. Onlar maye/bərk nüvədən ibarətdir, burada dərman təbii və ya sintetik polimerlərdən ibarət bir növ polimer membranla əhatə olunmuş boşluğa yerləşdirilir. Onlar adətən piroforik olan, asanlıqla oksidləşən və aktiv maddələrin buraxılmasında prolongəedici təsirə malik qoruyucu örtüyə görə böyük marağa səbəb olublar. Belə dərman formalarında nüvədəki dərman maddəsi ətraf mühitin əlverişsiz təsirlərindən qorunur, stabilliyi təmin edilir, bioloji mənimsənilməsi yüksəlir, toksiki təsirlər azalır [1, 5, 10, 11]. Buna görə də tərkibi bir çox kimyəvi birləşmələrlə zəngin olan maral (Cervus elaphus sibiricus) pantlarından alınan ekstraktların inkapsullaşdırılması aktual məsələlərdən hesab edilir.

İn vitro və in vivo farmakoloji tədqiqatlar göstərmişdir ki, maral buynuzunun əsası immunomodulyator, xərçəng əleyhinə, virus, stress, osteoporoz əleyhinə, iltihab əleyhinə, sonsuzluq əleyhinə, ağrıkəsici, antibakterial, antioksidant, hipoqlikemik, anti-aging təsirə malikdir. Təsir mexanizmi hələ də aydın olmasa, farmakoloji fəaliyyət əsasən bioloji aktiv birləşmələr, amin turşular, polipeptidlər və zülallarla əlaqələndirilə bilər. Heyvanlar üzərində aparılan tədqiqatlara və klinik sınaqlara görə, maral buynuz bazası ciddi yan təsirlərə səbəb olmur. Əməliyyatlar, radiasiya və kimyaterapiyadan sonra reabilitasiya zamanı buynuzlar əsasında hazırlanan dərman preparatları bədəni normal həyat üçün faydalı olan unikal maddələr və elementlər kompleksi ilə təmin edə bilər [8, 9, 12, 14].

Yaponiya, Vyetnam, Çin, Koreya, Rusiya kimi ölkələrlə yanaşı, Azərbaycanda da Pant vannalarından geniş istifadə olunur. Bu isə xroniki yorğunluq sindromunu aradan qaldırır və insanın ruhi-emosional vəziyyətini yaxşılaşdırır. Həmçinin orqanizmdə gedən maddələr mübadiləsinin, metabolik proseslərin intensivliyini artırır və damarlarda mikrosirkulyasiyanı sürətləndirir. Bundan əlavə, sidik-cinsiyyət sistemi, mədə-bağırsaq sistemi xəstəliklərinin, bronxial astmanın, osteoxondrozun və bir sıra dəri xəstəliklərinin müalicəsi həyata keçirilir [1, 3].

Məlum olmuşdur ki, maral pantlarından alınan dərman və kosmetik vasitələrin çatışmayan cəhəti yararlıq müddətlərinin qısa olması, bir çox xəstəliklərdə (arterial hipertenziya, ateroskleroz, vərəmin fəal forması, ağır böyrək xəstəlikləri, diareya, beyin trav-

*e-mail: sevil66@mail.ru

maları və epilepsiya) əks təsir göstərməsi, həmçinin biomənimsənilməsinin aşağı həddə olmasıdır [4].

Bu da mümkün farmakoterapevtik təsirin aşağı düşməsinə səbəb olur. Buna görə də dərman maddələrinin daha aktiv sorulmasını və təsir göstərməsini təmin etmək üçün terapevtik sistemlər istifadə olunur ki, bu da sorulmanı artırır. Belə dərman çatdırılma sistemləri aktiv maddənin zədələnmiş na hiyəyə, yəni hədəf-hüceyrəyə çatdırılmasını təmin edərək, müalicə müddətində sağlam hüceyrələrin zədələnməsinin qarşısını alır, dərman maddəsinin daha kiçik dozaları ilə yüksək terapevtik təsir əldə etməyə imkan verir. Aktiv maddələrin çatdırılması üçün istifadə olunan daşıyıcı sitemlərə mikrokapsullar, mikrosferlər, liposomlar, niosomlar, nanokapsullar və s. aiddir [5-8, 13].

Yuxarıda qeyd olunanları nəzərə alaraq tərəfimizdən maral pantlarından alınan ekstrakt əsasında uzunmüddətli təsirə malik nanokapsulların hazırlanması məqsədəuyğun hesab edilmişdir.

Tədqiqatın məqsədi – maralın sümükləşməmiş pantlarından hazırlanmış nanokapsulların morfoloji analizini həyata keçirmək olmuşdur.

Tədqiqatın material və metodları. İlk olaraq Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası kafedrasının laboratoriyasında maralın sümükləşməmiş buynuzlarından nanokapsulların alınması həyata keçirilmişdir. Azərbaycanın Altıağac maralçılıq təsərrüfatından təqdim olunan maral pantları xırdalanmış və ekstraksiya olunmuşdur (şək. 1).



Şək. 1. Maral pantlarından ekstraktın alınması sxemi.
1 - maral pantsı; 2 - doğranılmış pant; 3 - xırdalanmış pant;
4 - ekstraksiya; 5 - təmizlənmə; 6 - hazır məhsul.

Sonra nanokapsulların alınması yerinə yetirilmişdir [1]. Tədqiq olunan nanokapsulların ölçüləri Türkiyənin Atatürk universitetinin nəzdində fəaliyyət göstərən DAYTAM-da (Doğu Anadolu Yüksek Teknoloji Uygulama ve Araştırma Merkezi) araşdırılmışdır. Maral pantlarından alınan nanokapsulların SEM analizi Zeiss Sigma 300 markalı cihazda həyata keçirilmişdir. Nanokapsulların TEM analizi isə Hitachi HT-7700 markalı cihazda yerinə yetirilmişdir. Tədqiqat üçün maral pantlarından alınan nanokapsullar, distillə olunmuş su, ultrasəs su hamamı, karbonla örtülmüş qril istifadə olunmuşdur [2].

Nəticələr və müzakirə. Tədqiq olunan nanokapsulların SEM analizini yerinə yetirmək üçün ilk növbədə stubların üzərinə karbon boruları yapışdırılaraq nümunələr üzərinə qoyulur. Sonra stublar stagein üzərinə yerləşdirilir. Stage qablara qoymaq üçün cihaza yerləşdirilib 800sn Paladium qablara qoyulur. Daha sonra hazırlanan nümunələr SEM cihazına yerləşdirilir. 5 dəq vacuum alması üçün cihazda saxlanılır. Bundan sonra EHT-5 kV-da görüntülər alınması həyata keçirilir (şək. 2).

Şək. 2. Nanokapsulların Zeiss Sigma 300 markalı cihazda SEM analizi üçün hazırlıq. 1 - analiz olunan nümunələr; 2 - karbon boruları yapışdırılmış nümunələr olan stubların stagə yerləşdirilməsi; 3 - nümunələrin vakuum aparata yerləşdirilməsi; 4 - nümunələr olan stagin Zeiss Sigma 300 markalı cihaza yerləşdirilməsi; 5 - görüntülərin alınması.

Nanohissəciklərin fərqli böyütmələrdə ölçülməsi yerinə yetirilir (şək. 3 və 4).



Şək. 3. Karraginanla örtülən nanokapsulların Zeiss Sigma 300 markalı cihazda çəkilən görüntüləri. A – 2 µm; B-1 µm; C, D – 200 nm miqyasda çəkilən görüntülər.

Şək. 3-dən göründüyü kimi, 2 µm, 1 µm və 200 nm miqyasda çəkilən nanokapsulların diametri 118,3-243,6 nm ölçüdədir.

1 µm, 200 nm miqyasda çəkilən nanokapsulların diametrinin 224,1 nm; 89,49 nm; 73,37 nm; 51,48 nm; 47,60 nm; 37,17 nm və 33,15 nm ölçüdə olduğu müəyyən edildi.

TEM analizini yerinə yetirmək üçün toz halında olan nümunələr distillə edilmiş su ilə eppendorf borularında olarkən süspansiyondakı bərk nümunənin miqdarı 0,1 % ilə 1 % arasında olmalıdır. Süspansiyondakı bərk nümunə ultrasəs su hamamında tamamilə homogen şəkildə dağılana qədər saxlanılır. Görünən topaların qarşısını almaq üçün diqqətli olmaq lazımdır.



Şək. 4. Traqakantla örtülən nanokapsulların Zeiss Sigma 300 markalı cihazda çəkilən görüntüləri. A – 1 µm; B, C, D - 200 nm miqyasda çəkilən görüntülər.

Nəticədə çıxarılan suspenziya mikropipetin köməyi ilə bərkidilmiş karbonla örtülmüş torun üzərinə 3-5 µl damcılanır. Karbonla örtülmüş qril üzərinə qoyulan maddə tam quruyana qədər saxlanılır (şək. 5). Qurudulmuş nümunə 40-120 kV diapazonda sürətləndirici gərginlik altında işləyən Lanthanum hexaboride (LaB6) elektron tapançası olan Hitachi HT-7700 markalı cihaza yerləşdirilir. Cihaz bir düyməni basmaqla axtarış rejimindən (ekrandakı kameraya baxmaq) yüksək keyfiyyətli, tam ölçülü şəkil çəkmə rejiminə (əsas kamera rejimi) keçə bildiyindən, seçilmiş sahənin sürətli şəklini çəkməyə imkan verir. Təqdim olunan nümunələrin (karraginan və traqakantla örtülmüş nanokapsullar) TEM görüntüləri şəkil 6 və 7-də təsvir olunmuşdur.



Şək. 5. Karbonla örtülmüş qril üzərinə suspenziyanın damızdırılması və qurudulması



Şək. 6. Karraginanla örtülən nanokapsulların Hitachi HT-7700 markalı cihazda çəkilən görüntüləri. A – 1 µm; B – 500 nm; C – 200 nm; D – 100 nm miqyasda çəkilən görüntülər.

Şək. 6-dan göründüyü kimi, karraginanla örtülən nanokapsulların 1 µm, 500 nm, 200 nm, 100 nm miqyasda çəkilən görüntülərinin TEM analizi nəticəsində nanohissəciklərin diametri müvafiq olaraq 248 nm, 50 nm, 22 nm, 10 nm-dir.



Şək. 7. Traqakant kitrəsi ilə örtülən nanokapsulların Hitachi HT-7700 markalı cihazda çəkilən görüntüləri. A – 1 µm; B – 500 nm; C – 200 nm; D – 100 nm.

Şək. 7-dən göründüyü kimi, traqakantla örtülən nanokapsulların 1 μm, 500 nm, 200 nm, 100 nm miqyasda çəkilən görüntülərinin TEM analizi nəticəsində nanohissəciklərin diametri müvafiq olaraq 254-218 nm, 22 nm, 18 nm, 15 nm-dir.

Yekun. Beləliklə, Azərbaycanda kifayət qədər xammal ehtiyatı olan maralın pantlarından səmərəli texnoloji üsulla işlənib hazırlanmış nanokapsulların gələcəkdə onkologiya, sonsuzluq, osteoartrit, ürək-damar, sinir sistemi kimi xəstəliklərin müalicəsində tətbiqi məqsədəuyğun hesab edilir.

Maral pantlarından hazırlanan nanokapsulların morfoloji anlizinin nəticəsində karraginanla örtülən nanokapsulların SEM-də 118,3-243,6 nm, TEM-də 10-248 nm, trakaqantla örtülən nanokapsulların isə SEM-də 33,15-224,1 nm, TEM-də 15-254 nm olma-sı müəyyən edilmişdir. Müqayisəli analizlər traka-qantla hazırlanan nanokapsulların daha intensiv, daha stabil olduğunu sübut etdi. Bu isə nanokap-sulların müvafiq xəstəliklərin müalicəsində patoloji ocağa daşınmasına, dərmanın hədəf hüceyrələrdə yerləşən müvafiq reseptorlara bağlanmasına, dər-manın buraxılma sürətinə və yüksək farmakote-rapevtik təsir göstərməsinə imkan verəcəkdir.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Mehraliyeva S. İxtira üçün iddia sənədi № a 2022 0046. Maral pantlarından nanokapsulların alınması üsulu. 2022.03.18
2. Mehmet Ateş. Nanoparçacıkların Ölçme ve İnceleme Teknikleri // Turkish Journal of Scientific Reviews. E-ISSN: 2146-0132, 11 (1): 63-69, 2018
3. Земцова Н.П., Турецкова В.Ф., Макарова О.Г. Определение аминокислот в пантах марала: валидация методики // Фармация. Москва, 2016, № 4, С. 38–41
4. Земцова Н.П. Разработка технологии и стандартизация препарата общетонизирующего действия на основе марала пантов измельченных. Автореф. диссертации на соискание ученой степени кандидата фармацевтических наук, Перм 2019, стр.171
5. Delcea M., Yashchenok A., Videnova K , Kreft O., Möhwald H. Multicompartmental Micro- and Nanocapsules: Hierarchy and Applications in Biosciences Macromolecular Bioscience, 10(5), 465-474. doi:10.1002/mabi. 200900359.
6. Gaurav T., Ruchi T., Birendra S. et al. Drug delivery systems: An updated review // Int J Pharm Investig. 2012 Jan-Mar; 2(1): 2–11. doi: 10.4103/2230-973X.96920
7. Jayanta K., Gitishree D. et al. Nano based drug delivery systems: recent developments and future prospects // J Nanobiotechnology. 2018; 16: 71. Published online 2018Sep 19. doi: 10.1186/s12951-018-0392-8
8. Kritsanaporn T., Puvamin S., Ponwanit C., Tanasait N. Development of Sponge Microspicule Cream as a Transdermal Delivery System for Protein and Growth Factors from Deer Antler Velvet Extract 2019.1207-1215 doi:10.1248/bpb.b19-00158
9. Louis C., Tomás L., Gemma S., et al. Anti-tumour activity of deer growing antlers and its potential applications in the treatment of malignant gliomas // Scientific Reports volume 11, Article number: 42 (2021)
10. Medvedeva N.V., Ipatova O.M., Ivanov Iu.D. et al. Nanobiotechnology and nanomedicine // Biomed Khim. 2006; 52: 6: 529-546.
11. Pavankumar K., Hemanth K., Niranjan R., Chiranjeevi M., Radhika P., Sivakumar T. Nanocapsules: The Weapons for Novel Drug Delivery Systems Bioimpacts. 2012; 2(2): 71–81. doi: 10.5681/bi.2012.011
12. Truc L., Thuy T., Huyen T.T., Thuan D., Nguyen T. Anti-Aging Effects of a Serum Based on Coconut Oil Combined with Deer Antler Stem Cell Extract on a Mouse Model of Skin Aging // Cells 2022, 11(4), 597; https://doi.org/10.3390/cells11040597
13. Yunxin X., Angel T., Alexander W. Jackson, Ben J. Boyd* Nonspherical Nanocapsules as Long-Circulating Drug Delivery Systems // Chem. Mater. 2022, 34, 6, 2503–2530. doi.org/10.1021/acs.chemmater.1c03573
14. Zang Z. Tang H, Tuo Y, et al. Effects of velvet antler polypeptide on sexual behavior and testosterone synthesis in aging male mice // The Asian Journal of Andrology. 2016, Vol.18, No. 4, P. 613-619

РЕЗЮМЕ

МОРФОЛОГИЧЕСКИЙ АНАЛИЗ НАНОКАПСУЛ, РАЗРАБОТАННЫХ НА ОСНОВЕ ЭКСТРАКТА ИЗ РОГОВ ОЛЕНЯ

[1]Мехралиева С.Дж.., [1]Мусаева С.Э., [2]Чевиз Шакар Б., [2]Орхан З.

[1]Азербайджанский Медицинский Университет, кафедра фармацевтических технологий и менеджмента, Баку, Азербайджан;

[2]Университет Ататюрка, Восточный исследовательский центр высоких технологий Анадолу (DAYTAM), Эрзурум, Турция

Цель исследования. Провести морфологический анализ нанокапсул, изготовленных из неокостненных рогов оленя. **Материалы и методы.** В работе использовали нанокапсулы изготовленные из пантов оленя, дистиллированную воду, ультразвуковую водяную баню, решетку с угольным покрытием, прибор Zeiss

Sigma 300 для СЭМ-анализа, прибор Hitachi HT-7700 для ПЭМ-анализа. **Результаты.** В результате измерения нанокапсул из пантов оленя в масштабе 100-1000 нм было показано, что диаметр нанокапсул, покрытых каррагинаном, составляет 10-248 нм, а нанокапсул, покрытых трагакантом, 15-254 нм. Сравнительный анализ показал, что нанокапсулы, изготовленные с использованием трагаканта, более интенсивны и долговечны. **Заключение.** В Азербайджане считается целесообразным использание нанокапсул, изготовленных из пантов оленей, имеющих достаточное сырье, в будущем при лечении онкологических заболеваний, бесплодия, остеоартроза, патологий сердечно-сосудистой и нервной систем. СЭМ и ПЭМ анализы нанокапсул, изготовленных из пантов оленя, оказались наноразмерными, что обеспечит транспорт наночастиц к патологическому очагу, связывание препарата с соответствующими рецепторами, расположенными в клетках-мишенях, скорость высвобождения препарата и его высокий фармакотерапевтический эффект.
Ключевые слова: рога оленя, нанокапсулы, прибор Zeiss Sigma 300, прибор Hitachi HT-7700, анализ СЭМ и ПЭМ.

SUMMARY

LEVELS OF METABOLIC PRODUCTS IN BLOOD SAMPLES OF PATIENTS AND HEALTHY PEOPLE WITH THE LIVER ECHINOCOCCOSIS

[1]Mehraliyeva S.C., [1]Musayeva S.E., [2]Ceviz Shakar B., [2]Orhan Z.

[1]Azerbaijan Medical University, Department of Pharmaceutical Technology and Management, Baku, Azerbaijan;
[2]Atatürk University Eastern Anadolu High Technology Application and Research Center (DAYTAM), Erzurum, Turkey

The aim of the study. It consists of morphological analysis of nanocapsules made of deer boneless antlers. **Materials and methods.** Nanocapsules from deer antlers, distilled water, ultrasonic water bath, carbon-coated grill, Zeiss Sigma 300 device for SEM analysis, Hitachi HT-7700 device for TEM analysis were used in the research. **Results.** As a result of measuring nanocapsules made of deer antlers on a scale of 100-1000nm, it was shown that the diameter of nanocapsules coated with carrageenan is 10-248nm, and nanocapsules coated with tragacanth is 15-254nm. Comparative analysis has shown that nanocapsules made with tragacanth are more intensive and more durable. **Conclucion.** In Azerbaijan, it is considered expedient to use nanocapsules made from deer antlers, which have sufficient raw materials, in the future in the treatment of diseases such as oncology, infertility, osteoarthritis, cardiovascular and nervous systems. SEM and TEM analysis of nanocapsules made from deer antlers proved to be nano-sized. This will allow the transport of nanoparticles to the pathological site, bind the drug to the appropriate receptors located in the target cells, the rate of release of the drug and its high pharmacotherapeutic effect.
Keywords: deer antlers, nanocapsules, Zeiss Sigma 300 device, Hitachi HT-7700 device, SEM and TEM analysis, carbon-coated grill.

Redaksiyaya daxil olub: 20.12.2021
Çapa tövsiyə olunub: 17.01.2022
Rəyçi: dosent F.İ.Mədətli

Tibb və Elm Jurnalı, №1 (27) 2022, 52-55

ФУНКЦИОНАЛЬНОЕ СОСТОЯНИЕ ПОЧЕК У БОЛЬНЫХ С РАННИМИ СТАДИЯМИ ДИАБЕТИЧЕСКОЙ НЕФРОПАТИИ, ОБУСЛОВЛЕННОЙ САХАРНЫМ ДИАБЕТОМ ТИПА 2

Бахтиярова Л.Б.*, Сардарлы Ф.З., Эминбейли Х.Р.

Азербайджанский Государственный Институт Усовершенствования Врачей имени А. Алиева, кафедра нефрологии, Баку, Азербайджан

Учитывая тот факт, что по данным разных авторов, 80-95% от общего числа больных СД типа 2 (СД2) составляют больные с инсулиннезависимым диабетом или СД 2 типа, можно смело утверждать, что сегодня мы имеем дело с эпидемией СД типа 2. Давно прошли те времена, когда больные умирали от острых осложнений диабета – кетоацидотических ком. Сейчас причиной высокой смертности, заболеваемости и инвалидизации пациентов являются поздние осложнения диабета и наиболее грозное из них – диабетическая нефропатия (ДН). Статья посвящена изучению функционального состояния почек на доклинической стадии ДН, обусловленной СД 2, а именно на стадии микроальбуминурии при высоком нормальном артериальном давлении (120/80-129/80) (ACC/AHA Hypertension Guidelines, 2017). В ходе исследования были установлены значимые изменения функционального состояния почек у данной категории больных.

Ключевые слова: диабетическая нефропатия, сахарный диабет типа 2, микроальбуминурия, скорость клубочковой фильтрации.

На сегодняшний день сахарный диабет (СД) все больше приобретает черты глобальной эпидемии [1, 2, 4, 7]

Давно прошли те времена, когда больные умирали от кетоацидотических ком. На сегодняшний день причиной высокой смертности, заболеваемости и инвалидизации пациентов являются микро- и макроангиопатические осложнения и наиболее грозным из них является диабетическая нефропатия (ДН).

Радикально воздействовать на уже развившуюся ДН на сегодняшний день не представляется возможным, поскольку ДН-неуклонно прогрессивное заболевание и лечение ее развернутых стадий может лишь отстрочить развитие наступающей почечной недостаточности.

В связи с этим, выявление больных с ранними (доклиническими) стадиями ДН является приоритетной задачей практического здравоохранения.

Целью исследования явилось изучение функционального состояния почек у больных с микроальбуминурической стадией ДН, у которых имело место высокое нормальное артериальное давление (АД) (АД – 120/80-129/80) (ACC/AHA Hypertension Juidelines, 2017).

Роль артериальной гипертензии (АГ) в развитии и прогрессировании любого почечного заболевания, в том числе и при ДН, не вызывает сомнений и подтверждена в многочисленных крупномасштабных исследованиях [5,7,8]. В то же время в эти исследования не включались больные с так называемым высоким нормальным АД 120/80-129/80 мм рт.ст. по классификации ВОЗ. Однако доказано, что предупредить прогрессирование сосудистых осложнений при СД возможно только при поддержании уровня АД не более 130/80 мм рт.ст. [2, 7].

Материалы и методы. В обследованную группу были включены больные с СД типа 2 и уровнем АД выше, чем 130/80 мм рт.ст., но ниже, чем 140/90 мм рт.ст. – 32 больных. Контрольную группу составили 10 практически здоровых лиц. Микроальбуминемия (МАУ) определялась методом конкурентного твердофазового иммуноферментного анализа с помощью набора реагентов (иммуно ФА-МА, Россия).

Также изучались такие показатели функционального состояния почек, как скорость клубочковой фильтрации (СКФ) методом реносцинтиграфии с технецием, средний объем почек (СОП) методом ультрасонографии с применением формулы СОП= 0,523х длина почки х ширина почки х толщина почки, Индекс RJ, PJ, Vmax (методом дуплексного сканирования), содержание NO в моче спекрометрическим методом. Диагноз СД типа 2 ставился на основании критериев ВОЗ [1].

Результаты и обсуждение. Как видно из таб. 1 у обследованных больных СКФ достоверно не отлилась от контроля 89,0 (p>0,05), хотя и прослеживалась тенденция к ее снижению: так у 37,5% больных отмечалось снижение СКФ по отношению к контролю.

СОП оказался достоверно повышенным и составил 158,0 против 153,0 в контрольной груп-

*e-mail: nefrologiya_adhti@mail.ru

пе исследования (p<0,001). Процент больных с увеличенным СОП составил при этом 72,5. Такие данные о СОП могут свидетельствовать о том, что у данной категории больных имеет место, ренемегалия несмотря на начинающийся процесс склерозирования, о чем свидетельствует снижение СКФ у 37,5% больных. Таким образом, можно говорить о том, что на этой стадии развития нефропатии пока еще процессы увеличения структурных элементов почки являются преобладающими.

Таблица

Показатели функционального состояния почек у больных с микроальбуминурией и нормально повышенным АД

Показатели	Нормальные показатели	Обследованные больные
СКФ мл/мин	116 (96,0-137,0)	89,0 (81,0-96,0)**
СОП $см^3$	153,0 (140,0-160,0)	158,0 (148,0-165,0)*
МАУ мг/сут	26,0 (20,0-30,0)	38,0 (31,0-42,0)*
RI сегм. арт.	0,58 (0,51-0,64)	0,57 (0,51-0,63)**
PI сегм. арт.	1,1 (0,6-1,4)	1,19 (1,07-1,3) **
Vmax сегм. арт.	0,89 (0,83-0,96)	0,89 (0,82-0,93)**
NO мочи ммоль/л	14,8 (14,1-15,03)	13,7 (13,3-14,3)**
RI магистр. арт.	0,63 (0,57-0,68)	0,71 (0,66-0,77)*
PI магистр. арт.	0,94 (0,87-0,99)	1,01 (0,91-1,06)*
Vmax магистр. арт.	0,97 (0,93-1,01)	0,89 (0,81-0,95)*

Прим.: P<0,0001, ** P>0,05

Показатели внутрипочечной гемодинамики на уровне сегментарных артерий у обследованных больных изменялись в сторону повышения индексов резистентности и пульсационности и снижения Vmax кровотока (0,57; 1,19; 0,89 против 0,6; 1,36; 0,77 соответственно в контроле) (p<0,001).

Показатели внутрипочечной гемодинамики на уровне магистральных артерий также были достоверно отличимы от контроля (0,71; 1,01; 0,89 против 0,63; 0,94; 0,97 соответственно в контроле) (p<0,001)

В ходе исследования удалось установить, что вазоспастический тип изменения внутрипочечной гемодинамики у больных с нормально повышенным уровнем АД вызывал переферическую вазоконстрикцию и внутрипочечную гипертензию.

Уровень NO оказался сниженным по отношению к контролю и составил здесь 13,7 против 14,8, однако это снижение не было достоверным (p>0,05). Процент больных, у которых имела место эндотелиальная дисфункция составила - 75,6. Иными словами, АГ у больных ДН в стадии МАУ усугубляет проявления эндотелиальной дисфункции, сдвигая еще больше баланс веществ, регулирующих сосудистый тонус, в сторону вазоконстрикторов (рис.)



Рис. Стадия микроальбуминурии с нормально повышенным АД.

Таким образом, основываясь на результатах, полученных в ходе исследования больных данной группы, можно говорить о том, что нормально повышенный уровень АД создает благоприятные условия для беспрепятственной передачи (трансмиссии) системной гипертензии на сосуды клубочков. Согласно миогенной гипотезе саморегуляции почечного кровотока, при повышении давления в афферентной артериоле растягиваются ее гладкомышечные волокна, что тотчас увеличивает их тонус, возрастает напряжение, сосуд суживается и повышается сопротивление току крови [3, 5, 6]. Этот механизм может обеспечивать на какое-то время относительную стабильность кровотока в более мелких периферических сосудах и препятствовать нарастанию внутриклубочковой гипертензии. Именно так можно объяснить повышение резистивности магистральных сосудов почки при относительно сохранной резистивности междольковых (периферических) почечных сосудов, которая имела место у больных обследованной группы и которая действительно может выполнять компенсаторную функцию на данном этапе развития ДН при СД типа 2. Однако выявленная тенденция к уменьшению СКФ у больных данной группы говорит о продолжающихся процессах склерозирования в почке, свидетельствует о том, что системная гипертензия, помимо сужения почечных сосудов, вызывает изменения функции эндотелия сосудов, о чем говорит снижение, хотя и недостоверное, уровня NO у данной категории больных. Иными словами, эндотелий сосудов у больных с АГ на стадии МАУ истощается и уже не способен вырабатывать NO в таких количествах, которые необходимы для поддержания баланса между вазоконстрикторами и вазодилататорами. Сосуды становятся регидными к воздействию гемодинамического фактора.

Подтверждается это отчасти установленной в ходе исследования сильной обратной степенью корреляции между уровнем NO и индексом RJ у данной категории больных.

Заключение. Таким образом, проведенный анализ полученных в ходе исследования данных о функциональном состоянии почек у больных с нормально повышенным АД в стадии МАУ позволяет сделать вывод о том, что у данной категории больных имеет место прогрессирование ДН, что возможности обратного развития патологии процесса минимальны и что именно эта стадия должна явиться «плацдармом» для проведения агрессивного воздействия на имеющих место реномегалию, периферическую вазокострикцию, эндотелиальную дисфункцию.

Только такой подход к доклиническим стадиям ДН на фоне СД типа 2, на наш взгляд, позволит остановить эпидемию ДН в мире на сегодняшний день, только так можно добиться уменьшения экономических затрат, которые испытывают бюджеты развитых стран, безуспешно пытаясь лечить больных с далеко зашедшими стадиями ДН.

REFERENCES – ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

1. Жильцова Е.Е., Чахоян Л.Р. Роль иммунологических нарушений в развитии атопического дерматита // Исследования и практика в медицине. 2018; 5 (1): 45-51.
2. Зайцева О.В. Атопический дерматит: стратегия и тактика педиатра // Практика педиатра. 2013; 1: 5–8.
3. Касохов Т.Б., Царева А.А., Мазур А.И. и др. Нарушения показателей местного и системного иммунитета у детей с атопическим дерматитом // Эффективная фармакотерапия. 2019; 15 (43): 16-19.
4. Малишевская Н.П., Пазина М.В. Эпидемиологические и медико-социальные аспекты заболеваемости хроническими дерматозами // Уральский медицинский журнал. 2017; 8: 20–26.
5. Рудикофф Д. и др. Атопический дерматит и экзематозные расстройства. – М.: «ГЭОТАР-Медиа». 2017: 344.
6. Трошина Е.А. Роль цитокинов в процессах адаптивной интеграtsii иммунных и нейроэндокринных реакций организма // Проблемы Эндокринологии. 2021; 67 (2): 4-9.
7. Хаитов К.Н., Абидов Х.А., Ким З.А. "Частота возникновения аллергодерматозов" / Актуальные проблемы современной науки в 21 веке: сборник материалов XVIII Международной научно-практической конференции. – Ташкент. 2019: 45–50.
8. Хамаганова И.В., Новожилова О.Л., Воронцова И.В. Эпидемиология атопического дерматита // Клиническая дерматология и венерология. 2017; 16 (4): 21-25.
9. Roesner L.M., Werfel T. Autoimmunity (or Not) in Atopic Dermatitis // Front. Immunol. 2019; 10: 21-28.
10. Khaitov, K. N., et al. "A modern view on pathogenetic therapy of atopic dermatitis in children" // Новый день в медицине. 2021; 1: 217-227
11. Kistler T., Thiering E., Janmohamed S.R., Haak S., Heinrich J., Ollert M., et al. Autoreactive IgE occurs naturally during childhood and is negatively correlated with allergic

sensitization at age 10 // Allergy. 2018; 73: 829.
12. Maurer M., Altrichter S., Schmetzer O., Scheffel J., Church M.K., Metz M. Immunoglobulin E-mediated autoimmunity // Front Immunol. 2018; 9: 689.
13. Stevens N.E., Cowin A.J., Kopecki Z. Skin barrier and autoimmunity-mechanisms and novel therapeutic approaches for autoimmune blistering diseases of the skin // Front Immunol. 2019; 10: 1089.

XÜLASƏ

2-Cİ TİP ŞƏKƏRLİ DİABETLİ XƏSTƏLƏRDƏ DİABETİK NEFROPATİYANIN ERKƏN MƏRHƏLƏSİNDƏ BÖYRƏKLƏRİN FUKSİONAL VƏZİYYƏTİ

Bəxtiyarova L.B., Sərdarlı F.Z., Eminbəyli X.R.
Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkminləşdirmə İnstitutu, nefrologiya kafedrası, Bakı, Azərbaycan

Məqalə normal yüksəlmiş arterial təzyiq (120/80-129/80 mm c.st.) və mikroalbuminuriya mərhələsində şəkərli diabet tip 2 ilə əlaqəli diabetic nefropatiyanın klinikayaqədərki dövründə böyrəklərin funksional vəziyətinin öyrənilməsinə həsr olunmuşdur.Tədqiqatın nəticəsində bu kateqoriyalı xəstələrdə böyrəklərin funksional vəziyətinin dəyişiklikləri təsdiq olunmuş və dəyərləndirilmişdir.
Açar sözlər: diabetik nefropatiya, şəkərli diabet tip 2, mikroalbuminuriya, yumaqcıq filtirasiyasının sürəti.

SUMMARY

FUNCTIONAL STATE OF THE KIDNEYS IN PATIENTS WITH EARLY STAGES OF DIABETIC NEPHROPATHY DUE TO TYPE 2 DIABETES MELLITUS

Bakhtiyarova L.B., Sardarly F.Z., Eminbeyli X.R.
Azerbaijan State Advevced Training Institute for doctors named after A.Aliyev, Department of Nefroloji, Baku, Azerbaijan

This articl has been dedicated for patients,who are diagnosed type II Diabetus mellitus in the stage of microalbuminuria with the pre-high blood pressure (120/80; 129/80 mmHg) in order to study renal function preclinical stage of diabetic nephropathy. During the examination of this category of patients, some noticeable changes are determined in renal function.
Keywords: diabetic nephropathy, diabetes mellitus type 2, microalbuminuria, glomerular filtration rate.

Redaksiyaya daxil olub: 25.01.2022
Çapa tövsiyə olunub: 14.02.2022
Rəyçi: Professor İ.İ.Mustafayev

Tibb və Elm Jurnalı, №1 (27) 2022, 56-59

QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA YUMURTALIQ XƏRÇƏNGİNİN EPİDEMİOLOJİ XÜSUSİYYƏTLƏRİ

İbişova L.M.*

Milli Onkologiya Mərkəzi, şişönü xəstəliklərin diaqnostikası və müalicəsi şöbəsi, Bakı, Azərbaycan

Aparılmış statistik analiz nəticəsində müəyyən olundu ki, Azəbaycan respublikasının Quba-Xaçmaz iqtisadi regionunda yumurtalıq xərçənginin xəstələnmə göstəriciləri nisbətən yüksəkdir. Ümumi region üzrə ekstensivlik və intensivlik göstəricilərinin müvafiq olaraq, 5,7% və 7,1‰ təşkil etmişdir. 5-illik yaşam göstəricisinin ən yüksək səviyyəsi Quba rayonunda – b51,3% qeydə alınmışdır və bu göstərici ümumi region göstəricisindən (44,3%) nisbətən yüksək olmuşdur. Regionun ümumi ölüm göstəricisi (0,02‰) respublika göstəricisindən (0,04‰) 2 dəfə aşağı olmuşdur və bu da aqressivlik göstəricisində öz əksini tapmışdır (0,03).

Açar sözlər: yumurtalıq xərçəngi, ekstensivlik, intensivlik, ölüm göstəricisi.

Yumurtalıqların xərçəngi (YX) qadın cinsiyyət orqanlarının geniş yayılmış şiş formalarından olub, qadınlarda bədxassəli şişlərdən ölümün strukturunda 4-cü, qadın cinsiyyət orqanlarının bədxassəli şişlərindən ölüm strukturunda isə 1-ci yeri tutur. Bədxassəli şişlərlə xəstələnmənin ümumi strukturunda qadınlarda yumurtalıqların bədxassəli şişləri rastgəlmə tezliyinə görə 4-6%-lə 7-ci, qadın cinsiyyət orqanlarının bədxassəli şişləri arasında isə 20-25%-lə 2-3-cü yerləri tutur.

Azərbaycan Respublikasında yumurtalıq xərçəngi qadınlar arasında bədxassəli şişlər ilə xəstələnmə strukturunda 4-5-ci yeri tutur.

A.V.Vajenin həmmüəl. birgə (2010), A.J.Saadanbəyova (2010) bir sıra tədqiqatçılar ilə həmrəydir ki, yumurtalıqların bədxassəli yenitörəmələri qadın cinsiyyət orqanlarının bədxassəli şişlərinin tez rast gələn formalarından biridir və birinci yerlərə çıxır. Bu ginekoloji xəstəliklər sırasında ən fatal və ağır xəstəlikdir, çünki erkən mərhələlərdə kliniki manifestasiya mövcud deyil və onun residivvermə riski çox yüksəkdir [1, 6-9].

Əksər tədqiqatçılar sübut edir ki, yumurtalıqların bədxassəli yenitörəmələri rastgəlmə tezliyinə görə qadınların onkoloji xəstəlikləri arasında yeddinci yerdə və ehtimal edilən ölüm səbəbləri sırasında – 8-ci yerdədir. Statistik nöqteyi nəzərdən bu olduqca nadir xəstəlikdir [2-5].

Q.M.Çibisova (2019) hesab edir ki, yumurtalıq xərçəngi, əvvəl olduğu kimi, bütün dünyada mamaginekoloqlar və onkoloqlar üçün mürəkkəb məsələ olaraq qalır. Son onillikdə, praktiki olaraq, bütün ölkələrdə, ölüm və 5-illik yaşam göstəricilərin cüzi azalması ilə yanaşı, xəstələnmə göstəricilərin yüksəlmə tendensiyası qeyd olunur. Bu hal isə, şübhəsiz, əhalinin qocalması nəticəsində baş verən demoqrafik proseslərin qeyri-qənaətbəxş istiqamətləri ilə şərtlənir [12].

İ.A.Trofimenko (2010) apardığı tədqiqatın nəticələrinin əsasında belə hesab edir ki, yumurtalıqların xoşxassəli şişləri yumurtalıqların bütün yenitörəmələrinin 66,8%-dan 80,3%-na qədər təşkil edir. Bu həmin orqanların bədxassəli yenitörəmələrinin sayını 4 dəfə üstünləyir [11].

V.Y.Pavloviçin həmmüəl. birgə (2019) fikrinə görə, yumurtalıqlarda gedən proliferativ proseslər reproduktiv yaşlı qadınlar üçün, həqiqətən, ciddi problemdir [10].

Statistikaya əsasən, 50%-ya yaxın qadın xəstəliyi gecikdirir, öz-özünə müalicə ilə məşğul olur və ya düzgün qoyulmayan diaqnozdan əziyyət çəkirlər [13].

Tədqiqatın məqsədi. Quba-Xaçmaz iqtisadi regionunda yumurtalıq xərçənginin epidemioloji xüsusiyyətlərinin tədqiqidir.

Material və metodlar. Yumurtalıq xərçəngi ilə xəstələnməni kəmiyyət baxımından əks etdirən göstəricilər analiz olunarkən aşağıdakı statistik xarakteristikalardan istifadə edilir: ekstensivlik, intensivlik göstəriciləri və standartlaşdırılmış göstəricilər, ümumi ölüm əmsalı və letallıq əmsalı, zədələnmə və aqressivlik göstəriciləri, həmçinin 5 illik yaşama göstəricisi.

Respublikanın şimalında yerləşən Quba-Xaçmaz iqtisadi regionunun əhalisi 500000 çox nəfərdir. Onlardan 50,2%-nı kişi, 49,8%-nı isə qadınlardır. Regionun ərazisi 6,96 min km2 təşkil etməklə özündə beş ərazi-inzibati rayon birləşdirir: Dəvəçi, Quba, Xaçmaz, Qusar, Siyəzən.

Tədqiqatın nəticələri və müzakirəsi. Hər il bu regionda qadınlar arasında bədxassəli şişlər ilə birincili xəstələrin sayı 220 nəfərdən artıq olur və onlardan 5,7% halları yumurtalıq xərçəngi ilə olan xəstələr təşkil edir.

Aparılmış statistik təhlil müəyyən etdi ki, eksten-

*e-mail: leylaibishova@icloud.com

sivlik göstəricisinin ən yüksək səviyyəsi Xaçmaz rayonunda (6,9%), ən aşağı səviyyəsi isə Siyəzəzn rayonunda (2,1%) olub. Digər rayonların göstəriciləri isə bu cür olub: Quba – 6,3%, Qusar – 6,7%, Şabran – 3,0%. Ümumi region üzrə ekstensivlik göstəricisi isə 5,7% təşkil etmişdir.

Şəkildə tədqiq olunan regionun ərazi-inzibati rayonlarında yumurtalıq xərçəngi ilə xəstələnmənin intensivlik göstəricisi göstərilib. Şəkildə göründüyü kimi, ən yüksək xəstələnmə səviyyəsi Qusar və Quba rayonlarında olmuşdur (müvafiq olaraq 10,4‰ və 8,4‰). İntensivlik göstəricisinin ən aşağı səviyyəsi isə ümumi region göstəricisindən 3,4 dəfə az olmaqla Siyəzən rayonunda qeydə alınmışdır və, müvafiq olaraq, təşkil etmişdir – 2,4‰. Xaçmaz və Şabran rayonlarının göstəriciləri 6,9‰, 3,5‰ olmuşdur, ümumi region üzrə intensivlik göstəricisi isə 7,1‰ təşkil etmişdir.



Şək. Quba-Xaçmaz iqtisadi regionunun müxtəlif inzibati-ərazi rayonlarında yumurtalıq xərçəngi ilə xəstələnmənin intensivlik göstəricisi.

Zədələnmə göstəricisinin hesablanması zamanı isə bir gədər fərqli görüntü müşahidə olunmuşdur. Belə ki, bu göstəricinin ən yüksək səviyyəsi Qusar rayonunda (49,9‰), ən aşağı səviyyəsi isə Siyəzən rayonunda qeydə alınmışdır (9,6‰). Şabran və Xaçmaz rayonlarının zədələnmə göstəriciləri 28,1‰ və 19,5‰ təşkil etməklə ümumi region göstəricisindən aşağı səviyyədə olmuşdur. Siyəzən rayonunda isə bu göstərici region göstəricisndən 3,5 dəfə az olmaqla 9,6‰ təşkil etmişdir. Ümumi region göstərici isə 32,9‰ təşkil etmişdir.

Məlumdur ki, 5 illik yaşam göstəricisi bədxassəli şişlərinin birincili və ikincili profilaktika tədbirlərinin effektivliyini əks etdirən göstəricilərdən biridir. Aparılmış statistik təhlil göstərdi ki, Quba-Xaçmaz regionunda 5 illik yaşam göstəricisinin ən yüksək səviyyəsi Quba rayonunda – 51,3% qeydə alınıb. Digər inzibati rayonların göstəriciləri isə bu cür olub: Qusar – 50,0%, Siyəzən – 50,0%, Xaçmaz – 35,3%, Şabran – 12,5%. Ümumi region üzrə göstərici isə 44,3% təşkil etmişdir.

Məlumdur ki, bir çox hallarda ölüm göstəriciləri epidemioloji perspektivlər baxımından populyasiyanın sağlamlığının dəyişilməsi tendensiyaları haqqında qiymətli informasiya hesab olunur. Letallıq göstəricisi isə xəstəliyin ağırlığının meyarı kimi hesab olunur.

Tədqiq olunan regionda ümumi ölüm əmsalının hesablanması zamanı müəyyən olunmuşdur ki, ən yüksək səviyyə Xaçmaz inzibati rayonunda

(0,03‰), ən aşağı səviyyə isə Qusar və Quba rayonunda (0,02‰) qeydə alınıb. Region üzrə ümumi ölüm əmsalı 0,02‰ təşkil edib.

Letallıq göstəricisinin hesablanması zamanı isə bir qədər fərqli nəticə əldə olunub. Belə ki, ən yüksək səviyyə Qusar inzibati rayonunda, ən aşağı isə Quba rayonunda qeydə alınıb və bu rayonların letallıq göstəriciləri, müvafiq olaraq, 20,0% və 14,3% təşkil edib. Ümumi region üzrə isə bu göstərici 15,8% olub.

Standartlaşdırılmış göstəricilərin hesablanması öyrənilən regionda 30 yaşa qədər qadınlar arasında yumurtalıq xərçəngi ilə xəsətələnmə hallarını qeydə alınmamasını göstərmişdir. Digər yaş qruplarında isə xəstələnmənin yüksəlməsi qeydə alınmışdır. Ən yüksək göstərici 50-59 yaş qrupunda müşahidə olunmuşdur və burada standartlaşdırılmış göstərici 1,9‰ təşkil edib. 60-69 yaş qrupundan başlayaraq xəstələnmənin aşağı düşməsi müşahidə olunmuşdur və ən aşağı səviyyə 70 yaş və ondan yuxarı yaş qrupunda qeyd edilmişdir ki, onun da standartlaşdırılmış göstəricisi 0,7‰ bərabər olmuşdur (cəd.).

Cədvəl

Quba-Xaçmaz iqtisadi regionunda yumurtalıq xərçəngi ilə xəstələnmənin standartlaşdırılmış göstəricisi (100000 nəfərə)

Yaş	Əhalinin ümumi sayı	İntensivlik göstəricisi (‰)	Orta standart	Standartlaşdırılmış göstərici (‰)
0-17	72418	-	27078,0	-
18-29	59977	-	22426,2	-
30-39	36975	5,4	13825,4	0,7
40-49	35981	8,3	13453,7	1,1
50-59	33929	14,7	12686,5	1,9
60-69	13933	28,7	5209,7	1,5
70 <	14229	14,0	5320,5	0,7
Σ	267442	6,7	100000	5,9

Quba-Xaçmaz iqtisadi regionunun yumurtalıq xərçənginin aqressivlik (dürüstlük) indeksi göstəricilərinin təhlili müəyyən etdi ki, ən yüksək səviyyə Xaçmaz rayonunda (müvafiq olaraq, 0,4 və 1,0) müşahidə olunub. Ümumi region göstəricisi isə 0,3 olmuşdur.

Beləliklə, aparılmış tədqiqat nəticəsində müəyyən olundu ki, Azəbaycan respublikasının Quba-Xaçmaz iqtisadi regionunda yumurtalıq xərçənginin xəstələnmə göstəriciləri nisbətən yüksəkdir. Ekstensivlik və intensivlik göstəricilərinin ən yüksək səviyyəsi Qusar inzibati rayonunda qeydə alınmışdır (müvafiq olaraq, 6,7% və 10,4‰) və ümumi region üzrə isə bu göstəricilər müvafiq olaraq, 5,7% və 7,1‰ təşkil etmişdir. 5-illik yaşam göstəricisinin təhlili müəyyən etdi ki, Quba rayonunda bu göstərici (51,3%) ümumi region göstəricisindən (44,3%) yüksək olmuşdur. Tədqiq olunan regionun zədələnmə göstəricisi isə 32,9‰ təşkil etmişdir. Ölüm göstəricilərinin və aqressivlik indeksinin hesablanması zamanı isə onların Xaçmaz inzibati rayonunda ən yüksək səviyyəsinin müəyyən etmişdir. Regionun ümumi ölüm göstəricisi (0,02‰) respublika göstəricisindən (0,04‰) 2 dəfə aşağı olmuşdur və respublika üzrə aqressivlik indeksinin ən aşağı səviyyəsi 0,3 təşkil etməklə, Quba-Xaçmaz iqtisadi regionunda qeydə alınmışdır.

Aparılan tədqiqat işi yumurtalıq xərçənginin xəstələnmə göstəricisi səviyyəsinin yüksək olduğu inzibati rayonlarda bu patologiyanın ilkin diaqnostika və profilaktikası üçün zəruri tədbirlərin işlənib hazırlanmasında əsas rolunu oynayır. Bu baxımdan xəstəliyin effektiv müalicəsi üçün vaxtında aşkarlanmasına imkan yaradır.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENS

1. Важенин А.В., Жаров А.В., Шимоткина И.Г. Актуальные вопросы клинической онкогинекологии // Москва: 2010, 128 с.
2. Дисаи Ф.Дж., Крисман У.Т. Клиническая онкогинекология // Практическая медицина, 2012, №2, 75 с.
3. Жорданиа К.И. Паяниди Ю.Г., Сонова М.М. [и др.] Эндометриоз и рак яичников // Онкогинекология, 2015, №2, с. 16-23.
4. Злокачественные новообразования в России в 2016 году (заболеваемость и смертность) // Под ред. А.Д.Каприна, В.В.Старинского, Г.В.Петровой. – Москва: - 2018. – 249 с.
5. Канторова А.А. Эпидемиология рака основных локали-

заций женских половых органов в Ростовской области. оптимизация организационных форм их выявления (на модели рака шейки матки): диссертация кандидата медицинских наук, Ростов-на-Дону, 2011. 215с.
6. Максимова Н.А., Сергеева М.М. Значение сонографии и допплерографическая оценка результатов лечения локальных рецидивов рака яичников // Известия ВУЗов Северо-Кавказского региона. Естественные науки. Спецвыпуск, 2011, с. 72-74.
7. Максимова Н.А., Златник Е.Ю., Сергеева М.М. Ультразвуковой мониторинг и динамика опухолевого маркера СА-125 в оценке эффективности лечения у больных с локальными рецидивами рака яичников // Медицинская наука и образование Урала, 2011, №4, с. 143-145.
8. Новикова Е.Г., Московская Е.Ю. Причины, диагностика и лечение рецидивов рака яичников. Обзор литературы и анализ собственных данных // Онкология, 2015, №3, с. 59-67.
9. Сааданбекова А.Ж. Оптимизация ведения больных со злокачественными новообразованиями яичников: // диссертация кандидата медицинских наук, Бишкек, 2010, с. 112.
10. Павлович В.Е., Чаговец В.В., Хабас Г.Н. [и др.]. Биомаркеры при новообразованиях яичников: возможности, ограничения и перспективы применения у женщин репродуктивного возраста // Акушерство и гинекология, 2019, №11, с. 65-73 (doi:https://dx.doi.org/ 10.18565/aig.2019.11.65-73).
11. Трофименко И.А. Возможности высокопольной магнитно-резонансной томографии в дифференциальной диагностике новообразований яичников у женщин репродуктивного возраста и в менопаузе: // диссертация кандидата медицинских наук, Санкт-Петербург, 2010,199 с.
12. Чибисова Г.М. Оптимизация ранней диагностики и прогнозирования развития рака яичников: // диссертация кандидата медицинских наук, Тула, 2019, 115 с.
13. Jemal A., Bray F., Center M. [et al.]. Global cancer statistics. CA Cancer // J. Clin., 2011. v.61, p. 69.

РЕЗЮМЕ

ЭПИДЕМИОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАКА ЯИЧНИКОВ В ГУБА-ХАЧМАЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

Ибишова Л.М.
Национальный Центр Онкологии, Отделение диагностики и лечения предопухолевых заболеваний, Баку, Азербайджан

Статистический анализ показал, что заболеваемость раком яичников относительно высока в Губа-Хачмазском экономическом районе Азербайджанской Республики. Показатели экстенсивности и интенсивности для всего региона составили 5,7% и 7,1‰ соответственно. Самый высокий уровень 5-летней выживаемости был зарегистрирован в Губинском районе – 51,3%, и этот показатель был выше, чем общий региональный показатель (44,3%). Общий уровень смертности в регионе (0,02‰) был в два раза ниже республиканского показателя (0,04‰), что отразилось на уровне агрессии (0,03).
Ключевые слова: рак яичников, экстенсивность, интенсивность, смертность.

SUMMARY

EPIDEMIOLOGICAL FEATURES OF OVARIAN CANCER IN GUBA-KHACHMAZ ECONOMIC REGION

Ibishova L.M.
National Center of Oncology, Department of Diagnosis and Treatment of Precancerous Diseases, Baku, Azerbaijan

The statistical analysis found that the incidence of ovarian cancer is relatively high in the Guba-Khachmaz economic region of the Republic of Azerbaijan. Extensiveness and intensity indicators for the whole region were 5.7% and 7.1‰, respectively. The highest level of 5-year survival rate was registered in Guba region – 51.3%, and this figure was higher than the overall regional rate (44.3%). Total mortality rate in the region (0.02‰) was twice lower than the republican indicator (0.04‰), which was reflected in the aggression rate (0.03).
Key words: ovarian cancer, extensiveness, intensity, mortality.

Redaksiyaya daxil olub: 22.01.2022
Çapa tövsiyə olunub: 09.02.2022
Rəyçi: Professor F.Ə.Mərdanlı

Tibb və Elm Jurnalı, №1 (27) 2022, 60-62

QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA "TRİPLE-NEQATİV" SÜD VƏZİ XƏRÇƏNGİNİN EPİDEMİOLOJİ XÜSUSİYYƏTLƏRİ

Əliyeva Ş.R.*

Milli Onkologiya Mərkəzi, ümumi onkologiya şöbəsi, Bakı, Azərbaycan

Quba-Xaçmaz iqtisadi regionunda qadınların bədxassəli yenitörəmələri ilə xəstələnmə strukturunda TN SVX 2-ci yeri tutur və onun ekstensivlik göstəricisi 1,5%, intensivlik göstəricisi 2,2⁰/₀₀₀₀ təşkil edir. TN SVX ilə ən yüksək zədələnmə göstəricisi Quba rayonunda 12,8⁰/₀₀₀₀ qeyd edilmişdir və ümumi region üzrə zədələnmə göstəricisi 15,0⁰/₀₀₀₀ təşkil etmişdir. Xəstələnmənin yüksəlmisi 40-49 və 60-69 yaş qruplarında müşahidə olunmuşdur və hər iki yaş qrupu üçün standartlaşdırılmış göstərici 0,7⁰/₀₀₀₀ təşkil edib. 5 illik yaşam göstəricisi isə Qusar rayonunda 3,9%, müşahidə olunmuşdur. Ümumi ölüm əmsalı 1,1⁰/₀₀₀₀, letallıq göstəicisi isə 16,6% təşkil etmişdir. Aqressivlik indeksi 0,5-ə bərabərdir.

Açar sözlər: triple neqativ, süd vəzi xərçəngi, ekstensivlik, intensivlik.

Bugün süd vəzi xərçəngi (SVX) dünyanın həm inkişaf etmiş, həm də inkişaf edən ölkələrinin qadınları arasında xərçəngin ən yayılmış növüdür. SVX bütün xərçənglər arasında ikinci, qadın populyasiyasında isə – birinci yerdədir [12, 13].

Statistik göstəricilərə əsasən, SVX hər səkkizinci qadında aşkar olunur [9].

Ədəbiyyatdan əldə olunan statistik məlumatlara görə, bu gün bütün dünya üzrə süd vəzi şişönü və şiş xəstəliklərinə tutulmuş xəstələrin sayının və bu səbəbdən ölüm hadisələrin artması meyilliliyi müşahidə olunur. Təqribən 30 yaşa qədər qadınların 25%-da və 40 yaşdan yuxarı qadınların 60%-da müxtəlif mənşəli süd vəzi patologiyaları aşkar olunur [2].

C.Ə.Əliyev və həmmüəl. (2017) tərəfindən aparılan tədqiqatların nəticələrinə əsasən, xərçəngin bu növünün rastgəlmə tezliyi durmadan artır –dünyada ildə SVX-nin 1 mln-dan çox halı qeydə alınır [1, 4, 11].

ÜST-nin ekspertlərinin qiymətləndirməsinə görə, dünyada hər il SVX-nin 800 mindən 1 mln-a qədər yeni halı qeyd edilir. Qadınlarda ölüm sayına görə xərçəngin bu növü ikinci yerdədir. Ən yüksək xəstələnmə ABŞ-da və Qərbi Avropadadır. Rusiyada 2005-ci ildə xəstəliyin 49548 yeni halı aşkar edilmişdir (qadınlarda olan bütün şiş növlərinin 19,8%-ı), ölənlərin sayı isə – 22830 təşkil edir [6, 7, 8].

Rastgəlmə tezliyi 10,2% təşkil edən, üçlü neqativ SVX son zamanlar aqressiv kliniki gedişatı və cüzi molekulyar hədəfləri ilə seçilən, ən çox tədqiq olunan növaltılardan biridir.

Tədqiqatçılar aydınlaşdırdı ki, son 5 il müşahidə ərzində Azərbaycan Respublikasının qadın əhalisinin onkoloji xəstələnmə strukturunda SVX stabil birinci yeri tutur (31,4-32,8%). Belə ki, son 10 ilə ilk dəfə aşkarlanan SVX halların sayı 65,0%-a artdı [3, 5]. SVX ilə 12-20% xəstədə mənfi estrogen və progesteron reseptorları və HER2-neu ekspressiya yoxdur, yəni bu xəstələrdə "triple-negative" SVX müəyyən edilir [10].

"Triple-neqative" süd vəzi xərçəngi (TN SVX) bazal epitelidən inkişaf edir və aşağı differensasiyalı şişlərə aiddir, gedişatının aqressivliyi, erkən visseral metastazların çox rastgəlməsi və pis proqnozla xarakterizə olunur. TN SVX əksər hallarda, şəhər sakinlərinə nisbətən, daha çox kənd əhalisində qeyd edilir.

Tədqiqatın məqsədi. Quba-Xaçmaz iqtisadi regionunda "Triple neqativ" süd vəzi xərçənginin epidemioloji xüsusiyyətlərinin tədqiqidir.

Material və metodlar. Tədqiqata Quba-Xaçmaz iqtisadi regionunda süd vəzi xərçəngi olan 103 xəstə daxildir.

"Triple neqativ" SVX ilə xəstələnmədə epidemioloji vəziyyət Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş "Bəd xassəli şişlər haqqında hesabat"ın 7 №-li hesabat formaları əsasında aparılmış hesablamalara əsasən aşağıdakı göstəricilərə görə qiymətləndirilmişdir: ekstensivlik, intensivlik göstəriciləri və standartlaşdırılmış göstəricilər, ümumi ölüm əmsalı və letallıq əmsalı, zədələnmə (aqressivlik) göstəricisi, 5 illik yaşama göstəricisi.

Quba-Xaçmaz iqtisadi regionu Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə etməklə Azərbaycanın şimal-şərq hissəsində yerləşir. Region ərazisinin sahəsi 6,96 min km2 (Respublika ərazisinin 8,0%), əhalinin sayı 498,4 min insan (Respublika əhalisinin ümumi sayının 5,4%) təşkil edir. Əhalinin 32 faizi şəhərlərdə, 68 faizi kəndlərdə yaşayır. İqtisadi rayonda əhalinin orta sıxlığı hər kv km.-də 59 nəfər təşkil edir. Ən çox şəhər əhalisi Siyəzən rayonunda (66%), kənd əhalisi isə Quba rayonunda (80,5%) cəmlənmişdir.

*e-mail: eliyevashovket@icloud.com

Tədqiqatın nəticələri və müzakirəsi. Hər il bu regionda qadınlar arasında bədxassəli şişlər ilə birincili xəstələrin sayı 220 nəfərdən artıq olur.

Aparılmış statistik təhlil müəyyən etdi ki, Quba-Xaçmaz iqtisadi regionunda ən yüksək ekstensivlik göstəricisi Xaçmaz rayonunda – 3,1%, ən aşağı isə Quba rayonunda – 1,1% müşahidə olunmuşdur. Ümumi region üzrə ekstensivlik göstəricisi 1,5% təşkil etmişdir.

Tədqiq olunan regionun ərazi-inzibati rayonlarında TN SVX ilə xəstələnmənin intensivlik göstəricisi hesablanmışdır və ən yüksək intensivlik göstəricisi Siyəzən rayonunda – 2,8⁰/₀₀₀₀, ən aşağı isə Şabran rayonunda – 1,8⁰/₀₀₀₀ qeyd edilmişdir. Ümumi region üzrə intensivlik göstəricisi isə 2,2⁰/₀₀₀₀ təşkil etmişdir.

Zədələnmə göstəricisinin göstəricinin ən yüksək səviyyəsi Quba rayonun-da 12,8⁰/₀₀₀₀, ən aşağı səviyyəsi isə Xaçmaz rayonunda 8,4⁰/₀₀₀₀ qeydə alınmışdır. Ümumi region göstərici isə 15,0⁰/₀₀₀₀ təşkil etmişdir.

5-illik yaşam göstəricisi bədxassəli şişlərinin birincili və ikincili profilaktika tədbirlərinin effektivliyini əks etdirən göstəricilərdən biridir. Aparılmış statistik təhlil göstərdi ki, Quba-Xaçmaz regionunda 5-illik yaşam göstəricisinin ən yüksək səviyyəsi Qusar rayonunda – 3,9%, ən aşağı isə Xaçmaz rayonunda – 2,3% qeyd edilmişdir.

Tədqiq olunan regionda ümumi ölüm əmsalının hesablanması zamanı müəyyən olunmuşdur ki, ən yüksək səviyyə Şabran inzibati rayonunda – 0,6⁰/₀₀₀₀, ən aşağı səviyyə isə Quba rayonunda 0,5⁰/₀₀₀₀ qeydə alınıb. Region üzrə ümumi ölüm əmsalı 1,1⁰/₀₀₀₀, ümumi letallıq göstəricisi isə 16,6% təşkil edib.

Tədqiq olunan regionda TN SVX ilə xəstələnmənin ümumi region üzrə aqressivlik göstəricisi 0,5 təşkil etmişdir.

Standartlaşdırılmış göstəricilərin hesablanması öyrənilən regionda 30 yaşa qədər qadınlar arasında TN SVX ilə xəstələnmə hallarının qeydə alınmamasını göstərib. Digər yaş qruplarında isə xəstələnmənin yüksəlməsi qeydə alınıb. Ən yüksək göstərici 40-49 və 60-69 yaş qrupunda müşahidə olunmuşdur və hər iki yaş qrupu üçün standartlaşdırılmış göstərici 0,7⁰/₀₀₀₀ təşkil edib. Ən aşağı səviyyə 30-39 yaş qrupunda qeyd edilmişdir ki, onun da standartlaşdırılmış göstəricisi 0,3⁰/₀₀₀₀ bərabər olmuşdur (cəd.).

Cədvəl

Quba-Xaçmaz iqtisadi regionunda TN SVX ilə xəstələnmənin standartlaşdırılmış göstəricisi

Yaş	İntensivlik göstəricisi (⁰/₀₀₀₀)	Orta standart	Standartlaşdırılmış göstərici (⁰/₀₀₀₀)
0-17	-		-
18-29	-		-
30-39	2,3	15648,1	0,3
40-49	6,1	11968,3	0,7
50-59	2,8	13242,1	0,4
60-69	9,2	7944,1	0,7
70 <	-	-	-
Σ	2,2		2,1

Təəssüf ki, Azərbaycanda infeksion hepatitlərlə bağlı bu günə qədər həmin müayinələr aparılmayıb və əlimizdə olan məlumatlar ancah xəstələrin müraciyyətlərinin əsasında alınıb, xüsusilə də infeksiya mənşəli hepatitlərdən sonra əmələ gələn sirrozlara bağlı [9]. Müxtəlif regionlarda aparılan epidemioloji müayinələrin əsasında əldə olunan nəticələrin müqayisəli analizinin aparılması həmin regiona xas olan spesifik risk amilləri haqqında dəqiq məlumat verə bilər. Həmin icmalda biz infeksiya mənşəlli həpatitlər haqqında dünya səviyyəsində əldə olunan nəticələri müzakirə etmək, onların başqa patologiyaların inkişafına təsiri haqqında müasir məlumatları təqdim etmək, xroniki virus mənşəlli hepatitlərin proqnozu, həmin hepatitlərin qaraciyər sirrozuna keçmə tezliyini təqdim etməyə çalışdıq. Proqnozun pisləşməsi invalidizasiya və ölüm hallarının tezliyini artırır.

Ümümdünya Səhiyyə Taşkilatının (ÜST) ekspertləri tərəfindən əldə olunan nəticələr sübut edir ki, bu günə qədər dünyada 240 milyon insanda B tipli hepatit (HBV), 130 milyon insanda C virus hepatiti (HCV) aşkar olunub. ÜST-nın ekspertləri tərəfindən əldə olunan başqa nəticələr sübut edir ki, son illərdə bütün dünyada virus hepatitləri səbəbin-

*e-mail: natavanfa@mail.ru

dən ölüm tezliyi getdikcə artır, əsasən də virus hepatitlərinin xroniki formaları hesabına. Həmin patoloji vəziyyətlər il ərzində təxminən 1,45 milyon ölüm hallarının baş verməsini əsaslandırır. Nəzərə alsaq ki, virus mənşəlli hepatitlər və insanın iummunodefisit virusu ağır fəsadların əmələ gəlməsinə ciddi təsir göstərir və insan həyatına real təhlükə yaradırlar, ÜST-nin ekspertləri həmin infeksiyaları dünyada qeyd olunan bütün infeksiyaların arasında ən təhlükəli infeksiyalar onluğuna daxıl ediblər. Təsdiq olunub ki, HBV-nun yayılmasına iqtisadi inkişafın səviyyəsi və sosial status kimi amillər ciddi təsir göstərir. Lakin bir faktı qeyd etmək lazımdır ki, hadisələrin əksəriyətində insanların öz seroloji statusundan xəbəri olmur və buna görə də onlar lazım olan müalicəni qəbul etmirlər və onların arasında xroniki formaların artmasına səbəb olur. Həmin vəziyyət yüksək dərəcədə proqnozu pisləşdirir və invalidizasiyanın və ölüm hallarının tezliyini artırır. Təbii ki, əsas fəsadların əmələ gəlməsinin erkən əlamətləri olanları və sonrakı mərhələdə həmin xəstələr arasında lazım olan medikamentoz müdaxilə aparmaq məqsədi ilə bu cəmiyyətdə həmin insanların araşdırılmasının əhəmiyyəti artır. Lakin əksər hallarda regionların əksəriyyətində skrininq müaynələrdən imtina edirlər və onlardan çəkinirlər. Başqa tərəfdən sübut olunub ki, müayinələrdən imtina edən insanlar arasında yoluxumuş insanların sayı çox olur. Bu da virus mənşəlli hepatitin xroniki formalarının artmasının başqa səbəbi qismində çıxış edir. Burada həkimlərin rolu həlledəci xarakter daşıyır. İnsanların həkimlərə inam hissinin olması çox mühüm əhəmiyyət kəsb edir, həkim insanlara skrininqin aparılması əhəmiyyətini və məqsədini başa salmağı və onları müayinələrə cəlb etməyi bacarmalıdır. Virus hepatitləri ilə mübarizədə səhiyyə sektorunun Qlobal strateqiyasına uyğun olaraq, həkimlərin qarşılarına qoyduqları məqsədləri maksimal aqressiv olmalıdır ki, virus mənşəlli hepatitlər 2030-cu ilə qədər yer kürəsindən tam olaraq ləğv olunsun Həmin strategiyaya uyğun olaraq virus hepatitləri ilə xəstələnmə göstəriciləri 90 %-a qədər azaldmalı və bu xəstəlk nəticəsndə ölüm halları aradam qaldırılmalıdı. İnkişaf edən ölkələrdə HBV və HCV virus infrıneksiyalarının yüksək səviyyədə yayılmasının səbəbləri səhiyyənin işində qeyri-sabitliyinin olması və çoxlu risk amillərinin qeyd olunmasıdır [5-8]. İnsan bədəninə virusların daxil olması və sonra da xəstəliyin inkişaf etməsi risk amillərinə aşağıdakılar aiddir:

- narkotiklərin inyeksiya şəkilində istifadə olunması;
- qan donorluğu;
- yoxlamadan keçməmiş qanın köçürülməsi;
- cərrahiyyə tədbirləri;
- müxtəlif alətlərlə yetirilən travmalar;
- tatu, bərbərxanalar.

Qeyd eləmək lazımdır ki, HBV hepatitlərdə müşahidə olunan dinamik dəyişiklər tamamilə insan orqanizmin immun cavadından asılıdır. HBV tərəfindən qeyd olunan ən vacib təsirlərdən biri kanserogen təsir hesab olunur [3]. Həmin təsir çox güclüdür və heç bir şeydən asılı olmayan amil kimi özün biruzə verir. Qaraciyər sirrozu və ya xərçənginin yaranmasına səbəb olur. Həmin vəziyyət HBV və ya HCV olan xəstələrin müxtəlif qeyri-invaziv müayinə üsulları ilə – rentgen, USM, EKQ, ExoKQ, KT, MRT və s. ilə dinamik müşahidələrinin aparılmasını tələb edir. Xroniki infeksion hepatitləri olan xəstələrdə qeyd olunan müayinələrdən başqa laborator göstəricilərə dinaik müşahidə aparmaq məsləhətdir. Müayinə ildə bir dəfədən az olmamalıdır. Kəskin virus hepatitləri müxtəlif tezliklə xroniki formalara keçir: A tipli hepatit – 0%, B tipli hepatit – 5-10%, C tipli hepatit – 80%, D tipli hepatit – 45%. Virus hepatitlərinin əhəmiyyətini sübut edən göstəricilərdən biri odur ki, bütün ölüm səbəbləri arasında HBV mənşəlli hepatit 9-cu yerdədir. Həmin xəstəliyn elmi əsaslandırılmış profilaktik tədbirlərini təşkil etmək üçün insanların yoluxumasının mexanizimlərini dəqiq bilmək lazımdır [10-12].

Həmin mexanizimlərə aşağıdakılar aiddir: parentral qan məhsullarının köçürülməsi, inyeksiya narkomaniyası, perinatal, cinsi, məişət – təmas. HBV-i ilə yoluxumanın əsas yollarına aşağıdakılar aiddir: heteroseksual – 41%, homoseksual - 14%, v/d inyeksiyalar – 12%, məişət-təmas – 4%, digər – 1%, profesional amillər – 2%. Yoluxumanın inyeksiya yolu ilə baş verməsi müxtəlif viruslarda müxtəlif olur: HBV – 30%, HCV – 3%, HDV – 0,3%. İnyeksiya yolu ilə yoluxma prosesi üçün inyeksiya alətin və materialın üstündə olan virusların miqdarı əsas rol oynayır. Anada insan immun defisiti virusu (İİDV) və onun zərdabında HbAq olduğu halda yenidoğulmuşun yoluxma riski ən yüksək səviyyə-

yə qalxır [1].

İnsan həyatı üçün təhlükə yaradan – virus mənşəli qaraciyər sirrozunun əmələ gəlməsidir. HBV mənşəli qaraciyər sirrozunda kompensasiya mərhələsində 5 illik yaşamaq müddəti 71-84% təşkil edir, dekompensasiya mərhələsində isə bu rəqəm 15-34% arasında olur. Hepatosellülyar karsinomada 5 illik yaşamaq müddəti 6% təşkil edir. HBV-i hepatit təsdiqləndikdən sonra inkişaf edən sirrozlarda 5 il ərzində dekompensasiyanın əmələ gəlmə tezliyi 25% təşkil edir.

Geniş aparılan tədqiqatların nəticələri sübut edir ki, HBV-nin 6 genotipi mövcuddur. Müxtəlif regionlarda həmin genotiplərin rast gəlmə tezliyi çox fərqlənir. Məsələn, Avropa ölkələrində həmin virusun 2-ci və 3-cü genotipləri daha tez rast gəlinir. İnfeksiyanın yüklənmə müddəti və həcmi müxtəlif faktorlardan asılıdır, məsələn, virusun yüksək sürətlə dəyişilməsi, virus əleyhinə maddələr tərəfdən neytrallaşma qabiliyyətinin itməsi, kiçik sahədə virus yüklənməsinin olması, limfostlərin yoluxumuş formalarının təsiri ilə immun cavabının pozulması.

Müxtəlif amillər arasında genetik amillərin rolunu da qeyd etmək lazımdır. Həmin amillərin arasında HLA sisemi xüsusi yer tutur, çünki o, ən güclü və ən vacib hesab olunur. HLA hepatit viruslarının üzərinə yapışaraq proteksion qabiliyyəti qeyri-effektiv formaya çevirir.

HCV-nin daşıyıcılarının sayı dünya səviyyəsində 170-200 milyona yaxınlaşır. HCV hepatitin yayılmasının ən yüksək səviyyəsi Asiya ölkələrində qeyd olunur, bundan sonra tezliyinə görə Afrika və Cənubi Amerika ölkələri gəlir [13-16].

HCV hepatitlərinin gedişatında üç forma ayırd edilir: kəskin, yarım kəskin və xroniki. HCV hepatitlərdə 10-20 il müddətində qaraciyərin sirrozu inkişaf edir və onların gedişatı eyni olmur, 20% hallarda sirroz qənaətbəxş keçir, 6% hallarda dekompensasiya inkişaf edir, 4% hallarda müxtəlif fəsadlar yaranır. HCV hepatiti olan xəstələrdə xronizasiyaya geniş şərait yaradan müxtəlif risk amillərinin təsiri nəticəsində baş verir: virusun xüsusiyyətləri ilə əlaqədar olan genetik tiplər və kvazi növlər. Bunlardan başqa xronizasiyanı sürətləndirən amillərə aşağıdakılar aiddir: yaş, cins, piylənmə və zərərli vərdişlər - alkoqol qəbulu, narkomaniya və s., ko-infeksiya [2].

HCV-i hepatitini təyin etmək üçün qanda həmin virusun RNT-ni təyin etmək lazımdır, o, yoluxumadan sonra 1-3 həftə ərzində təyin olunur. Serokonversiyaya qədər dövr 8-9, induksiya dövrünün müddəti isə 6-7 həftə təşkil edir. 20% hallarda açıq aşkar formanın əmələ gəlməsi qeyd olunur, qeyri-spesifik simptomlar ilə birgə sarılıq 20-30% hallarda müşahidə olunur. Müxtəlif regionlarda əldə olunan tədqiqatların nəticələri fərqli olan vəziyyətləri sübut edir. Məsələn, Avropa ölkələrində HCV-i hepatitin xronizasiyası 70% hallarda müşahidə olunur, qaraciyərin terminal mərhələsinin inkişafı 40% hallarda, hepatoselüllyar karsinomanın inkişafı – 60% hallarda, 30% hallrda həmin hepatit transplantasiyanın aparılmasını tələb edir.

HCV-i hepatit müəyyən müddət ərzində gizli keçir, sonra isə manifestasiya baş verir. Bəzi hallarda qaraciyərdən kənar orqanların zədələnməsi kliniki mənzərədə üstünlük təşkil edir. HCV-i hepatitlərin sosial əhəmiyyəti də böyukdür, çünki analardan körpələrə keçdikdə hepatitin xroniki forması 50-90% hallarda inkişaf edir və uşağın ömrünün müddətini azalır (40 ildən az), narkomanlarda və aşağı sosial məsuliyyətli qadınlarda ömür müddətini daha çox azaldır (15-25 il). Qeyd etdiyimiz kimi, HCV qaraciyərdən kənar orqanların zədələnməsini də əmələ gətirir, həmin patologiyalardan ən çox müşahidə olanlara aşağıdakılar aiddir: krioqlobulinemiyanın inkişafı 23-44% hallarda, başqa pozulmalardan artralgiya və mialgiya, kseroftalmiya, uveit, konyuktivit, qlomerulonefrit, limfoma (qeyri Xockin), dermatoloji simptomlar qeyd olunur. Əlavə təsirlərdən başqa dəyişiklər özünü biruzə verə bilər – gecikmiş dəri porfiriyası, dəri nekrozlaşan vaskulit, qırmızı yastı dəmrov təsirləri göstərir.

Virus həmçinin bir sıra metabolik pozuntular da yaradır. Aparılan tədqiqatların nəticələri sübut edir ki, HCV-nin tərkibində "steatozogen" zülallar aşkar olunur, onlar qaraciyər daxili lipidlərin mübadiləsinə qoşulurlar. Bundan başqa, sübut olunub ki, HCV-core proteinin ekspressiyası nəticəsində triqliseridlərin (TQ) və aşağı sıxılıqlı lipoproteidlərin xolesterinin ekskresiyasında iştirak edən mikrosomal zülalların aktivliyi zəbt olunur və onun induksiya nəticəsində insulinə rezistentlik yaranır. Ona görə də viris mənşəli hepatitlərdə lipid

mübadiləsinin pozulması müşahidə olunur. Bunun başqa bir səbəbi ondan ibarətdir ki, hiperlipidemiyanın əmələ gəlməsində iştirak edən, qaraciyərdən çıxarılmasından iştirak edən apolipoproteidlərin sintezi azalır. Bunun nəticəsində orqanizmin başqa orqanlarında da patoloji dəyişiklər inkişaf edir. Qaraciyərdə əmələ gələn dəyişiklər lipid mübadiləsinin pozulması kimi aterosklerotik kardiosklerozun, pnevmosklerozun və başqa orqanlarda birləşdirici toxumanın inkişafına təkan verir. Həmin orqanlar öz xüsusi funksiyalarını itirir və bunun nəticəsində poliorqan çatmamazlığı inkişaf edir.

Xroniki virus mənşəli hepatiti olan xəstələrdə lipid mübadiləsinin pozulmasından başqa karbohidrat mübadiləsinin pozulması da əmələ gələ bilər. Həmin patoloji vəziyyətin əmələ gəlməsinin əsasında qaraciyərin daxilində sərbəst yağ turşularının toplanması durur. Bu, qlükozanın membranalardan keçməyini məhdudlaşdırır və qlükozanın istifadəsi azalır. Həmin pozulma metabolik steatoz adlanır və o, insulinə rezistentliyinin əmələ gəlməsində mühüm patogenetik rol oynayır. Hiperinsulinemiyanın və insulinə rezistentliyinin əmələ gəlməsi nəticəsində qaraciyər hüceyrələrində triqliseridlərin və başqa aterogen lipoproteidlərinin miqdarı artır, fibroz toxumasının inkişafı güclənir, bu da aparılan malicəyə qarşı müqaviməti gücləndirir (əsasən interfeonla müalicəyə qarşı). HCV hepatiti olan xəstələrdə pisləşmənin inkişafı çox sıx müşahidə olunmur, 20-30% hallarda qaraciyər sirrozu, qaraciyər çatışmamazlığı, portal hipertenziya və hepatosellülyar karsinoma inkişaf edə bilər. Bu, proqnozu qiymətləndirmək üçün çox vacib bir nəticədir [17-20].

Virus mənşəli hepatitlərdə ən çox rast gəlinən fəsadlardan biri – qaraciyər steatozudur. Onun proqressivləşməsində viruslarla yuklənmə əsas rol oynayır. Həmin risk amilinin əhəmiyyətinin öyrənilməsi zaman digər risk amilləri ilə müqaisəli analizi aparılıb. Analiz bədən kütləsi və abdominal piylənmə arasında aparılıb. Məlum olub ki, normal bədən kütləsi və normal bel çevrəsi olan insanlarda virusla yüksək yüklənmə zamanı Fredrikson üzrə dislipidemiyaların ən çox IV tipi rast gəlinir. Bu viruslarla yüklənmənin müstəqil rolunu təsdiqləyir. Artıq bədən çəkisi və abdominal piylənməsi olmayan insanlarda yüksək virus yüklənməsi TQ-nin və ASLP XS-nin artması və insulinə rezistentliyinin və tip II şəkərli diabetin rast gəlmə tezliyini artırır. Bu fakt bir daha viruslarla yüklənmənin müstəqil rolunu təsdiqləyir. Qeyd etmək lazımdır ki, həmin risk amilləri metabolik sindromun meyarlarına aiddır və bu, virus hepatiti olan xəstələrdə metabolik sindromun rast gəlmə tezliyini artıra bilər.

Metabolik sindrom, qeyd etdiyimiz kimi, "ölümcül kvartetin" əmələ gəlməsində əsas rol oynayır, bura tip II şəkərli diabet, ürəyin işemik xəstəliyi, arterial hipertoniya və dislipidemiya aiddir. Bu, həmçinin virus mənşəli hepatitlərin poliorqan zədələnməsinin inkişafında vacib rolunu təsdiqləyir [7, 11, 13, 21].

Son illərdə əldə olunan nəticələr sübut edir ki, HBV və HCV-nin qaraciyərdən kənarda replikasiyası müxtəlif orqanlarda əmələ gələn zədələnmələrin patogenetik mexanizmi kimi əsas rollardan biri hesab olunur. Viruslar ilə replikasiyaya məruz qalan - limfatik düyün hüceyrələri, dalaq, sümük iliyi hüceyrələri, damarların endotelial qatının hüceyrələri, selikli qişasının hüceyrələri, həm də başqa orqanların hüceyrələridir (böyrəklər, börəküstü vəzi, bağırsaqlar, dəri, sinir). Çox güman ki, hepatotrop virusların başqa təsir nöqtələri da var, lakin onları bu günə kimi aydınlaşdırmaq mümkün olmayıb [14, 17, 21].

Qeyd etdiyimiz kimi, virus mənşəli hepatitlərin problemi hər bir ölkə üçün çox mühüm problemlərdən biridir, çünki həmin infeksiyalar təkcə qaraciyəri deyil, həm də başqa orqan və sistemləri ciddi şəkildə zədələyir. Bu isə proqnozu yüksək dərəcədə pislədirir və invalidizasiyanın və ölüm hallarının tezliyini artırır. Bu, onu tibbi problemdən sosial poblemə çevirir.

Virus mənşəli hepatitlər kəskin mərhələdən çox tez xroniki mərhələyə keçirlər, bu da, öz növbəsində, həyat keyfiyyətini pisləşdirir, ağır fəsadlar əmələ gətirir və invalidizasiya və ölüm hallarının tezliyini artırır. Buna görə bu xəstəliyin erkən diaqnostikasının, qaraciyərdə patoloji prosesin inkişafının vaxtında medikamentoz korreksiyanın aparılmasının əhəmiyyəti uzun müddətli kompensasiya yaratmaq üçün çox vacib hesab olunur [5, 6].

Qaraciyər patolgiyalarının aşkar olunmasında biopsiya müayinəsinin aparılması bütün dünyada "qızıl standart" hesab olunur. Onun əhəmiyyəti bundan ibarətdir ki, o, ağırlıq dərəcəsini və onun mərhələsini düzgün qiymətləndirməyə imkan verir.

Lakin biopsiya bir o qədər də təhlükəsiz manipulyasiya deyil. Biopsiya ilə fəsadların əmələ gəlmə riski proqnozun pisləşməsini, patoloji dəyişiklərin dərəcəsini, aparılan müalicənin effektini düzgün qiymətləndirməyə imkan verir. Buna görə biopsiyanın əhəmiyyəti tədricən azalacaq. Beynalxalq tövsiyyələrin əsasında qaraciyər patologiyaları olan xəstələrdə qaraciyər fermentlərinin yoxlanılması və USM aparılması mütləq olmalıdır (EASL – European Assosiation for the Staudy of the Liver, EASD – Europeanfor Study of Diabet, EASO – European Assosiation Study of Obesity). Aparıcı Avropa ölkələrinin tövsiyələrinə əsasən, aşağıdakı müayinələri aparmaq məsləhət görülür: ultrasonoqrafik müayinə, aminotrasferazalarının aktivlik dərəcəsinin öyrənilməsi, lipid və karbohidrat mübadiləsi göstəricilərinin müayinəsi, insulinə rezistentliyinin qiymətləndirilməsi və inkar etmə testlərinin aparılması.

Qaraciyər steatozunun təyini ultrasəs müayinəsi əsasında aparılır. Birincili ultrasəs müayinəsinin aparılması qaraciyərin zədələnməsinin səbəbini araşdırmaq, proqnozu pis olan xəstələri ayırmaq, proqressivləşməni qiymətləndirmək, müalicənin effektini müəyyən etməkdir. Fibrotik dəyişiklər, qaraciyər toxumasında patoloji prosesin yayılmasını və onun aktivlik dərəcəsinini qiymətləndirməyə imkan verir. Qaraciyərdə fibroz toxumasının əmələ gəlmə səbəbləri çoxdur.

Müasir dövrdə qaraciyər toxumasının xroniki fibrotik proseslərinin qiymətləndirilməsində və patoloji prosesnin mərhələsinin təyin olunmasında qaraciyər toxumasının ellastoqrafik müayinəsindən geniş istifadə olunur. Köndələn dalğa ilə iki təsirin nəticəsində müxtəlif dərinlikdə toxumanın yerdəyişməsi baş verir. Köndələn dalğa ilə aparılan elastoqrafiyanın əsasında həmin dalğanın yayılma sürəti dayanır, bu, qaraciyər toxumasını kəmiyyətcə qiymətləndirməyə imkan verir. Köndələn dalğalar adi ultrasəs dalğalardan fərqli olaraq toxumalarda daha yavaş yayılır. Köndələn dalğanın sürətinin artması zaman toxumanın pəncərəsində rənqli kart formallaşır (rənqin dəyişməsi ilə F0-dan göy rəngdən F4-ə qədər qırmızı rəngədək). Bu kart adi boz rəngli şkalanın informasiyanın üstünə yerləşdirilir (B-rejimi toxumanın sərtliyinin kəmiyyətcə qiymətləndirilməsi üçün). 2DSWE-metriyanı təhlükəsizliyi və qeyri-invazivliyinə görə dəfələrlə aparmaq olar. Həmin müayinə qaraciyərdə əmələ gələn ən cüzi dəyişikləri təyin etməyə imkan verir [18, 19].

Qaraciyər sirrozu inkişaf etdikdə, onunla assosiasiya olunmuş immunodefisitlərin əmələ gəlməsi təyin olunur və həmin hallarda anadangəlmə və qazanılmış immunitetlərdə requlasiyanın pozulması müşahidə olunur. Burada iki xüsusiyyət var: bədənə infeksiyanın daxil olması ilə əlaqədər immunitetin zəyiflənməsi və sistem iltihab prosesinin inkişafı. Sindromun mövcudluğunu təyin etmək üçün sirrozun pisləşməsi və poliorqan zədələnməsi kimi xüsusi meyarlar mövcuddur. Həmin sindromun təyin olması üçün klinik-laborator proqnostik modellər var – Child-Pouqh və MELD. Lakin onun bir mənfi cəhəti var ki, o, bakterial infeksiya ilə yanaşı gedən immun pozulmalarını əks etdirmir. Buna görə də həmin tələbatları həyata keçirmək üçün dürüst imkanlar yoxdur. Bu səbəbdən bu müayinələrə böyük ehtiyac var. Həmin modellərdən biri kimi, neytrofillərin limfositlərə nisbəti əlçatan hesab oluna bilər, onu hər gün istifadə etmək mümkündür. Bu rəqəmin təyin olunması immunitetin müxtəlif hissələri arasında olan disbalansı dəqiq göstərir. Həmin göstəricinin əhəmiyyətini təsdiqləmək üçün əvvəlcədən həmin rəqəmi və ölüm halları arasında əlaqəni təyin etmək lazımdır (ürək və böyrək çatmamazlığı, onkoloji xəstəliklər, qaraciyər metastazları). Proqnozun bütün müddətlərində NLN əhəmiyyəti sübut olunub. Təəssüf ki, bu günə kimi NLN-nin letal nəticələrinə təsir müstəqil risk amili kimi öyrənilməyib. Buna görə də həmin nisbətin sadə bir laborator üsul olmasına baxmayaraq əhəmiyyətli informasiya daşımasını nəzərə aldıqda müvafiq elmi - tədqiqat işlərində tədqiqinin aparılması zəruri hesab olunur [22].

Yekun olaraq qeyd etmək lazımdır ki, HBV və HCV mənşəli hepatitlər ilə əlaqədər olan problemlər həm inkişafda olan, həm də inkişaf etmiş ölkələrin səhiyyə qurumları üçün ən böyük poblemlərdən biri hesab olunur. Bunun səbəbləri müxtəlifdir - geniş yayılması, xronizasiyasının tezliyinin inkişafı, onlar ilə bağlı olan invalidizasiya, ölüm hallarının tezliyinin artması. Müxtəlif müayinələrdə əldə olunan nəticələr sübut edir ki, infeksion hepatitləri təkcə qaraciyərin zədələnməsi üçün deyil, həm də həyat üçün vacib olan orqanalarda patoji dəyşiklərin inkişaf etməsinə səbəb olur və bu proqnozu yüksək dərəcəsdə pisləşdirir. Həmin

vəziyyəti kökündən dəyişmək üçün effektiv birincili və ikincili profilaktik tədbirlərin işlənib hazırlanması tələb olunur. Bunun üçün bütün imkanlar mövcuddur. Başqa bir problemlərdən biri qaraciyər sirrozun əmələ gəlməsinin başlanğıc mərhələsində təyin etmək və immun - iltihab prosesə nəzərət etmək üçün ən asan aparılan və dəfələrlə təkrar oluna bilən müayinə üsularını seçməkdir. Bu tələbatlara qaraciyərin ellastoqrafiya müayinəsi və NLN laborator göstəricisi cavab verir.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Семендяева М.Е. Неалкогольная жировая болезнь печени, медицинская и социальная проблема // Клиническая практика, 2012; 2: с.71 – 80.
2. Cobboid J.F., Cox I.J., Brown A.S. et al. Lipid profilinq of pre – treatment liver biopsy tissue predicts sustained virological response in patients with hepatitis C, Hepatol.Res.,2012;42(7):p.714-720.
3. El – Seraq H.B., Tran T., Everhart E. et al. Diabetes increases the risk chronic liver disease and hepatocellular carcinoma // Qastroenterologi, 2004; Vol.126: p. 460 – 468.
4. Tarqher G., Bertolini L., Rodella S. et al. Nonalcoholic fatty liver disease is independently associated with an increased incidence of cardiovascular events in type 2 diabetic patient // Diabetes Care, 2007;30: p.2119 - 2121.
5. Аарон Д.Л., Куреши Х., Махмуд Х., Хамид С. и др. Обуздание эпидемии вируса гепатита С в Пакистане: влияние расширения масштабов лечения и профилактики на достижение элиминации // Международный журнал эпидемиологии, 2018: с.550 – 560.
6. Аллард Н.Л., Маклахлан Д.Х., Коул Б.К. Каскад помощи австралийцам с хроническим гепатитом С; изменение доступа к диагностике и лечению // Журнал общественного здравоохранения Австралии и Новой Зеландии, 2015; т.39, № 3: с.255 – 259.
7. Kaabiya N., Ben Jaziya E., Elim I. et. al. Association of hepatitis C virus infection and diabetes in central Tunisia//World Journal Qastroenterol, 2009; vol.16; p.2778 – 2781.
8. Амджат Хан, Сайра Афзал, Аашафа Якуб и др. Эпидемиология вирусных гепатитов В и С в Пенджабе. Пакистан: многоцентровое кросс – секционное исследование, 2017 – 2018 г //F1000 Исследование, 2019; т. 2065, №8: С.1 - 15.
9. Aqayev Q., Qidayatov A. // Russian Journal of Gastroenterology, Hepatology, Colo – proctology, 2012, sup.39.
10. Буторова Л.И. Неалкогольная жировая болезнь печени, как проявление метаболического синдрома: эпидемиология, патогенез, особенности клинического проявления, принципы диагностики, современные возможности лечения: Пособие для врачей М.: Форте принт; 2012: с.52 - 56.
11. Mehta S.H., Bramcati F.L., Strathdec S.A. et al. Hepatitis C virus infection and incident type 2 diabetes//Hepatologi, 2003;v.38:p.50 – 56.
12. Machado M.V., Cortez – Pinto H. Non-alcoholic futti liver disease: what the clinical needs to know//World Journal Qastroenterology, 2014; 20(36):p.12956 – 12980.
13. Amedeo L., Luigi E.A., Salvatore P. et al. Hepatitis C and diabetes: the inevitable coincidence? Expert Review of Antiinfektive // Therapy, 2009: v.7, №3: p.293 – 308
14. Кошикова И.Н., Хамнуева Л.Ю. Заболевания печени у больных сахарным диабетом// Сибирский медицинский журнал (Иркутск), 2010; № 4: с.8 – 11.
15. Хамдуева Л.Ю., Малов И.В., Андреева Л.С. и др. Роль гепатотропных вирусов в патогенезе сахарного диабета //Сибирский медицинский журнал (Иркутск), 2002; № 6: с.10.
16. Хамдуева Л.Ю., Бондарь И.А., Малов И.В. Сахарный диабет и HBV – HCV инфекции//Сибирский медицинский журнал (Иркутск), 2006:56 С.
17. Гейвандова Н.И., Ягода А.В., Гурницкая М.В., Первушин Ю.В. Вирус – ассоциированные нарушения липидного обмена при хроническом гепатите С. // Клиническая гепатология, 2007; т.3, № 4: С.25 – 2
18. Ситников И.Г., Розина В.Л. Метаболические нарушения и изменения состава тела, как факторы риска прогрессирования хронического вирусного гепатита //Вестник Ивановской медицинской академии, 2019; т.24, №2:с.57-60.
19. Стаценко М.Е., Туркина С.В., Косивцова М.А., Жилина Н.Н. Неинвазивная диагностика неалкогольной жировой болезни печени: простые «инструменты» уже в руках практических врачей //В помощь практическому врачу., 2019;т.70, №2:С.134 -139.
20. Lemben A., Hernandez C., Qenesca J. et al. Qlucose abnormalities in patients with hepatitis C virus infection: Epidemiology and pathogenesis // Diabetes Care 2006; м. 29: P.1140 – 1146.
21. Mason A.L., Lau J.Y., Hoanq N. et al. Association of diabetes mellitus and chronic hepatitis C virus infection // Hepatology, 1999; v.29:P.328 – 333.
22. Луньков В.Д., Маевская М.В., Цветаева У.К. и др. Отношение нейтрофилов к лимфоцитам, как предиктор неблагоприятного исхода у пациентов с декомпенсированным циррозом печени // Журнал гастроентерологии, гепатологии, колонопроктологии 2019; 29, № 1: с.47 – 60.

РЕЗЮМЕ

ВИРУСНЫЕ ГЕПАТИТЫ – КАК ОДНА ИЗ ВАЖНЫХ ПРОБЛЕМ СОВРЕМЕННОЙ МЕДИЦИНЫ

[1]Махмудова К.Дж., [2]Фараджева Н.А., [3]Эйвазов Т.Г.
[1]"Medikal klinik" Медицинский Центр, Баку, Азербайджан;
Азербайджанский Государственный Институт Усовершенствования Врачей имени А.Алиева, кафедра терапии[2] и кафедра инфекционных болезней[3], Баку, Азербайджан

Статья посвящена распространенности вирусных гепатитов, их социальному и медицинскому значению и разработке мероприятий первичной и вторичной профилактики. Представлены современные данные по ультразвуковой диагностике начальной стадии хронизации вирусных гепатитов и иммуно-воспалительных нарушений.
Ключевые слова: вирусные гепатиты, ультразвуковая и лабораторная диагностика, хронизация.

SUMMARY

VIRUS HEPATITIS-ONE OF THE MAIN PROBLEMS OF THE MODERN MEDICINE

[1]Mahmudova K.J., [2]Farajova N.A., [3]Eyvazov T.H.
[1]Medical Clinic, Baku, Azerbaijan;
Azerbaijan State Advanced Training Institute for Doctors named after A.Aliyev, department of therapies[2] and department infections diseases[3], Baku, Azerbaijan

This article is devoted to the spreading of the virus hepatitis, their social and medical essence and development of the measures of the initial and secondary prevention. Modern information on ultrasound diagnostics of the initial stage of the chronisation of virus hepatitis and immune inflammation dysfunctions is presented.
Keywords: virus hepatitis, ultrasound and laboratory diagnostics, chronization.

Redaksiyaya daxil olub: 21.01.2022
Çapa tövsiyə olunub: 18.02.2022
Rəyçi: Professor İ.İ.Mustafayev

Tibb və Elm Jurnalı, №1 (27) 2022, 80-88

İDİOPATİK İLTİHABİ MİOPATİYALAR – MÜASİR REVMATOLOGİYANIN PROBLEMİDİR

[1]Qasımova F.N.*, [1]Ağayev A.R., [1]Məmmədova R.N., [1]Axundova Ü.Y., [1]Mehdiyeva A.R., [2]Babayeva L.K.
[1]Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, terapiya kafedrası, Bakı, Azərbaycan;
[2]Abşeron Rayon Mərkəzi Xəstaxanası, poliklinika şöbəsi, Bakı, Azərbaycan

Polimiozit (PM) və dermatomiozit (DM) – birləşdirici toxumanın sistem xəstəliklərinə aid olan və idiopatik iltihabi miopatiyalar (İİM) adı altında birləşdirilən, skelet əzələlərinin naməlum etiologiyalı autoimmun xəstəlikləridir. Bu məqalədə İİM-in nozoloji formaları, onların klinik-immunoloji xüsusiyyətləri, diaqnostik meyarları, diferensial diaqnostika və rasional müalicə strategiyasının müəyyənləşirilməsi haqqında müasir məlumatlar geniş şəkildə təqdim olunmuşdur.
Açar sözlər: dermatomiozit, polimiozit, diaqnostik meyarlar, immunoloji göstəricilər.

İdiopatik iltihabi miopatiyalar (İİM) – eninəzolaqlı əzələlərin və dərinin iltihabi zədələnmələri, eləcə də spesifik orqan patologiyası ilə xarakterizə olunan, etiologiyası naməlum olan nadir autoimmun heterogen xəstəliklər qrupudur [1].

İİM özündə 4 əsas yarımtipi birləşdirir: dermatomiozit (DM), polimiozit (PM), nekrotik autoimmun miozit və əlavəli miozit.

İltihabi miopatiyaların ümumi klinik əlamətlərinə proksimal qrup əzələlərin zəifliyi və qızdırma, artralgiya, Reyno sindromu və daxili orqanların xüsusən də, ürək və ağciyərlərin zədələnməsi kimi sistem təzahürlər aiddir. Digər iltihabi miopatiyalardan fərqli olaraq dermatomiozit üçün dərinin zədələnməsi xarakterikdir [1, 2].

Dermatomioziti 1883-cü ildə alman həkimi E. Wagner, milli ədəbiyyatda isə – 1900-cü ildə V.K.Vısokoviç və F.Q.Yanovskiy təsvir etmişdir. 1965-ci ildə E.M.Tareevin monoqrafiyasında 30 dermatomiozitli pasiyent ümumiləşdirilmiş, 1968-ci ildə Solovyova bu xəstəliyə dair özünün müşahidə etdiyi 40 halı cəmləşdirmişdir [3].

Müasir məlumatlara görə DM-nin yayılması ümumi populyasiyada qadınların say üstünlüyü ilə [3:1] 100 min nəfərə 1,4-5,9 hal təşkil edir və xəstəliyin piki 5-15 və 45-55 yaşlarda görülür [4]. Bu nəticələrə əsasən DM-nin yuvenil formasını ayırd edirlər. DM istənilən yaşda, PM isə əsasən həyatın ikinci dekadasından sonra rast gəlinir [5].

Birincili dermatomiozitin etiologiyası məlum deyil. Ehtimal olunur ki, xəstəliyin inkişafının əsasında komplement sisteminin antigenlərin təsiri ilə aktivləşməsi (məsələn, infeksion agentlərin və ya bəzi dərman preparatlarının) və ardınca endotelial hüceyrələrdə adheziya molekullarının sintezini artıran və permizium və endomiziuma aktivləşmiş limfositlərin miqrasiyasını induksiya edən (B hüceyrələr, CD4+, T-limfositlər, plazmositlər) iltihabi sitokinlərin ayrılması dayanır [6].

Xəstəliyin inkişafına səbəb olan və ya trigger faktorlarına aiddir: ocaqlı infeksiyanın kəskinləşməsi, fiziki və psixi travmalar, donvurma, istilikvurma, hiperinsolyasiya, vaksinasiya, dərman allergiyası [6-9].

DM ilə bədxassəli şişlərin əlaqəsi də diqqəti cəlb edir. Müasir tədqiqatlara görə, hər üç xəstədən birində DM bədxassəli şişlərlə assosiasiya olunur, buna görə də bütün xəstələrə hərtərəfli onkoloji yoxlanma aparılmalıdır [10]. Paraneoplastik DM-nin tez-tez rastlanan səbəblərinə süd vəzin, ağ ciyərlərin, mədəaltı vəzin və yoğun bağırsağın şişləri aiddir [11, 12].

Polimiozit – ətrafların proksimal hissələrinin, boynun, udlaq əzələlərinin, səs telləri əzələlərinin (disfaqiya, disfoniya) adətən, yarımkəskin başlanğıcı olan simmetrik əzələ zəifliyi ilə xarakterizə olunur [13].

Dermatomiozit – dəri dəyişiklikləri: paraorbital heliotrop səpgi, açıcı səthlərdə Hottron eriteması/papulası, bəzən yumşaq toxumaların kalsifikasiyası ilə müşayiət olunan, əsasən analoji əzələ zədələnməsi ilə xarakterizə olunur [14].

Yuvenil DM – 18 yaşa qədər yaranan DM-dir. Yetkin formadan fərqli olaraq daha kəskin gedişlə, konstitusional əlamətlər və aydın nəzərə çarpan dəri dəyişiklikləri (xoralı-nekrotik vaskulit və d.) ilə xarakterizə olunur [13, 14].

Klinik mənzərə. Xəstəliyin başlanğıcı adətən tədricən gedir. Xəstələr əlin və ayağın proksimal əzələlərində durmadan proqressivləşən zəiflikdən şikayətlənirlər. Bəzi xəstələrdə əzələ zəifliyi 5-10 il ərzində artır. Az xarakterik olan kəskin başlanğıclı mərhələdə, 2-4 həftə ərzində əzələlərdə qəfil ağrılar və zəiflik, bədən temperaturunun yüksəlməsi mey-

*e-mail: fidan_kasumova@hotmail.com

dana çıxır və xəstənin vəziyyəti sürətlə ağırlaşır. Bəzən xəstəlikdən xəbər verən ilk simptomlar dəri səpgiləri, poliartralgiyalar olur.

DM üçün müxtəlif formalı klinik mənzərə xarakterikdir, hansı ki, hər birinin spesifik əlamətləri olan bir sıra simptom komplekslərinin birləşməsindən ibarətdir: əzələlərin, dərinin, sinir sisteminin zədələnmə sindromu, daxili orqanların zədələnmə simptomu [4, 15].

Dərinin və eninəzolaqlı əzələlərin zədələnməsi. Digər iltihabi miopatiyalar kimi DM üçün də əsas və spesifik olan çiyin və çanaq qurşağının və boynun bükücülərinin, əlin və ayaqların proksimal şöbələrinin və əlin distal hissələrinin əzələlərinin artan zəifliyi, yorğunluq, hərəkət funksiyasının pozulması, əzələlərdə ağrılar, əzələlərin atrofiyası və retraksiyası ilə xarakterizə olunan əzələ sindromudur. Pasiyentlərdə saçlarını daramaq, üzünü qırxmaq, stuldan durmaq, pilləkənlə qalxmaq çətinləşir [16]. Eyni zamanda onlar paltardakı düymələri bağlamağı və ya əldə qələm tutmağı bacarırlar, çünki bu funksiyaları yerinə yetirməkçün distal qrup əzələlər istifadə olunur. Çox ağır hallarda xəstələr başını yastıqdan qaldıra və saxlaya, kənar şəxsin köməyi olmadan yeriyə, əllərində yüngül əşyaları belə tuta bilmirlər. Əzələlərdə proqressivləşən zəiflik tam immobilizasiyaya gətirib çıxarda bilər [16]. 25% halda əzələ zəifliyi mialgiyalarla birgə rast gəlinir [17]. Çanaq qurşağı əzələlərinin zəifliyi yerişin dəyişilməsinə gətirib çıxardır, o, «miopatik» xarakter qazanır. Generalizə olunmuş hərəkət pozğunluqları formalaşa bilər [15].

PM/DM-nin gecikmiş mərhələlərində xoralaşma və infeksiya ilə ağırlaşa bilən dərialtı kalsifikatlar yarana bilir.Kalsifikatlar dərialtı və ya dəridaxili və fassiyadaxili, əsasən də çiyin və çanaq qurşağında, eləcə də dirsək və diz oynaqlarının proyeksiyalarında, barmaqların bükücü səthlərində və sağrıdakı zədələnmiş əzələlərin yaxınlığında yerləşirlər. Kalsifikatlar yuvenil DM zamanı tez-tez formalaşır [3].

DM üçün eritema və ya dərinin ödemi və indurasiyası olan dermatit tipində kəskin iltihabi dəyişikliklər xarakterikdir:

- üst göz qapağı (eynəkşəkilli periorbital ödem və eritema), almacıq sümükləri, burun qanadları, burun-dodaq büküşləri nahiyyəsində eritematoz-ləkəli səpgi;
- V-vari səpgi: döş nahiyyəsinin yuxarı hissələri «dekolte zonasında», çiyin və kürəyin «şal zonasında», dirsək, diz, daraq-falanqa və proksimal falanqalararası oynaqlar nahiyyəsində birləşən eritematoz və papulyoz səpgi; eroziya və xoraların yaranması mümkündür ki, onlardan sonra qəribə çapıqlar qalır;
- Hottron simptomu – bənövşəyi yastı papulalar və əl barmaqlarının proksimal falanqaarası oyanaqları nahiyyəsində qabıqlanan eritematoz ləkələr; dərinin atrofiyası;
- kobura simptomu – budun proksimal şöbələrinin lateral səthlərində eritematoz səpgi
- "Mexanik əli" – ovucun dərisində qızarıqlıq və qabıqlanma, ovucun, barmaq yastıqları nahiyyəsində, xüsusən də işarət barmağının mil səthinin dərisində çatlar. Antisintetaza antitellərinin aşkarlanması ilə assosiyasiya olunur. DM-dən daha çox PD zamanı rast gəlinir.
- dırnaq yastıqlarının zədələnməsi: dırnaqətrafı eritema, kutikulanın böyüməsi, teleangiektaziyalar, kapilyar ilgəklərinin dilatasiyası, dermanın məməciklərinin kapilyarlarının trombozu və dərinin infarktları; dırnaqların xətlənməsi və kövrəkliyi;
- poykilodermatomiozit – çoxsaylı teleangiektaziya, dərinin tükənməsi, onun quruluğu və hiperkeratozluğu ilə keçən piqmentasiya ve depiqmentasiya ocaqlarının növbələnməsi;
- uzunmüddətli gedişdə depiqmentasiya nahiyyələri ilə müşayiət olunan dərinin atrofiyası.
- çapıqsız alopesiya ilə müşahidə olunan başın tüklü hissəsinin qabıqlanması. [8, 18-21].

Dərinin zədələnməsi adətən əzələ zəifliyinin yaranmasından əvvəl baş verir ya da onunla bir vaxtda yaranır. Dəri səpgiləri ultrabənövşəyi şüalanmanın təsiri altında güclənə bilər.

Əzələ toxumasının iltihabı əlamətləri olmayan (hipomiopatik DM) və ya əzələ toxumasının zədələnməsinin laborator markerləri olmağına baxmayaraq, əzələ zəifliyi müşahidə olunmayan (amiopatik DM) DM-nin atipik variantları ayırd edilir. Həmçinin, "dermatitsiz dermatomiozit" halları təsvir olunmuşdur ki, bu halda dəri sindromu xəstəliyin yalnız əvvəlində nəzərə çarpır və yaxud heç olmur [22].

Daxili orqanların və sistemlərin zədələnməsi.

DM-nin tipik simptomları – udlağın və qida borusunun yuxarı hissəsinin eninəzolaqlı əzələlərinin

zədələnməsi ilə bağlı olan disfagiya və disfoniya. Burunda mayenin requrgitasiyası müşahidə oluna bilər. Bu əzələlərin cəlb olunması daha ağır gedişdən xəbər verir. Udmanın pozulması aspirasion pnevmoniya ilə ağırlaşa bilər [22]. Az hallarda gözhərəki pozğunluqlar, mimiki, qabırğaarası əzələlərin və diafraqmanın zəifliyi yarana bilər ki, bu da tənəffüsün pozulmasına gətirib çıxardır [15].

DM zamanı özünü EKQ dəyişikliyi, ürək çatışmazlığı ilə, ritm və keçiriciliyin pozulması ilə göstərən miokardit meydana çıxa bilər. Klinik tədqiqatlarda ürəyin zədələnmə tezliyi geniş spektrdə tərəddüd edir (9%-dən 72%-ə kimi) [23]. Nəzərə almaq lazımdır ki, ürəyin zədələnmə simptomları yüksək dozada qlükokortikosteroidlərin istifadəsi ilə (steroid miokardodistrofiya) və ya koronar aterosklerozla bağlı ola bilər. İltihabi miopatiyalar, digər xronik iltihabi xəstəliklər kimi aterosklerozun inkişafına səbəb olur [24]. Ürəyin ağır zədələnməsi DM-də az rast gəlinsə də, ölümün mümkün səbəblərindən biridir [25].

DM-də ağciyərin interstisial zədələnməsi (İAX) 65%-ə çatır, bununla bərabər klinik təzahürləri simptomsuz gedişdən kəskin respirator distress sindrom halı arasında tərəddüd edir [3, 26]. Meta-analizlərin nəticələrinə görə DM-də, ağciyərlərin zədələnməsinin risk faktorlarına diaqnozun qoyulması zamanı böyük yaş, artrit/artralgiyalar, qızdırma, anti-Jo-1 və anti-MDA-5-in varlığı, EÇS və C-reaktiv peptidin yüksəlməsi aid olunur, eyni zamanda paraneoplastik DM olan pasiyentlərdə ağciyərlərin zədələnməsinin inkişaf ehtimalı əksinə aşağıdır [27, 28].

DM-də oynaqların zədələnməsi ikitərəfli simmetrik zədələnmə ilə, çox vaxt da əlin kiçik oyanaqlarının zədələnməsi ilə təmsil olunur. Artritin uzunmüddətli gedişi zamanı eroziv dəyişiklik olmayan əl oynaqlarının yarımçıxıqları ilə keçən xroniki deformasiyaedici artritin formalaşması mümkündür. DM-də oynaq sindromu əzələ zəifliyinin formalaşmasından əvvəl ortaya çıxa bilir və qlükokortikoidlərin təyini ilə tez aradan qaldırıla bilinməsi ilə seçilir.

DM, antisintetaza sindromunda və BTQX-si olan PM/DM çarpaz sindromlu xəstələrdə Reyno fenomeni müşahidə oluna bilər.

Damar patalogiyasının digər formaları dırnaqətrafı yastığın infarktı, petexiyalar, torşəkilli livedo şəklində müşahidə olunur.

Böyrəklərin zədələnməsi az rast gəlinir və özünü proteinuriya və nefrotik sindrom şəklində göstərir. Mioqlobinuriyalar kəskin böyrək çatışmazlığının inkişafı ilə nəticələ bilər.

İltihabi miopatiyanın İAX, simmetrik revmatoidəbənzər qeyri-eroziv artrit, Reyno sindromu, ovuc dərisi və əl barmaqlarının "mexanik əli" tipində zədələnməsi və anti-Jo-1 anticismlərlə birgə rast gəlinməsinə **antisintetaz sindromu** adlandırılır – bu İİM-lərin ən ağır yarımtipindən biridir [29, 30]. Əzələ patologiyasından əlavə, konstitusional təzahürlər də - kəskin başlanğıc, qızdırma, bədən kütləsinin azalması da xarakterikdir. Antisintetaz sindromunda steroidə rezistentlik formalaşa bilər və ya QK-nin enməsi fonunda tez-tez ağırlaşmalar baş verə bilər.

İAX-ın varlığı xəstəliyin proqnozunu müəyyənləşdirir [31, 32]. Maraqlıdır ki, anti-PL-12 və anti-PL-7 anticismlərinə pozitivlik pasiyentlərdə miozitə nəzərən daha çox dərəcədə ağır İAX və ağciyər hipertenziyasının inkişafının yüksək riski ilə assosiyasiya olunur [33, 34].

Xəstəliyin gedişi kəskin, yarımkəskin və xroniki ola bilər.

- Kəskin gediş dermatomiozitin başlanğıcından 2-6 ay sonra letal sonluqla bitməklə tam gətirib hərəkətsizlikliyə çıxardan əzələlərin generalizasiya olunmuş zədələnməsi, disfagiya, eritema, ürəyin və digər daxili orqanların zədələnməsi ilə xarakterizə olunur.
- Yarımkəskin gediş daha ləng, simptomların tədricən artması, tsikliklik, dermatomiozitin başlanğıcından 1-2 il sonra aşkar klinik mənzərənin təzahürü ilə fərqlənir.
- Xroniki gediş mülayim əzələ zəifliyi, mialgiya, eritematoz səpgi, bəzən dəri zədələnməsi olmayan daha qənaətbəxş, dövri variantdır. Əzələlərin lokal zədələnməsi mümkündür.

Klinik təsnifatı. İİM-in dörd əsas yarımtipi ayırd edilir [35]:

Dermatomiozit (DM), buna daxil:

- 1a – klassik DM, o cümlədən, ehtimal ki, birləşdirici toxumanın sistem xəstəlikləri (BTSX) və bədxassəli şişlər ilə bağlı;
- 1b – yuvenil dermatomiozit (YDM);
- 1c – klinik amiopatik DM (clinical amyopathic dermatomyositis – CADM).

Polimiozit (PM), buna daxil:

- 2a – klassik PM;
- 2b – qeyri-spesifik və ya çarpaz (overlap)
- Birləşdirici toxumanın sistem zədələnməsi (BTSX) ilə bağlı olan miozitlər.
- Neoplaziyalarla, statinlərin istifadəsi ilə və BTSX ilə bağlı olan ***autoimmun nekrotik miopatiya.***
- ***Əlavələri olan sporadik miozit*** (inclusion body myositis – IBM) [4].

Diaqnostik meyarlar. DM-nin bu günlərə kimi öz əhəmiyyətini saxlayan ilk diaqnostik kriteriyaları 1975-ci ildə A.Bohan və J.Peter tərəfindən hazılanmışdır [1, 36].

Diaqnostik təsnifat meyarları (Bohan, Peter, 1975).

- Bir neçə həftədən bir neçə ayadək proqressivləşən proksimal ətrafların simmetrik zəifliyi.
- Morfoloji dəyişikliklər: əzələ liflərinin nekrozu və iltihabi infiltrasiyası.
- Qan zərdabında əzələ fermentlərinin səviyyəsinin yüksəlməsi: kreatinfosfokinaza (KFK), laktatdehidrogenaza (LDH), aspartatamintransferaza (AST).
- İltihabi miopatiyanın elektromioqrafik əlamətləri: hərəki vahidlərin qısa, aşağı amplitudlu, çoxfazalı potensialı və genişlənmə halında əzələ liflərinin spontan aktivliyi – fibrillyasiya potensialları və müsbət iti dalğalar.
- DM üçün xarakterik olan dəri səpgiləri.

DM-nin diaqnozu dəri sindromu daxil olmaqla 4 kriteriya əsasında qoyulur.

PM-nin diaqnozu: dəri sindromu olmadan 4 kriteriya əsasında qoyulur.

İstisnaedici meyarlar:

1. Əzələ zəifliyi ilə müşahidə olunan nevroloji xəstəliyin təsdiqlənməsi;
2. Miasteniya;
3. Əzələ distrofiyaları;
4. Qranulamatoz miozit (sarkoidoz);
5. İnfeksion miozit;
6. Metabolik miopatiya;
7. Endokrin xəstəliklərin (hiper/hipotireoz, hiperparatireoz) törətdiyi miopatiya;
8. Toksik miopatiya (məsələn, narkotiklərin yaxın vaxtlarda istifadəsi).

Antisintetaz sindromunun ilkin diaqnostik meyarları (Solomon J, 2011) [39].

- ***Böyük meyarlar***
- Ətraf mühitin təsiri, peşə fəaliyyəti, dərmanların qəbulu ilə əlaqədar olmayan İAX.
- PM/DM (Bohan, Peter, 1975. Kriteriyalarına görə).
- ***Kiçik meyarlar***
- Artritlər
- Reyno fenomeni
- "Mexanik əli".

Laborator göstəricilər. DM-də xəstəliyin müxtəlif vaxtlarında, praktiki olaraq bütün pasiyentlərdə heç olmasa bir fermentin səviyyəsinin qalxması xarakterikdir.

Əzələ toxumasının zədələnməsinin laborator əlamətlərinə KFK-nin, eləcə də LDH, AST, mioqlobin və aldolazanın aktivlik səviyyəsinin yüksəlməsi aiddir. KFK – miokardın deyil, əzələlərin zədələnməsini əks etdirən əzələ iltihabının ən çox həssas və spesifik markeridir.

Zərdab fermenetlərinin aktivliyinin yüksəkməsi nəinki İİM-nin bütün formalarının diaqnostik kriteriyasıdır, eyni zamandan o həmçinin, aparılan terapiyanın adekvatlığının göstəricisi rolunu oynayır.

İmmunoloji markerlər. İİM olan pasiyentlərdə diaqnostik, diferensial diaqnostik və proqnostik əhəmiyyəti olan müxtəlif anticisimlər müəyyən edilir [40, 41].

- Miozit – spesifik (Anti-Jo-1, anti-SRP, anti-Mi2 və s.)
- Miozitlə - assosiasiya olunmuş (anti-Ku, anti-RNT)
- Hüceyrəli spesifik anticisimlər (miozin, mioqlobin, ANF, RF) [42].

Məsələn, anti-Mi2 anticisimlər (nüvə DNT helikazaya qarşı) DM-li pasiyentlərin 10-20%-də rast gəlinir və xəstəliyin xoş xassəli gedişi ilə assosiasiya olunur, anti-TIFγ və anti-NXP-2-nin varlığı isə paraneoplastik dermatomiozitin yüksək ehtimalına işarə edir [4]. Bundan başqa, anti-NXP2 anticisimlər kalsinatların yaranmasını xəbər verə (ən çox da yuvenil dermatomiozitdə) bilirlər [4, 21].

Anti-Jo-1 anticisimləri (histidil-nRNT-sintetazaya qarşı) olan əksəriyyət pasiyentlərdə həm də, anti-MDA-5 anticisimlərlə assosiasiya olunan ağciyərlərin interstisial zədələnməsi inkişaf edir [43, 44]. Anti-cN1A anticisimlər əlavəli miozit üçün, anti-HMGCR və anti-SRP anticisimlər – nekrotik autoimmun miozit üçün xarakterikdir [40, 45].

İnstrumental müayinələr:

- ***Elektromioqrafiya*** həssas, lakin qeyri-spesifik diaqnostik metod olub, ələxüsus, şübhəli laborator və klinik müayinələr zamanı müalicənin effektivliyinin monitorinqi üçün faydalıdır. EMQ əzələlərin biopsiyasını aparmaq üçün yeri müəyyənləşdirməyə imkan verir.
- ***Maqnit-rezonans tomoqrafiya*** əzələ iltihabının təzahürünün qiymətlən-dirilməsi üçün həssas metoddur. MRT-ni miozitin və xəstəliyin kəskinləşməsini təsdiqləmək üçün; xronik aktiv miozitin xroniki qeyri-aktiv miozitdən diferensiasiya etmək, həmçinin biopsiya üçün yerin qeyri-invaziv yolla müəyyənləşdirilməsi üçün istifadə etmək olar.

Əzələ biopsiyası. Əksər hallarda diaqnozun təsdiqlənməsi üçün biopsiyanın aparılması vacibdir. Morfoloji diaqnostika xəstəliyin bütün mərhələlərində, təkcə diaqnozun qoyulması üçün deyil, həm də, proqnozunu müəyyən etmək üçün vacibdir.

Morfoloji diaqnostika xəstəliyin bütün mərhələlərində vacibdir.

Əzələ biopsiyasında nekroz ocaqları, əzələ toxumasının regenerasiyası, liflərin atrofiyaları, kapillyarların obliterasiyası müəyyənləşdirilir.

PM-nin erkən mərhələlərində interstisial toxumanın hüceyrə infiltrasiyası və onun şişməsi aşkar edilir. Gecikmiş mərhələlərdə miofibrillərin nekrozu, əzələ liflərinin birləşdirici toxuma ilə əvəzlənməsi prosesi dominantlıq təşkil edir [46].

Fərqlər:

- **PM**-də əzələ liflərinin nekrozu və çox vaxt endomiziumda (fassiyada) yerləşən iltihabi infiltratlar, distrofik dəyişikliklər, əzələ toxumasının fibroz və piylərə çevrilməsi, əzələ liflərinin regenerasiyasının əlamətləri müəyyən olunur.
- **DM**-də damar tərəfdən olan dəyişikliklər xarakterikdir: vaskulyar nekrozla və perifassikulyar distrofiyaya gətirib çıxardan trombozların yaranması ilə kapilyarların destruksiyası.

Əzələ biopsiyası – **hüceyrədaxili əlavələri olan miozitin** əsas diaqnostik müayinə metodudur, hansı ki, müxtəlif müəlliflərin məlumatlarına görə, 2-dən 25%-ə kimi tezlikdə rast gəlinir. Əlavələri olan miozit – iltihabi miopatiyalar qrupuna aiddir (tez-tez səhvən onu PM kimi təqdim edirlər). Bu miozit bununla maraqlıdır ki, 50 yaşdan yuxarı yaşda başlanır (az-az halda 30 yaşda), tədricən inkişaf edir, onunla əsasən kişilər xəstələnir və klassik PM-dən fərqli olaraq, distal zəifliyin proksimala nisbətən üstünlük təşkil etməsi müşahidə edilir (barmaqların bükücüləri, ayağın dorsal bükücüləri) və o, assimetrik ola bilər. Əsas şikayət – budun dördbaşlı əzələlərinin zəifliyi və atrofiyası səbəbindən diz oyanqlarının qeyri-stabilliyi [46].

Diferensial diaqnoz. Xəstəliyin simptom komplekslərinin yaramasındakı polimorfizmi və o İİM-in fərqli yarımtiplərində keçməsi diaqnostikanı çətinləşdirir və bu da onun QK və digər immunsupressiv preparatlarla əsaslı olmayan terapiyasına gətirib çıxardır. Təsadüfi deyil ki, təsnifat kriteriyalarında miopatiyanın laborator-instrumental markerləri ilə birgə əzələ zəifliyi ilə müşahidə olunan klinik oxşar olan xəstəliklərin "inkar meyarları"ayrılmışdır (cəd.).

Diferensial diaqnostikanı aşağıdakı patologiyalarla aparmaq lazımdır:

- **Yetkinlərin Buşke sklerodermiyası** – skleödemdə boyun və üzdə dərinin və dərialtı piy təbəqəsinin sıx ödemi yaranır, hansı ki, qəfil peyda olur, yuxarı ətraflara və gövdənin yuxarı hissəsinə yayılır. Ödem sıx, ağrısızdır, dermatomiozit üçün xarakterik olan səpgilər yoxdur. Proses uzun müddətli və xoşxassəlidir, əzələlərin zədələnməsi müşahidə olunmur.
- **Fotodermatoz** – dermatomiozitin kəskin başlanğıcı zamanı eritema və üzün şişkinliyi şəklində mümkündür. Lakin fotodermatoz üçün insolyasiyadan sonra ortaya çıxan, al qırmızılıqla, yanğı hissi ilə özünü göstərən kəskin iltihab xarakterli dəri səpgiləri xasdır. Əzələlərin zədələnməsi və ümumi durumun pozulması yoxdur.
- **Myastenia gravis:** Dermatomiyozitdən fərqli olaraq, miyasteniya qravis əsasən gözün və bulbar əzələlərin zəifliyinə səbəb olur, asetilkolin reseptorlarına qarşı anticisimlərlə əlaqələndirilir və əzələ fermentinin artmasına səbəb olmur.
- **Revmatik polimiyalgiya:** Çiyin və çanaq əzələlərində ağrı və reqidlik ilə təzahür edir. Revmatik polimialqiya zamanı dermatomiyozitdən fərqli olaraq, iltihabi markerlərin yüksəlməsi, əzələ fermentlərin yüksəlməməsi və

Cədvəl

İltihabi miopatiyaların yeni təsnifat meyarları (IMCCP, ACR, EULAR, 2017) [37, 38]

Əlamət	**Ballar**
Xəstəliyin debüt yaşı 18-dən <40 kimi	1,6
Debüt yaşı ≥40 yaş	2,3
Əzələlərin zədələnməsi	
Əlin proksimal əzələlərinin zəifliyi	0,7
Ayağın proksimal əzələlərinin zəifliyi	0,6
Boynun bükücüləri boynun açıcılarından zəifdir	1,6
Ayağın proksimal əzələləri distaldan zəifdir	1,5
Dərinin zədələnməsi	
Periorbital ödem	3,3
Hottron papulaları	2,3
Hottron simptomu (eritema)	3,4
Disfagiya və qida borusunun motorikasının pozulmasının digər əlamətləri	0,7
Laborator əlamətlər	
KFK	1,2
Anti-Jo-1	4,2
Balların cəmi*	0,9
Biopsiyanın məlumatları	
Endomiziumun, əzələ lifini infiltrasiya etməyən mononuklearlarla infiltrasiyası	1,6
Perimiziumun və ya perivaskulyar nahiyyənin infiltrasiyası	1,1
Perifassikulyar atrofiya	1,7

Qeyd: *Əgər biopsiya aparılıbsa, alınmış cəmi 0,9-a vurmaq və onu biopsiyanın təhlilindən alınan ballarla toplamaq lazımdır. Dəri zədələnməsi olmadıqda biopsiya mütləqdir. Əgər ümumi bal >7,5 olarsa, iltihabi miopatiyanın olması ehtimalı yüksəkdir (>8,7 əgər dəri zədələnməsi yoxdursa)

normal əzələ gücü qeyd olunur. Onnan əlavə, bu xəstəlik əsasən 50 yaşdan yuxarı olan insanlarda müşahidə olunur [47] .

- **Trixinellyoz** – bir sıra əlamətləri oxşardır: üzün şişkinliyi, əzələlərin zədələnməsi, mimikanın pozulması, hemorragik səpgilər, halsızlıq. Lakin trixinellyozdan fərqli olaraq dermatomiozit üçün xəstəliyin gedişatının müddəti, trixinellaların qanda və əzələlərin toxumasında yoxluğu, dəridə səpgilər xarakterikdir.

DM/PM-nin terapiyasına rasional yanaşmalar. DM-nin müalicəsi xəstəliyin kəskinliyi, müddəti və xarakteri nəzərə alınmaqlı individual yanaşma tələb edir. DM-nin müalicəsində əsas məqsədlərə xəstəliyin aktivliyinin azaldılması, əzələ gücünün bərpa olunması və əzələdənkənar əlamətlərin aradan qaldırılması, eləcə də pasiyentlərin həyat keyfiyyətinin yaxşılaşdırılması aiddir.

Yüksək dozada qlükokortikosteroidlər (QK) – 1-dən 1,5 mq/kq qədər, (80 mq/sut qədər) DM-nin terapiyasında əsas olaraq qalırlar. QK-nin sutkalıq dozasının müalicənin əvvəlində 2-4 saatlıq intervalla, məsləhətdir ki, 12 saat müddətində olmaqla 3 dəfəlik qəbula (tolerantlıq qiymətləndirilməsi) bölünsün, daha sonra isə mümkün olduqca dərmanın qəbulu səhər erkən saatlarda birdəfəlik edilsin. QK-nin dozasının azaldılması 3 aydan tez olmadan, KFK-nin normallaşması, dəri əlamətlərinin intensivliyinin azalması, əzələ gücünün artması durumunda edilə bilər. QK-nin dəstəkləyici dozası individualdır, lakin 10 mq/sut-dan çox olmamalıdır. Xəstəliyin sürətli proqressivləşməsi zamanı, disfagiya və sistem təzahürlərin (miokardit, fibrozlaşan alveolitlə müşahidə olunan İAX) inkişafı şəraitində müalicəni venadaxili metilprednizolonun 3-5 gün ərzində, sutkada 1000 mq olmaqla təyinatından başlamaq lazımdır [3, 48]. Sonradan QK-nin daxilə qəbulu müəyyənləşdirilmiş sxem əsasında davam etdirilir. QK-nin monoterapiyası, adətən, kifayət qədər effektivdir, lakin nəzərə almaq lazımdır ki, bu qrup preparatların özü də miopatiyanı törədə bilirlər [3, 4].

Sitostatik preparatlar İİM-in müalicəsində "ikinci sıra" dərman vasitələri hesab edilir. Onları QK-nin dozasını azaltmaq məqsədilə erkən təyin etməyə

başlayırlar [49]. Bəzi müəlliflərin məlumatlarına görə müxtəlif immunsupressiv preparatlar effektivliklərinə görə bir-birindən ciddi şəkildə fərqlənmirlər [50]. Çox vaxt metotreksat (25 mq/həftə dozasına qədər) və azatioprin (sutkada 2-3 mq/kq) istifadə olunur və onların maksimal effektinin əldə olunması üçün bir neçə ay tələb olunur. Bəzi ekspertlərin fikrincə, metotreksat ən çox öyrənilmiş preparatlardan biridir və effektivliyinə görə azatioprini üstələyir (maksimal effekti gec – 6-9 aydan sonra ortaya çıxır), lakin onun ağciyərlərin interstisial zədələnməsi zamanı istifadəsi məhduddur [51]. Bundan başqa, mofetil mikofenolat (MMF) gündə 2 dəfə 500 mq dozada, daha sonra dozanı gündə 2 dəfə 1,0q qədər artırmaqla və leflunamid istifadə olunur. Ehtimal ki, MMF İAX və səpgilər zamanı daha effektivdir. Müşahidələr seriyasında mofetil mikofenolat əzələ gücünün artması və DM-nin laborator aktivliyinin enməsinə gətirib çıxara bilmişdir [4, 21].

İmmundepressantlar monoterapiya şəklində və ya QK ilə birgə təyin olunurlar [15, 21]. Kombinəolunmuş terapiyaya göstəriş xəstəliyin ağır təzahürlərinin, həmçinin nəzərəçarpan əzələ zəifliyi, udlaq və tənəffüs əzələlərinin, ağciyərlərin, ürəyin zədələnməsi kimi əlavə əsasların olmasıdır [26].

Siklofosfamid və ya immundepressantların kombinasiyası digər immunsupressiv preparatların effektivliyi olmadıqda, DM-nin ağır gedişində, xüsusən də, ağciyərlərin zədələnməsində və vaskulitlə birgə olan yuvenil DM-də təyin olunurlar. Siklofosfamid interstisial ağciyər fibrozunda seçim preparatıdır. [3, 21].

QK və immunsupressiv preparatlara qarşı refrakter olan DM xəstələrində yüksək dozada venadaxili immunoqlobulin (VDİQ) istifadə oluna bilər [52]. Terapiyanı standart sxemdə 2-5günə 2 q/kq dozada aparırlar, təkrari yeridilməni ayda bir dəfə həmin dozada aparırlar, effektin olduğu təqdirdə daha sonra yeridilməni hər 2 aydan bir 2 q/kq dozada və ya hər ay 1q/kq dozada təkrarən edirlər. Hesab edilir ki, VDİQ-i monoterapiya şəklində istifadə etmək məsləhət deyil, onu QK-nin optimal dozaları ilə kombinə etmək lazımdır [15]. VDİQ DM-də, xüsusən də disfagiyada effektivdir. Bu müalicə PM-də FDA tərəfindən qəbul olunmayıb çünki o, yalnız müvəqqəti müsbət təsir göstərə bilir.

DM xəstələrində bioloji gen mühəndisliyi preparatlarının effektivliyi və təhlükəsizliyi müəyyən edilməmişdir, buna görə də onların istifadəsi yalnız xəstəliyin ağır gedişi və standart preparatların qeyri-effektivliyi zamanı tövsiyə edilir [53]. Rituksimabı yalnız proqnostik qənaətbəxş olmayan faktorların (antisintetaza sindromunda, ağır İAX və ağciyərlərin həyat tutumunun çox aşağı göstəriciləri və dəm qazının diffuziya xüsusiyyətində), miozitspesifik anticisimlərin yüksək səviyyəsində təyin edirlər [54, 55]. Rituksimab 4 həftə ərzində həftədə 375 mq/м2 dozada və ya ümumi 2 q dozada hər həftə 1 q yeridilməklə təyin olunur [4, 21].

Beləliklə, İİM-nin öyrənilməsi onun həm fenotipik heterogenliyi, həm də diaqnostikasının çətinliyi ilə bağlı olan çoxplanlı bir problemdir. Təsnifat kriteriyaları bilmək, vaxtında diaqnozun qoyulmasının vacib tərkib hissəsi olub, bunun nəticəsində daha uğurlu terapevtik taktikanı seçməyə, pasiyentlərin proqnozunu və həyat keyfiyyətini yaxşılaşdırmağa imkan verir.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Антелава О.А. Полимиозит/дерматомиозит: дифференциальная диагностика. Научно-практическая ревматология. 2016;54(2):191-198.
2. Cassius C., Le Buanec H, Bouaziz J.D., Reyhan Amode R. Biomarkers in adult dermatomyositis: tools to help the diagnosis and predict the clinical outcome // J. Immunol. Res., 2019; Vol. 2019: 15 p. doi.org/10.1155/2019/9141420.
3. Зыкова А.С., Новиков П.И., Моисеев С.В. Дерматомиозит взрослых: новые критерии диагностики и перспективы терапии // Клиническая фармакология и терапия, 2017, 26 (2); с.83-92.
4. Насонов Е.Л. Российские клинические рекомендации. Ревматология, ГЭОТАР-Медиа, Москва, 2019; 464 с.
5. Marvi U., Chung L., Fiorentino D.F. Clinical presentation and evaluation of dermatomyositis // Indian J. Dermatol., 2012 Sep., Vol. 57, № 5: p. 375–381.
6. Miller F., Cooper R., Vencovsky J. et al. Genome-wide association study of dermatomyositis reveals genetic overlap with other autoimmune disorders. Arthritis Rheum 2013;65(12):3239-47.
7. Дикарева Е.А., Величинская О.Г. Дерматомиозит (Клинический случай) // Вестник ВГМУ, 2019; Том 18, №2: с. 116-122.
8. Орлова Е.В и др. Дерматомиозит: клинический случай и обзор литературы // РМЖ, 2017; № 11: С.850–852.
9. Adler BL, Christopher-Stine L. Triggers of inflammatory myopathy: insights into pathogenesis. Discov Med. 2018 Feb;25(136):75-83
10. Buchbinder R., Hill C.L. Malignancy in patients with inflammatorymyopathy // Curr. Rheumatol. Rep., 2002 Oct.,

Vol. 4, №5: p. 415–426.
11. Hill C, Zhang Y, Sigurgeirsson B et al. Frequency of specific cancer types in dermatomyositis and polymyositis: a population-based study // Lancet 2001; 357(9250):96-100.
12. Milone M. Diagnosis and management of immune-mediated myopathy // Mayo Clin Proc., 2017;92(5):826-837.
13. Bernet L.L. et al. Ovoid palatal patch in dermatomyositis: a novel finding associated with anti-TIF1γ (p155) antibodies // JAMA Dermatol., 2016; Vol. 152, № 9: P.1049–1051.
14. Beel A.J et al. Ground-glass opacity heralding invasive lung adenocarcinoma with prodromal dermatomyositis: a case report // J. Cardiothorac. Surg., 2018 Feb., Vol. 13, №1: P. 20.
15. Мазуров В.И., Авлохова С.Р., Лесняк О.М. Фармакотерапия без ошибок. Ревматология, 2017, 528 с.
16. Davidson‘s Principles and Practice of Medicine, 23 rd edition, 2021, 544 p.
17. Hak A.E., B.de Paepe, J.L. de Bleecker, Tak PP., M. de Visser Dermatomyositis and polymyositis: new treatment targets on the horizon // Neth. J. of Med, 2011;69(10): p.410-21
18. Qudsiya Z.,Waseem M. Dermatomyositis, StatPearls Publishing; 2021 Aug 11.
19. Вольф К. и др. Дерматология Фицпатрика в клинической практике: в 3 т. / пер. с англ. под общ. ред. акад. А.А. Кубановой. М.: Издательство Панфилова; БИНОМ. Лаборатория знаний, 2012. Т. 2. 1843 с.
20. Iaccarino L., Ghirardello A., Bettio S., Zen M., Gatto M. et. al, The clinical features, diagnosis and classification of dermatomyositis // J Autoimmun, 2014;48-49:122-7. doi: 10.1016/j.jaut.2013.11.005.
21. Вест С. Дж. Секреты ревматологии: Пер. с англ. М.: «Издательство ГЭОТАРМедиа», 2018, с.175182.
22. Dalakas M. Inflammatory Muscle Diseases // N Engl J Med, 2015;372(18): p. 1734-47.
23. Zhang L, Wang G, Ma L, et al. Cardiac involvement in adult polymyositis or dermatomyositis: a systematic review. Clin Cardiol 2012;35(11):686-91.
24. Ungprasert P, Suksaranjit P, Spanuchart I et al. Risk of coronary artery disease in patients with idiopathic inflammatory myopathies: a systematic review and metaanalysis of observational studies // Semin Arthritis Rheum., 2014;44(1):63-67.
25. Mavrogeni S, Sfikakis P, Dimitroulas T et al. Cardiac and muscular involvement in idiopathic inflammatory myopathies: noninvasive diagnostic assessment and the role of cardiovascular and skeletal magnetic resonance imaging // Inflamm Allergy Drug Targets, 2014;13(3):206-16.
26. Callen J, Wortmann R. Dermatomyositis. Clin Dermatol 2006;24(5):363-73.
27. Zhang L, Wu G, Gao D, et al. Factors associated with interstitial lung disease in patients with polymyositis and dermatomyositis: A systematic review and metaanalysis. PLoS One 2016;11(5):e0155381.
28. Labirua A, Lundberg IE. Interstitial lung disease and idiopathic inflammatory myopathies: progress and pitfalls // Curr Opin. Rheumatol., 2010;22:633-8. doi: 10.1097/BOR.0b013e32833f1970
29. Антелава ОА, Тарасова ГМ, Сажина ЕГ и др. Антисинтетазный синдром - наиболее тяжелый подтип полимиозита/дерматомиозита (описание случаев). Современная ревматология. 2009;3(4):54-58.
30. Антелава О.А., Балабанова Р.М., Сажина Е.Г. и др. Особенности дебюта и течения антисинтетазного синдрома как наиболее тяжелого подтипа полимиозита/дерматомиозита // Русский медицинский журнал, 2009;21:1443
31. Katzap E., Barilla-LaBarca ML, Marder G. Antisynthetase syndrome // Curr Rheumatol Rep. 2011;13:175-81. doi: 10.1007/s11926-011-0176-8.
32. Антелава О.А., Бондаренко И.Б., Хитров А.Н., Насонов Е.Л. Поражение дыхательной системы при полимиозите/дерматомиозите // Русский медицинский журнал, 2008;34(24):1633-7.
33. Hervier B, Wallaert B, Hachulla E, et al. Clinical manifestations of antisynthetase syndrome positive for anti-alanyl-tRNA synthetase (anti-PL12) antibodies: a retrospective study of 17 cases // Rheumatology (Oxford), 2010; 49(5):972-6. doi: 10.1093/rheumatology/kep455.
34. Kalluri M, Sahn SA, Oddis CV, et al. Clinical profile of anti-PL-12 autoantibody: cohort study and review of the literature // Chest. 2009;135(6):1550-6. doi: 10.1378/chest.08-2233.
35. Van der Kooi A.J, de Visser M. Idiopathic inflammatory myopathies. Handb Clin Neurol. 2014;119:495-512. doi:10.1016/B978-0-7020-4086-3.00032-1/
36. Bohan A, Peter J. Polymyositis and dermatomyositis // N Engl J Med., 1975; 292(8):403-407.
37. Pilkington C, Tjdrnlund A, Bottai M, Werth V, et al. Progress report on development of classification criteria for adult and juvenile idiopathic inflammatory myopathies // Pediatr Rheumatol Online J 2014; 12 (Suppl 1): P94.
38. Каратеев Д.Е., Лучихина Е.Л. Справочник врача-ревматолога. М.: «Издательство ГЭОТАРМедиа», 2021, 368 с. DOI:10.33029/9704-6130-3-SVR-2021-1-368.
39. Solomon J., Swigris J.J., Brown K.K. Myositis–related interstitial lung disease and antisynthetase syndrome // J BrasPneumol. 2011. Vol. 37. P. 100−109.
40. Dalakas M. Inflammatory Muscle Diseases // N Engl J Med, 2015;372(18):1734-47.
41. Suzuki S, Uruha A, Suzuki N et al. Integrated Diagnosis Project for Inflammatory Myopathies: An association between autoantibodies and muscle pathology. Autoimmun Rev 2017 S1568-9972(17)30123-4.
42. Мазуров В.И. Клиническая ревматология. 3-е издание, переработанное и дополненное. Руководство для врачей. М.:E-noto, 2021; 696 с.
43. McHugh N.J., Tansley S.L. Autoantibodies in myositis // Nature Reviews Rheumatology, 2018; Т. 14, №5: с. 290.
44. Адебаджо Э., Данкли Л. Ревматология. Перевод с англ.; под редакцией д.м.н., проф. Лилы А.М. Москва: МЕД пресс-информ, 2022; 304 с. ISBN 978-5-907504-29-5.
45. Satoh M, Tanaka S, Ceribelli A, Calise S.J, Chan E.K. Comprehensive Overview on Myositis-Specific Antibodies: New and Old Biomarkers in Idiopathic Inflammatory Myopathy. Clin Rev Allergy Immunol., 2017;52(1):1-19.
46. Литвиненко И.В., Живолупов С.А., Бардаков С.Н., Самарцев И.Н. и др. Воспалительные миопатии: патогенез, клиника, диагностика, лечение // Вестник Российской

Военно-медицинской академии, 2015; №3(51): с.217-226.
47. Qudsiya Z, Waseem M. Dermatomyositis, 2020 Aug 10. In: StatPearls [Internet]. Treasure Island (FL): StatPearls Publishing; 2020; PMID: 32644343.
48. John Okogbaa, Lakeasha Batiste Dermatomyositis: An Acute Flare and Current Treatments //Clin Med Insights Case Rep., 2019; 12: Published online 2019, Jun 18. doi:10.1177/1179547619855370
49. Hirokazu Sasaki, Hitoshi Kohsaka Current diagnosis and treatment of polymyositis and dermatomyositis // Mod Rheumatol, 2018 Nov;28(6):913-921. doi: 10.1080/ 14 397595.2018.1467257.
50. Gordon P, Winer J, Hoogendijk J. et al. Immunosuppressant and immunomodulatory treatment for dermatomyositis and polymyositis // Cochrane Database Syst. Rev, 2012(8):Cd003643.
51. Choy E, Isenberg D. Treatment of dermatomyositis and polymyositis // Rheumatology (Oxford) 2002;41(1):7-13.
52. Anh-Tu Hoa S, Hudson M. Critical review of the role of intravenous immunoglobulins in idiopathic inflammatory myopathies // Semin Arthritis Rheum 2017; 46(4):488-508.
53. Serena Fasano, Patrick Gordon, Raouf Hajji, Esthela Loyo, David A. Isenberg Rituximab in the treatment of inflammatory myopathies: a review // Rheumatology, 2017, Vol. 56, Issue 1, p. 26–36. doi.org/10.1093/rheumatology/kew146.
54. Oddis C, Reed A, Aggarwal R, et al. Rituximab in the treatment of refractory adult and juvenile dermatomyositis and adult polymyositis: a randomized, placebo-phase trial // Arthritis Rheum., 2013;65(2):314-324.
55. Aggarwal R, Bandos A, Reed A, et al. Predictors of clinical improvement in rituximab-treated refractory adult and juvenile dermatomyositis and adult polymyositis // Arthritis Rheumatol., 2014;66(3):740-749.

РЕЗЮМЕ

ИДИОПАТИЧЕСКИЕ ВОСПАЛИТЕЛЬНЫЕ МИОПАТИИ – ПРОБЛЕМА СОВРЕМЕННОЙ РЕВМАТОЛОГИИ

[1]Касумова Ф.Н., [1]Агаев А.Р., [1]Мамедова Р.Н., [1]Ахундова У.Я., [1]Мехдиева А.Р., [2]Бабаева Л.К.
[1]Азербайджанский Государственный Институт Усовершенствования Врачей имени А.Алиева, кафедра терапии, Баку, Азербайджан;
[2]Абшеронская Центральная Районная Больница, поликлиническое отделение, Баку, Азербайджан

Полимиозит (ПМ) и дерматомиозит (ДМ) – аутоиммунные заболевания скелетной мускулатуры неизвестной этиологии, которые относятся к системным заболеваниям соединительной ткани и объединяются общим термином – идиопатические воспалительные миопатии (ИВМ). В данной статье подробно представлены современные данные о нозологических формах ИМВ, их клинико-иммунологических особенностях, диагностических критериях, дифференциальной диагностике и определение стратегии рациональной терапии.
Ключевые слова: дерматомиозит, полимиозит, диагностические критерии, иммунологические показатели.

SUMMARY

IDIOPATHIC INFLAMMATORY MYOPATHIES - A PROBLEM OF MODERN RHEUMATOLOGY

[1]Gasimova F.N., [1]Agaev A.R., [1]Mammadova R.N., [1]Akhundova U.Ya., [1]Mehdiyeva A.R., [2]Babaeva L.K.
[1]Azerbaijan State Advanced Training Institute for Doctors named after A.Aliyev, Department of Therapy, Baku, Azerbaijan;
[2]Central Hospital of Absheron Region, Polyclinic Department, Baku, Azerbaijan

Polymyositis (PM) and dermatomyositis (DM) are autoimmune diseases of skeletal muscles of unknown etiology, which belong to systemic diseases of the connective tissue and are collectively called idiopathic inflammatory myopathies (IIM). This article presents in detail the current data on the nosological forms of IMI, their clinical and immunological characteristics, diagnostic criteria, differential diagnosis and the definition of a rational therapy strategy.
Keywords: dermatomyositis, polymyositis, diagnostic criteria, immunological parameters.

Redaksiyaya daxil olub: 13.02.2022
Çapa tövsiyə olunub: 07.03.2022
Rəyçi: dosent N.R.İsmayılova

KLİNİK HADİSƏ | **КЛИНИЧЕСКИЙ СЛУЧАЙ** | **CLINICAL CASE**

GƏNC QADIN PASİYENTDƏ QARIŞIQ BİRLƏŞDİRİCİ TOXUMA XƏSTƏLİYİ VƏ ANKİLOZLAŞAN SPONDİLOARTRİT XƏSTƏLİYİNİN BİRLİKDƏ MÜŞAHİDƏSİ

[1]Cəfərov R.Z., [2]Atakişiyeva V.N.*

[1]Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, revmatologiya şöbəsi, Bakı, Azərbaycan;
[2]MedEra Hospital, Bakı, Azərbaycan

Məqalə 27 yaşlı qadında qarışıq birləşdirici toxuma xəstəlikləri və ankilozlaşan spondiloartrit xəstəliyinin eyni zamanda rast gəlinməsi, diferensial diaqnozun düzgün aparılması, müalicə taktikası və klinik müşahidəsinə həsr olunmuşdur.

Açar sözlər: qarışıq birləşdirici toxuma xəstəliyi (QBTX), ankilozlaşan spondiloartrit (AS), diaqnostika, müalicə.

Qarışıq birləşdirici toxuma xəstəliyi (QBTX) spesifik anticismlərin varlığı ilə aşkarlanan, sistem qırmızı qurdeşənəyi (SQQ), sistem sklerodermiya, Şeqren xəstəliyi, dermatomiozit, polimiozit kimi xəstəliklərin əlamətlərini özündə birləşdirən, ən azı iki birləşdirici toxuma xəstəliklərinin əlamətləri ilə müşahidə olunan nadir autoimmun xəstəlikdir [1, 2]. Xəstəliyin əlamətləri: oynaqlarda xüsusən əl oynaqlarında ağrı, şişkinlik, ümumi əzələ ağrıları, gücsüzlük, soyuq və stresslə əlaqəli olaraq əl barmaqlarında rəng dəyişikliyi, ağarma, göyərmə, qızarma, Reyno fenomeni əlamətləri, ümumi halsızlıq, bədən hərarətin yüksəlməsi, qısa zaman ərzində bədən çəkisinin itrilməsi müşahidə edilir [3, 4]

Etiologiya və patogeniz. Qarışıq birləşdirici toxuma xəstəliyi etiologiyası və səbəbi tam bilinməməkdədir. Xəstəliyin formalaşmasında bəzi virus xəstəliklərinin və ətraf mühit faktorlarının, kimyəvi amillərin rolu qeyd edilir. Patofizioloji olaraq xəstəlik zamanı Anti-nRNP (Ribonukleinproteinə qarşı-anticismlər) anticismlərin və ya digər adı ilə qeyd etsək Anti-U1 RNT-anticismlərin yaranması müşahidə edilir. U1RNP zülalının quruluşu 3 protein autoantigenindən təşkil olunmuş kiçik nüvə ribonukleoproteinidir. Bu zülallar A, C və 68 kD adlanır. RNP anticismləri insan qanında daha çox A və 68 kD autoantigenlərə qarşı istehsal olunur [5].

RNP anticisimləri sistem qırmızı qurdeşənəyi xəstəliyində və xüsusən də qarışıq birləşdirici toxuma xəstəliyində (QBTX) aşkar edilir. QBTX-də seroloji olaraq RNP anticisimlərinin yüksək titrlərinin olması və yanaşı, Sm və dsDNA anticisimlərinin olmaması ilə xarakterizə olunan xəstəlikdir.

Epidemiologiya. Qadın və kişi nisbəti 3,3/1-dir. Ortalama yaş göstəricisi 37,9-dur. Bu xəstəlik bütün irqlərdə müşahidə edilir və klinik əlamətləri oxşardır [6].

Qarışıq birləşdirici toxuma xəstəliyinin Diaqnostik meyarları Alarcon-Segovia tərəfindən hazırlanan meyarlardır (Cəd. 1) [7].

Cədvəl 1

Qarışıq birləşdirici toxuma xəstəliyinin Diaqnostik meyarları

Seroloji meyar
Anti-nRNP-anticimləri (≥1/1600 titrdə)
Klinik meyarlar 1. Əllərdə ödem-şişkinlik 2. Reyno fenomeni 3. Atreskleroz 4. Sinovit 5. Miozit
Seroloji meyar və sadalanan 5 meyardan biri sinovit və ya miozit olmaqla ən azı üç əlamət varsa diaqnoz təstiqlənir.

Ankilozlaşan spondiloartrit. Xüsusi ilə onurğanı və oma-qalça (sakroilial) oynağını zədələyən, xroniki, proqressiv iltihabı bir revmatizmal xəstəlikdir. Xəstəliyin kliniki əlamətləri 80%-də 30 yaşdan əvvəl başlayır. Kişilər qadınlara nisbətən daha çox xəstələnir (qadın/kişi 1/2-nisbətdə) və kişilərdə daha ağır əlamətlərlə müşahidə edilir. Klinik əlamətləri ilkin olaraq iltihabı xroniki ən azı 3 aydan çox davam edən bel ağrısıdır. Bel ağrısının xususiyyəti; gecə yuxudan ağrı ilə oyanmaq, səhər buxovlanmasının olması, istirahətlə artan, hərəkət etdikdə isə azalan bel ağrısının olmasıdır. Diaqnozun qoyulmasında istifadə ediən diaqnostik meyarlar cəd. 2-də verilmişdir [8, 9].

*e-mail: vusaleatakishiyeva@gmail.com

Cədvəl 2

Modifikasiya olunmuş Nyu York meyarları

1. Ən azı 3 aydan daha çox sürən, idmanla düzələn, istirahətdə azalmayan bel ağrısı. 2. Onurğanın bel nahiyyəsində sagital və frontal sahələrdə hərəkət məhdudluğu. 3. Döş qəfəsində yaşa uyğun olmayan, ekskursiyanın azalması.
Radioloji meyarlar: 4a. Bilateral II-IV cü mərhələ sakroilit. 4b. Unilateral III-IV cü mərhələ sakroilit.
Dəqiq diaqnoz üçün 4.a və ya 4.b və hər hansı bir klinik meyar (1-3) olması lazımdır.

Təcrübəmizdən olan klinik hadisəni təqdim edirik.

Xəstə X., 27 yaşında qadın saç tökülməsi, üz nahiyyəsində səpkilər, ağız içində çoxsaylı ağrılı yaraların olması, bədən hərarətin yüksəlməsi, hər iki aşağı ətraflarda ayaqların, hər iki bud nahiyyələrinə qədər şişməsi, hər iki aşağı ətrafda olan gücsüzlük, yeriyə bilməməkdən, qarın nahiyyəsinin 2-3 dəfə artıq böyüməsi-şişkinlikdən, tənginəfəslik, ümumi halsızlıq, hər iki əl barmaqlarının ağarıb, göyərməsi, qızarması, rəng dəyişikliyi, keyimə və ağrı hissi şikayətləri ilə 11.03.2020-ci ildə Referans poliklinikə daxil olmuşdur.

Anamnez morbi. Xəstənin dediyinə görə özünü 2016-cı ildən xəstə hesab edir. Xəstəlik gözlərində və ağızında quruluq, gözlərində sanki "qum tökülmə" hissiyatı olması ilə başlayıb. Bir müddət sonra çənəaltı vəzinin böyüdüyü üçün üz çənə cərrahına müraciət etmiş və əməliyyat edildikdən sonra, əməliyyat matrealının patoloji-anatomik müayinəsi nəticəsində "xoşxassəli törəmə" olduğunu qeyd etmişlər.

2017-ci ildən quruluq əlamətləri ilə yanaşı tez-tez bədən hərarətin yüksəlməsi, tənginəfəslik, ümumi halsızlıq, saç tökülməsi, ağız içi çoxsaylı ağrılı yaraların olması, əllərdə rəng dəyişikliyi, ağrı, keyimə hissinin olması ilə əlaqədar Şamaxı Rayon xəstəxanasına müraciət etmişdir. Keçrilmiş müayinələr nəticəsində ağciyər plevrasında çox miqdarda maye olduğu aşkarlanmış və plevrit diaqnozu təstiq edilərək müvafiq müalicə təyin edilmişdir. Müalicə fonunda plevrit sağalmışdır. Lakin saç tökülməsi, üzdə səpkilər, ağız içində olan yaralar, əllərdə olan ağrı, rəng dəyişikliyi, gözlərində, ağızında olan quruluq, ümumi halsızlıq əlmətləri getməmişdir.

Bir müddət sonra ürək nahiyyəsində ağrı, tənginəfəslik, halsızlıq əlamətlərinin də əmələ gəlməsi səbəbi ilə Bakı şəhərində Avrasiya Hospitalda kardioloq həkimə müraciət etmiş və "Perikardit "diaqnozu ilə müalicə olunmuşdur.

2020-ci ildə yanvar ayında ayaqlarında şişkinliyin olması və bud nahiyyəsinə qədər yayılması,qarın nahiyysəinin 2-3 dəfə artıq böyüməsi, tənginəfəslik, hər iki aşağı ətraflarda gücsüzlük, yeriyə bilməmək, yanaşı olaraq saç tökülmə, ağızda ağrılı yaraları, üz dərisində səpkilərin olması, gözlərin ətrafında qaralmalar, hər iki əlin xüsusən soyuq havaya çıxdıqda, stress keçirtdikdə ağarma, göyərməsi, barmaqların bayır səthində dərinin rənginin tündləşməsi, qalınlaşması, ağızda quruluq, gözlərdə quruluq, ümumi halsızlıq, bədən temperaturunun tez-tez yüksəlməsi, bədən çəkisinin qısa zaman ərzində itrilməsi əlamətləri ilə Şamaxı rayon Mərkəzi xəstəxanasına ailə həkiminə müraciət etmiş və kliniki əlamətlərə, aparılmış müayinələrə əsasən xəstəni revmatoloq həkimə müraciət etməsini demişlər.

Anamnesis vitae. Uşaq vaxtı fiziki və əqli inkişafı normal olmuşdur. Keçirtdiyi infeksion xəstəlikləri xatırlamır. Özündə və ailəsində dəri və zöhrəvi xəstəlikləri inkar edir. Atasında osteoartrit xəstəliyi olduğunu qeyd edir. Mənzil məişət şəraiti kafidir. Ailəlidir. Üç uşağı var.

Status localis. Xəstənin halı ağır. Huşu aydın, vəziyyəti passivdir. Sümük-əzələ sistemi: hər iki aşağı ətrafların gücsüzlüyü və tam hərəkət məhdudluğu qeyd olunur. Dərialtı piy qatı kafi dərəcədə inkişaf etmişdir. Əzələ sistemi kafi inkişaf etmişdir. Tənəffüs pozulmuşdur, tənginəfəsdir. Auskultasiya zamanı ağciyərlər üzərində zəifləmiş vezikulyar tənəffüs eşidilir.

Ürək-damar sistemi: AT 130/80 mm Hg. Ps-və ritmik orta dolğunluqda və gərginlikdədir, 100 – 1 dəq. Ürək tonları karlaşmışdır. Fizioloji aktlar normal. Döyəcləmə simptomu hər iki tərəfdə mənfidir.

Status preasens. Saç tökülməsi, üz dərisində

burun-dodaq üçbucağı qorunmaq şərti ilə çəhrayı səpkilərin olması ”Kəpənək simptomu”, hər iki göz ətrafında halqavari dəri rənginin tündləşməsi ”Heliotrop səpki”, ağızın selikli qişasında yanağın iç səthində ağrılı çoxsaylı yaraların olması ”xeylit”, hər iki əl barmaqlarında ağarma, göyərmə, qızarma ”Reyno fenomeni”, mərmərvari dəri görünüşü ”torlu livedo”, hər iki əl barmaqlarının metokarpo-falangial və proksimal falanqaları üzərində dəridə döyənəklərin olması ”Qottron əlaməti”, ayaqlar, baldır və bud nahiyyələrinin ödemlə əlaqəli şişkinlik, qarın nahiyyəsinin iki dəfə artıq assit hesabına böyüməsi müşahidə edilir.

Aparılan laborator müayinələr cəd. 3-7-də qeyd olunub.

Cədvəl 3

Qanın ümumi analizi (10.03.2021)

Göstərici	Nəticə	Norma	Vahid
Leykositlər	3,03↓	3.8-10	10^9/l
HGB	12,5↓	11,8-16,8	q/dl
Hemotokrit	34,3↓	35-45	%
PLT	63↓	130- 400	10^3/
PCT	0,07↓	0,2-0,5	%
NEUT	1,37↓	2,02-7,46	10^3/µL
EÇS (Wester-Gren)	85↑	1-20	mm/saat

Qeyd: EÇS – eritrositlərin çökmə sürəti, HGB – hemoqlobinin.

Cədvəl 4

Qanın biokimyəvi analizi (10.03.2021)

Göstərici	Nəticə	Norma və vahid
Kreatinin	0,6↓	0,66-1,25 mq/dl
AST	112,4↑	10-32 IU/l
BUN (qalıq azot)	19↑	3,2-7,9 mq/dl
ALT	38,2↑	<31 IU/l

Qeyd: AST – aspartat aminotransferaza, ALT – alanin aminotransferaza.

Cədvəl 5

Sidiyin ümumi analizi (10.03.2021)

Müayinə	Nəticə	Norma
Xüsusi çəkisi	1030	1008-1028
Zülal	601,9	0-12 mq/dl
Yastı epitel hüceyrələr	5-7	0-5
Leykositlər	4-6	0-6
Eritrositlər dəyişilməmiş	35-40	0-2
Silindirlər	4-6 dənəli	0-1 hialin
Selik	+	yoxdur
Bakteriyalar	az miqdarda	az miqdarda

Cədvəl 6

İmmunoloji analizlər (11.03.2021)

Müayinə	Nəticə	Norma
Komplement 3 fraksiyası (C3)	21↓	83-193 mg/dl
Komplement 4 fraksiyası (C4)	3,2↓	15-57 mg/dl
Anti-ds DNT	71↓	Neqativ≤100 Pozitiv≥100
Total kreatininkinaza (CK)	13↓	U/L 22-220
CRP	0,1	0-5 mg/L
LDH (Laktodehidrogenaza)	323	90-240 U/L
ANA (antinuklear anticismlər) (ANA, İFA) Pattern: Qranulyar	Pozitiv+++	Neqativ

Cədvəl 7

ENA plus Panel

Test	Nəticə	Vahid
Anti-nRNP/Sm	Pozitiv+++	Neqativ
Anti-Sm	Pozitiv+++	Neqativ
Anti-SSA (60kDa)	Pozitiv+++	Neqativ
Ro-52	Pozitiv+++	Neqativ
Anti-SS-B	Pozitiv+++	Neqativ
Anti SCL-70	Neqativ	Neqativ
CENPA	Pozitiv+++	Neqativ
Mi-2α	Pozitiv+	Neqativ
Mi-2β	Pozitiv++	Neqativ
Ku	Pozitiv+	Neqativ
Anti-Ds DNT	Neqativ	Neqativ
Anti-Sentromer protein B	Neqativ	Neqativ

Aparılan instrumental müayinə metodları. ***Qarın boşluğu orqanlarının USM müayinəsi:*** Qaraciyər; diffuz, struktur dəyişiklik görünür. Quyruqlu payın sol payın qalınlığına olan nisbəti 41% normadan böyük,qaraciyər sirrozu istisna deyil. Öd kisəsi divarı qalınlaşıb – 1,7 sm həcmli proses görünmür. Sol böyrək 9,35×4,54 sm olmaqla kistalar görünür. Dalaq böyüyüb – 122 sm2. Sağ böyrək 11,69×4,69 sm olmaqla kistalar görünür. Morisson cibində kiçik çanaqda maye-assit müşahidə olunur. Mayenin miqdarı 1.0 litr.

Elektromioqrafiya müayinəsi (20.04.2021): Müayinə nəticəsində alınan elektrodiaqnostik göstəricilər miopatik patologiyanı düşündürür.

Elektrokardioqrafiya müayinəsi: Aorta və ürək boşluqları normaldır. Mitral və aortal qapaqlar fibrotikdir. Pulmonar təzyiq –normal.

Diaqnoz: Minimal aortal çatışmazlıq. Fizioloji mitral requrgitasiya.

Revmatoloqun nəticəsi (11.03.21): Xəstənin şikayətlərini, klinik əlamətlərini, aparılan immunoljilaborator müayinələri və instrumental müayinələri nəzərə alaraq QBTX diaqnozu (sistem qırmızı qurdeşənəyi xəstəliyi, Şeqren xəstəliyi, dermatomiozit xəstəliyi) təsdiq edildi. Xəstədə böyrək zədələnməsini və klinik olaraq ağırlıq dərəcəsini nəzərə alaraq Puls terapiya və Siklofosomid müalicəsi başlanıldı. Müalicə fonunda klinki yaxşılama əldə edildi.

Aparılan müalicə:

- Pantoprozol 40 mq gündə 1 dəfə səhər
- Metipred – 500 mg №3 v/d
- Siklofosfamid – 1000 mg×ayda 1 dəfə v/d (6 ay ərzində)
- Plaquenil – 200 mg×gündə 2 dəfə
- Metipred – 16 mg×gündə 1dəfə
- Kalsium – 1000 mg×1dəfə

Təyin edilmiş müalicədən 4 ay sonra 2021-ci ilin iyul ayında pasient bel və əzələ ağrıları ilə yenidən bizə müaraciət etmişdir. Bel ağrısı xüsusən gecə səhərə yaxın xəstəni narahat etdiyini və yuxudan bel ağrısı ilə oyandığını, gün ərzində hərəkətlə ağrının azaldığını qeyd edirdi. Ağrının 3-aydan çox davam etməsini nəzərə alaraq 30.07.2021 tarixində Lumbosakral Maqnit Rezonans Tomoqrafiya müayinəsi təyin edildi və "iki tərəfli sakroiliit" əlaməti aşkarlandı. Bu klinik əlamətlərə və instrumental müayinələrə əsasən ankilozlaşan spondiloartrit diaqnozu təsdiq edildi. Yanaşı olaraq əvvəlki diaqnozun kontrol müayinəsi məqsədi ilə qanın biokimyəvi və immunoloji laborator müayinələri təyin edildi (cəd. 8 və 9). Müalicə təyinatında dəyişiklik edilərək TNF-α inhibitoru – Etanersept 50 mg (Enbrel 50 mg) təyin edildi. Dörd doza aldıqdan sonra, xəstədə yenidən bel ağrıları başladığına görə Etanersepti (Enbrel 50 mg) saxlayıb, əvəzinə TNF-α inhibitoru olan Adalimumab (HUMİRA – 40 mg/0,4 mL) 15 gündən 1 təyin edildi [10]. Bu müalicə fonunda xəstədə kliniki yaxşılaşma əldə edildi

Lumbosakral Maqnit Rezonans Tomoqrafiya müayinəsi (30.07.2021): Koronal seriyalara daxil olan bilateral sakroiliak oynaqlarda maye artışı, üzbəüz oynaq səthlərində yayılmış tərzdə geniş sümük ödemi sahələri aşkar edilir (sakroileit).

Cədvəl 8

Biokimyəvi müayinələr (30.07.21)

Müayinələr	Nəticə	Norma
ALT	38,6	≤33v/l
AST	37,7	≤32 v/l
Kreatinin	40,0	≤106 mkmol/l
LDH	236	135-205 v/l
CRZ	4,13	0-5mmol/l
C3 komplement	113	90-180 mg/dl
C4 komplement	27,0	10-40 mg/dl

Cədvəl 9

İmmunoloji laboratoriya (30.07.21)

Müayinə	Norma	Nəticə
ds-DNA igG ELİSA	Neqativ<25 Pozitiv > 40	7,3 IU/ml

Mualicə:

- Adalilumab (HUMİRA 40 mg/0,4mL) 15 gündən bir d/a
- Pantoprozol 40 mq gündə 1 dəfə səhər
- Metiped 4 mg x 1dəfə səhər
- Kalsium 1000 mg x 1dəfə
- Hidroksixloroxin - 200 mg gündə 2 dəfə

Yekun. Xəstədə təyin olunan müalicə fonunda nisbi yaxşılaşma əldə edildi.Yuxarıda qeyd olnanları nəzərə alaraq xəstədə klinik əlamətlərin ,laborator-instrumental müayinələrin nəticələrinə əsasən bir xəstədə bir neçə Revmatoloji xəstəliyin olma ehtimalını unutmamaq lazımdır. Düzgün diaqnoz qoyulduqdan sonra isə müalicə prinsiplərini buna uyğun seçib, dinamik müşahidə apararaq dərman preparatlarının dozasını remissiya əldə etdikdən sonra minimuma endirmək tövsiyyə olunur. Klinik halın bir çox həkimlər üçün maarifləndirici olacağını düşünürük.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Alves M.R., Isenberg D.A. "Mixed connective tissue disease": a condition in search of an identity // Clin Exp Med., 2020;20(2):159-166. doi: 10.1007/s10238-020-00606-7. Epub 2020 Mar 4.PMID: 32130548.
2. Martínez-Barrio J., Valor L., López-Longo F.J. Facts and controversies in mixed connective tissue disease // Med Clin (Barc)., 2018; Jan 12;150(1):26-32. doi: 10. 1016/j.medcli.2017.06.066.
3. Lee C.T, Strek M.E. The other connective tissue disease-associated interstitial lung diseases: Sjogren's syndrome, mixed connective tissue disease and systemic lupus erythematosus // Curr Opin Pulm Med, 2021; 1;27(5):388-395. doi: 10.1097/ MCP.0000000000000791.
4. Jacques T., Sudoł-Szopińska I., Larkman N., O'Connor P., Cotten A. Musculoskeletal Manifestations of Non-RA Connective Tissue Diseases: Scleroderma, Systemic Lupus Erythematosus, Still's Disease, Dermatomyositis/ Polymyosi-

tis, Sjogren's Syndrome, and Mixed Connective Tissue Disease // Semin Musculoskelet Radiol. 2018;22(2):166-179. doi: 10.1055/s-0038-1639473.
5. Dima A., Jurcut C., Baicus C. The impact of anti-U1-RNP positivity: systemic lupus erythematosus versus mixed connective tissue disease // Rheumatol Int., 2018;38(7):1169-1178. doi: 10.1007/s00296-018-4059-4.
6. Stojan G., Petri M. Epidemiology of systemic lupus erythematosus: an update // Curr Opin Rheumatol., 2018;30(2):144-150. doi:10.1097/BOR.0000000000000480
7. Poddubnyy D. Classification vs diagnostic criteria: the challenge of diagnosing axial spondyloarthritis // Rheumatology (Oxford), 2020; 1;59(Suppl4):iv6-iv17. doi: 10.1093/rheumatology/keaa250.
8. Yamanaka Y., Baba T., Hagiwara E., Yanagawa N., Takemura T., Nagaoka S., Sakai F., Kuwano K., Ogura T. Radiological images of interstitial pneumonia in mixed connective tissue disease compared with scleroderma and polymyositis/ dermatomyositis // Eur J Radiol., 2018; 107:26-32. doi:10.1016/j.ejrad.2018.08. 005.
9. Braun J, Baraliakos X., Buehring B., Kiltz U., Fruth M. Imaging of axial spondyloarthritis. New aspects and differential diagnoses // Clin Exp Rheumatol. 2018;36 Suppl 114(5):35-42.
10. Ozaki Y., Nomura S. Treatment of Connective Tissue Disease-Related Intractable Disease with Biological Therapeutics // Open Access Rheumatol., 2021; 13:293-303. doi: 10.2147/OARRR.S328211. eCollection 2021.

РЕЗЮМЕ

СОЧЕТАНИЕ СМЕШАННОГО ЗАБОЛЕВАНИЯ СОЕДИНИТЕЛЬНОЙ ТКАНИ И АНКИЛОЗИРУЮЩЕГО СПОНДИЛОАРТРИТА У МОЛОДОЙ ПАЦИЕНТКИ

[1]Джафаров Р.З., [2]Атакишиева В.Н.

[1]Главный Клинический Госпиталь Министерства Обороны, отделение ревматологии, Азербайджан, Баку;

[2]Госпиталь МедЭра, Азербайджан, Баку

В статье описан клинический случай сочетания смешанного заболевания соединительной ткани с анкилозирующим спондилоартритом у 27-и летней пациентки, правильной дифферациональной диагностике, тактике лечения.

Ключевые слова: смешанное заболевание соединительной ткани (СЗСТ), анкилозирующий спондилоартрит (АС), диагностика, лечение.

SUMMARY

CORPORATIVE SURVEY OF MIXED CONNECTIVE TISSUE AND ANKYLOSING SPONDYLITIS DIAGNOSIS

[1]Jafarov R.Z., [2]Atakishiyeva V.N.

[1]General Clinical Hospital of the Armed Forces of the Ministry of Defense, Department of Rheumatology, Azerbaijan, Baku;

[2]Medera Hospital, Azerbaijan, Baku

The article is dedicated to revealing of mixed connective tissue at the same time with ankylosing spondylitis disease in a woman of 27, right way differential diagnosing process, the treatment tactics and clinic surveys.

Keywords: the mixed connective tissue disease (MCTD), ankylosing spondylitis (AS), the diagnosis, the treatment.

Redaksiyaya daxil olub: 13.12.2021
Çapa tövsiyə olunub: 07.01.2022
Rəyçi: dosent S.X.Mehdiyev

Müəlliflərin nəzərinə!

"Tibb və elm" Ə.Əliyev adına elmi-praktik jurnala tibbin bütün bölmələri barədə original materiallar qəbul olunur. Məqalələr əvvəllər heç bir nəşrlərdə dərc edilməməli və onlara təqdim olunmamalıdır (istisna hallar redaksiya heyəti tərəfindən müzakirə olunur). Məqalələr redaksiya heyəti tərəfindən müsbət rəy aldığı halda 1-6 ay ərzində dərc olunur. Məqalələr azərbaycan, rus və ingilis dillərində qəbul edilir, azərbaycan dilində yazılan məqalələrə üstünlük verilir. Məqalə iş yerinə yetirilmiş müəssisədən rəsmi məktubla müşaiyət olunmalıdır. Məqaləyə imzalanmış və möhürlənmiş rəhbər rəyi əlavə edilməlidir. Hər bir məqalə Microsoft World formatında iki nüsxədə çap olunmuş və CD variantlarında təqdim olunmalıdır (redaksiya heyətinin rəyindən asılı olmayaraq təqdim edilmiş materiallar geri qaytarılmır). Bütün dillərdə Times New Roman şriftindən istifadə edilməlidir. Məqalə A4 ölçülü kağızda çap olunur, şriftin ölçüsü 14pt, sətirarası məsafə 1,5 interval olmalıdır. Orijinal məqalələrin həcmi şəkil, cədvəl və ədəbiyyat siyahısı ilə birlikdə 8 səhifədən, ədəbiyyat icmalları və mühazirələrin həcmi isə 12 səhifədən artıq olmamalıdır. Hər bir məqalə aşağıdakı bölmələrdən ibarət olmalıdır:

- giriş və ya müqəddimə;
- material və tədqiqat metodları;
- tədqiqatın nəticələri və müzakirə;
- istifadə edilmiş ədəbiyyat siyahısı;
- xülasə və açar sözlər (azərbaycan, rus və ingilis dilində).

Ədəbiyyat siyahısı Vankuver sisteminə əsasən əlifba sırası ilə verilir (əvvəlcə azərbaycan, sonra rus, ingilis və digər dillər).

Redaksiya göndərilən materialları ixtisar etmək və düzəlişlər aparmaq hüququna malikdir və çap edilmiş materiallara görə məsuliyyət daşımır.

Information for authors!

“The Medicine and science” scientific-practical journal named by A.Aliyev publishes original articles in all sections of medicine. The articles must not been published or presented for publication in other editions (except the cases of Editorial board's decision). After Editorial Staff's approve articles will be published during 1-6 months. The article must be written in Azerbaijani, Russian and English languages, advantage will have an article on Azerbaijani language.

The official covering letter of Institution and teacher's stamped and signed comment must be applied to the manuscript. The articles must be presented in Microsoft Word format in duplicate printed versions and on CD (not depending on Editorial board's decision the manuscript is not sending back). For the articles in all languages must be used Times New Roman and be printed on A4 format, symbols size 14pt, line-to-line spacing 1.5. The amount of the original article including illustrations, tables and references must not be more than 8 pages, literatures reviews and lectures - 12 pages.

The articles must consist of the next sections:

- introduction
- investigation's material and methods
- results and discussions
- list of references
- abstract and key words (in Azerbaijani, Russian and English languages)

The references must be presented in alphabetical list according to the Vancouver's system (first Azerbaijani, then Russian, English and other languages).

Editorial board has the rights to cancel or edit the presented articles and is not responsible for published information.

К сведению авторов!

В “Медицина и наука” научно-практический журнал имени А.Алиева принимаются оригинальные материалы по всем разделам медицины. Статьи не должны быть опубликованы или предоставлены для публикации в другие издания (за исключением рассмотрения редакционной коллегией). После одобрения редакционной коллегией, статьи будут опубликованы в течение 1-6 месяцев. Статьи принимаются на азербайджанском, русском и английском языках, преимущество будут иметь статьи на азербайджанском языке.

Рукопись сопровождается официальным письмом учреждения, в котором выполнена работа. К статье должен быть приложен отзыв руководителя с подписью и печатью. Каждая статья должна быть представлена в формате Microsoft Word в двух печатных вариантах и на CD (вне зависимости от решения редакционной коллегии, предоставленные материалы не возвращаются). При оформлении статьи на всех языках должен быть использован шрифт Times New Roman. Статьи печатаются на бумаге формата А4 с размером символов 14pt и междустрочным интервалом 1,5. Объем оригинальных статей, включая рисунки, таблицы и список литературы, должен составлять не более 8 страниц, обзоров литературы и лекций - 12 страниц. Каждая статья должна состоять из следующих разделов:

- введения или предисловия;
- материалов и методов исследования;
- результатов исследования и обсуждения;
- списка использованной литературы;
- резюме и ключевых слов (на азербайджанском, русском и английском языках).

Список литературы должен быть представлен по алфавитному списку согласно Ванкуверской системе (сначала азербайджанском, затем русском, английском и др. языках).

Редакция оставляет за собой право аннулировать или редактировать представленные статьи и не несет ответственности за опубликованную информацию.

MÜNDƏRİCAT

Ədəbiyyat icmalı

İsmayılova N.F. Hamilə qadınlarda xroniki venoz çatmamazlığın proqressivləşməsinin risk faktorları **8**

Əliyeva S.E. Uşaqlarda epilepsiya və depressiyanın birlikdə müşahidə olunması **14**

Məmmədova R.Y., Abdullaeva S.R. Allergiya gigiyenasının hipotezi, COVID-19 pandemiyası və insan mikrobiomuna təsirləri **21**

Qarayeva S.Q. Uşaqlıq mioması və onun reproduktiv funksiyaya təsiri **29**

Orijinal məqalələr

Həsənova M.Q., Məmmədli V.A. Hamilələrdə simptomsuz bakteriuriyanın diaqnostikası və müalicəsi **32**

Kərimova G.E., Mehmani İ.H., Babayev E.E., Əşrəfov D.S., Gromov O.V. Müxtəlif yaş qruplarında parodont patologiyalı pasiyentlərdə bügel protezlərinin istifadəsilə kompleks müalicəsinin uzaq nəticələri **36**

Canbaxışov Q.S., Həsənova N.A., Cəfərova G.A. Sınıqlarla müşayiət olunan osteoporozlu xəstələrdə Vitamin D və biokimyəvi göstəricilər arasında əlaqə **40**

Mehralıyeva S.C., Musayeva S.E., Ceviz Şakar B., Orhan Z. Maral pantlarından alınan ekstrakt əsasında işlənib hazırlanan nanokapsulların morfoloji analizi **45**

Bəxtiyarova L.B., Sərdarlı F.Z., Eminbəyli X.R. 2-ci tip şəkərli diabetli xəstələrdə diabetik nefropatiyanın erkən mərhələsində böyrəklərin fuksional vəziyyəti **52**

İbişova L.M. Quba-Xaçmaz iqtisadi regionunda yumurtalıq xərçənginin epidemioloji xüsusiyyətləri **56**

CONTENTS

Literature reviews

Ismayilova N.F. Risk factors for the progression of chronic venous insufficiency in pregnant women **8**

Aliyeva S.E. Observation of the combination of epilepsy and depression in children **14**

Mamedova R.Y., Abdullaeva S.R. Allergy hygiene hypothesis, COVID pandemic and implications for the human microbiome **21**

Garayeva S.G. Uterine myoma and its effect on the reproductive functions **29**

Original articles

Gasanova M.Q., Mammadli V.A. Diagnostics and treatment asymptomatic bakteriuriya in pregnant women **32**

Kerimova G.E., Mehmani I.G., Babayev E.E., Ashrafov D.S., Gromov O.V. Long term results after complex treatment with removable partial prosthesis in different age group of patient with periodontal diseases **36**

Janbaкhıshov G.S., Hasanova N.A., Jafarova G.A. Communication between Vitamin D and biochemical indicators in osteoporosis patients with fractures **40**

Mehraliyeva S.C., Musayeva S.E., Ceviz Shakar B., Orhan Z. Levels of metabolic products in blood samples of patients and healthy people with the liver echinococcosis **45**

Bakhtiyarova L.B., Sardarly F.Z., Eminbeyli X.R. Functional state of the kidneys in patients with early stages of diabetic nephropathy due to type 2 diabetes mellitus **52**

Ibishova L.M. Epidemiological features of ovarian cancer in Guba-Khachmaz economic region **56**

Əliyeva Ş.R. Quba-Xaçmaz iqtisadi regionda "Triple-neqativ" süd vəzi xərçənginin epidemioloji xüsusiyyətləri 60 Aliyeva Sh.R. Epidemiological features of «Triple negative» breast cancer in the Guba-Khachmaz economic district

Süleymanova N.M. Polikistoz yumurtalıq sindromu və metabolik pozulmaları olan hamilə qadınlarda klinik-laborator və instrumental göstəricilər 63 Suleymanova N.M. Clinical, laboratory and instrumental indicators in pregnant women with polycystic ovarian syndrome and metabolic disorders

Praktik həkimə kömək **Help to the practical doctor**

Qasımova A.R. Vulqar pemfiqusun patogenezinin müasir konsepsiyası 69 Gasimova A.R. The modern concept of the pathogenesis of pemphigus vulgaris

Mahmudova K.C., Fərəcova N.A., Eyvazov T.H. Virus hepatitləri müasir təbabətin vacib problemlərindən biri kimi 73 Mahmudova K.J., Farajova N.A., Eyvazov T.H. Virus hepatitis-one of the main problems of the modern medicine

Qasımova F.N., Ağayev A.R., Məmmədova R.N., Axundova Ü.Y., Mehdiyeva A.R., Babayeva L.K. İdiopatik iltihabi miopatiyalar - müasir revmatologiyanın problemidir 80 Gasimova F.N., Agaev A.R., Mammadova R.N., Akhundova U.Ya., Mehdiyeva A.R., Babaeva L.K. Idiopathic inflammatory myopathies - a problem of modern rheumatology

Klinik hadisə **Clinical case**

Cəfərov R.Z., Atakişiyeva V.N. Gənc qadın pasiyentdə qarışıq birləşdirici toxuma xəstəliyi və ankilozlaşan spondioartrit xəstəliyinin birlikdə müşahidəsi 89 Jafarov R.Z., Atakishiyeva V.N. Corporative survey of mixed connective tissue and ankylosing spondylitis diagnosis

Müəlliflərin nəzərinə! 94 **Information for authors!**

Bakı - RedNLine - 2022, 99 səh
Çapa imzalanmışdır: 29.03.2022
Format 60x84 1/8
Tiraj: 200

Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə